# KİTABXANAŞÜNASLIQ
# VƏ
# BİBLİOQRAFİYA

№1 * 2011

**BAKI –2011**

İSSN 2079-4150

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ**

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Elmi-nəzəri, metodik və təcrübi jurnal

**№1 (28) * 2011**

1997-ci ilin
oktyabrından çıxır

**BAKI –2011**

***KBT- 78***
***K 73***

***Təsisçi və baş redaktor:*** ***professor Xəlil İSMAYILOV***

***Məsul katib:*** ***dosent Knyaz ASLAN***

***REDAKSİYA HEYƏTİ:***

***Professor Abuzər XƏLƏFOV***
***Professor Zöhrab ƏLİYEV***
***Professor Bayram ALLAHVERDİYEV***
***Dosent Nadir İSMAYILOV***
***F.e.d. Aybəniz ƏLİYEVA-KƏNGƏRLİ***
***T.e.n. Kərim TAHİROV***
***Tamella İSMİXANOVA***
***Mələk HACIYEVA***
***B. m. Solmaz SADIQOVA***

K 73 *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-B.: Bakı Universiteti Nəşriyyatı, 2011.-№1.-137 s.*

*Redaksiyanın ünvanı:*
*AZ-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23,*
*2№-li tədris korpusu, IV mərtəbə, Kitabxanaçılıq-informasiya fakültəsi,*
*«Kitabxanaşünaslıq və biblioqrafiya» jurnalının redaksiyası*
*Telefonlar*: **439-05-47; 439-08-03**

**© «Kitabxanaşünaslıq və biblioqrafiya», 2011**

İSSN 2079-4150

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЕ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ
БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫЙ ФАКУЛЬТЕТ**

# БИБЛИОТЕКОВЕДЕНИЕ И БИБЛИОГРАФИЯ

**Научно-теоретический,
методический и практический журнал**

**№1 (28) * 2011**

Выпускается
с 1997 года

**БАКУ-2011**

***ББК-78***
***К 73***

***Учредитель и главный редактор:*** ***профессор Халил ИСМАИЛОВ***

***Ответственный секретарь:*** ***доцент Князь АСЛАН***

***РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ:***

**Профессор Абузар Халафов**
**Профессор Зохраб Алиев**
**Профессор Байрам Аллахвердиев**
**Доцент Надир Исмаилов**
**Д.ф.н. Айбениз Алиева-Кенгерли**
**К.и.н. Керим Тахиров**
**Тамелла Исмиханова**
**Мелек Гаджиева**
**Ст. преп. Солмаз Садыгова**

**К 73** *Библиотековедение и библиография: Научно-теоретический, методический и практический журнал .- Б., Изд-во Бакинского Университета, 2011.-№1.-137 с.*

*Адрес редакции:*

*AZ –1073/1 г. Баку, ул. Захида Халилова, 23,*
*учебный корпус №2, этаж IV, Библиотечно-информационный факультет, редакция журнала «Библиотековедение и библиография».*
*Тел.: 439-05-47; 439-08-03*

**© «Библиотековедение и библиография», 2011**

İSSN 2079-4150

**MINISTRY OF EDUCATION OF AZERBAIJAN REPUBLIC**

**BAKU STATE UNIVERSITY**
**LIBRARIANSHIP AND INFORMATION DEPARTMENT**

# LIBRARIANSHIP AND BIBLIOGRAPHY

**Scientific and theoretical, methodical and practical journal**

**№1 (28) * 2011**

**Issued in 1997**

**BAKU-2011**

*LBC-78*
*К 73*

*Founder and editor in chief:* *professor Khalil ISMAILOV*

*Executive secretary:* *docent Knyaz ASLAN*

**Editorial Board:**

**Professor Abuzar Khalafov**
**Professor Zohrab Aliyev**
**Professor Bayram Allahverdiyev**
**Docent Nadir Ismailov,**
**Ph.D. Aybeniz Aliyeva Kengerli**
**Ph.D. Kerim Tahirov**
**Tamella Ismihanova**
**Melek Hajiyeva**
**Sen. teach. Solmaz Sadigova**

**К 73 Librarianship and bibliography: The scientific-theoretical, methodical and practical journal.- B., Publisher of Baku University, 2011 .- № 1.-137 p.**

*Editorial address:*

AZ -1073 / 1, Baku, st. Zahid Khalilov, 23, an educational building № 2,
Floor IV, Librarianship and information department,
Edition of “Librarianship and bibliography” journal;
Tel.: 439-05-47, 439-08-03

**© «Librarianship and bibliography”, 2011**

# MÜNDƏRİCAT

## KİTABXANAŞÜNASLIQ


***X.İSMAYILOV*** *MKS-lərdə metodiki təminat işinin təşkili xüsusiyyətləri......................................................6*

***Y.QAZIYEV*** *Bazar günü, dəmir yolu, sənət və dənizçilik məktəblərinin kitabxanaları............................ 17*

***D.M. HƏSRİN*** *İnformasiya-axtarış sistemlərinin səmərəliliyinin qiymətləndirilməsi.......................................... 21*

***E. MƏMMƏDOV*** *M.F.Axundov adina Milli Kitabxananin dövri mətbuat fondunun Azərbaycan mədəniyyətinin və elminin inkişafinda yeri və rolu (1923-2008)......................................................... 39*

***M.İMAMVERDİYEV*** *Səbail Rayon kütləvi kitabxanalarında gənclərə kitabxana xidmətinin təşkili..............................51*

***R.HƏMZƏYEV*** *M.F.Axundov adına Milli Kitabxananın ilkin sənədlərlə komplektləşdirilmə mənbələri..........56*


## BİBLİOQRAFİYAŞÜNASLIQ


***N.İSMAYILOV***
***İ.BAYRAMOVA*** *Azərbaycan Respublikasının Regionlarının kitabxana-informasiya resurslarının inkişafının bəzi məsələləri..................................................62*

***Q.HACIYEVA*** *Müasir dövrdə ölkəşünaslıq biblioqrafiyasının təşkili..............................................................78*

***S.SADIQOVA*** *Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş biblioqrafik informasiya mənbəyi yaradılır............................................87*

***X.AĞAYEVA*** *Təhsilin biblioqrafik informasiya təminatı Sistemi..............................................................94*

***İ.BAYRAMOVA*** *Azərbaycan Respublikasinin regionlarinda kənd əhalisinin kitabxana-informasiya təminatının təşkili.............................................................. 114*

***V.HƏSƏNOVA*** *Azərbaycan nağıllarının sənəd-informasiya bazasının formalaşmasında sənədlərin rolu.................................................................130*

## СОДЕРЖАНИЕ

### БИБЛИОТЕКОВЕДЕНИЕ


***Х.ИСМАИЛОВ*** *Особенности организации работы методического обеспечения в ЦБС.......................................6*

***Ю.ГАДЖИЕВ*** *Библиотеки воскресенских, железных дорог, профессиольных и морских школ.......................17*

***М.Д.НАСРИН*** *Оценка эффективности информационно-поисковых систем.....................................................21*

***Э.МАМЕДОВ*** *Роль и место фонда периодики Национальной Библиотеки имени М. Ф. Ахундова в развитии культуры и науке Азербайджана......................39*

***М.ИМАМВЕРДИЕВ*** *Образование службы библиотек для молодежи в массовых библиотеках Сабаильского района.....................................................51*

***Р.ХАМЗАЕВ*** *Источники комплектования первичными документами Национальной Библиотеки имени М.Ф.Ахундова*.......................................56


### БИБЛИОГРАФОВЕДЕНИЕ


***Н.ИСМАИЛОВ И.БАЙРАМОВА*** *Некоторые вопросы развитие библиотечно-информационных ресурсов в регионах Азербай джанской Республики........................................62*

***Г.ГАДЖИЕВА*** *Организация страноведческой библиографии на современном этапе...........................................78*

***С.САДЫГОВА*** *Создается библиографический источник, посвященный к 90 летнему юбилею Бакинского Государственного Университета.....................87*

***Х.АГАЕВА*** *Библиографическая–информационная обеспечение образовательной системы...........94*

***И.БАЙРАМОВА*** *Организование библиотечно информационного обеспечения сельских жителей в регионах Азербайджанской Республики.........................114*

***В.ГАСАНОВА*** *Роль документов в формировании базы информационного документа сказок Азербайджана.................................................130*

## CONTENTS

### LIBRARY SCIENCE


***Kh. İSMAİLOV*** *Peculiarities of organization of methodological support in CLS......................................................6*

***Y.QAZİYEV*** *The railway professional and navigation school libraries..............................................................17*

***M.DADASHİ NASRİN*** *Evaluating the effectiveness of information retrieval systems......................................21*

***E.MAMMADOV*** *The role of periodical fund of the National Library named after M. F. Akhundoff in the development of Azerbaijan culture and science .....................39*

***M.İMAMVERDİYEV*** *The formation of the library service for the youth in the mass libraries of Sabail district.................................................................51*

***R.KHAMZAYEV*** *Source of primary documents of the national library named after M.F. Akhundov...............56*


### BIBLIOGRAPHY SCIENCE


***N.İSMAILOV I.Z.BAYRAMOVA*** *Some problems of development of library-information resources of regions of Azerbaijan...........................................................62*

***G.HAJIYEVA*** *Orgazination of regional geographic bibliography at the present stacge...........................................78*

***S.SADİGOVA*** *Is created a bibliographic source, dedicated to the 90th anniversary of Baku State University...........................................................87*

***Kh.AGAYEVA*** *The system of bibliography - information of the education.............................................94*

***I.BAYRAMOVA*** *Organization of library-information provision for villagers in the regions of the Republic of Azerbaijan.........................................................114*

***V.HASANOVA*** *Role of the documents in forming of the document information base of Azerbaijan tales.........................................................130*

.

# KİTABXANAŞÜNASLIQ

**Xəlil İSMAYILOV**
***Əməkdar mədəniyyət işçisi***
***tarix elmləri doktoru***
***professor***

## MKS-LƏRDƏ METODİKİ TƏMİNAT İŞİNİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** Metodiki təminat, kitabxana şəbəkələri, MKS-lərdə metodik iş, informasiya funksiyası, M.F.Axundov adına Milli kitabxana
***Ключевые слова:*** Методические обеспечение, сеть библиотек, методическая работа в ЦБС, информационная функция, Национальная библиотека им. М.Ф. Ахундова.
***Keywords:*** Methodological support, network of libraries, methodological work in the CLS, information function, National Library named after M.F.Akhundoff

Hazırda kitabxanaların metodiki təminat sistemi bir sıra cəhətləri ilə inkişaf etdirilir. Əlbəttə, keçmiş SSRİ-dən qalma bəzi əlamətlər hələ də mövcud olmaqla gündəlik həyatımızda kitabxana fəaliyyəti ilə məşğul olan hər bir mütəxəssisə rast gəlir. Demək olar ki, bu cəhətlər prinsip etibarilə hələ uzun müddət kitabxanaların metodiki təminatında özünü büruzə verəcək. Belə ki, elmi-metodiki işin bəzi cəhətləri, əlbəttə, dəyişməz olaraq qalmalıdır. Lakin metodiki təminat işinin müstəqil respublikamızda bir sıra yeni və milli cəhətləri mövcuddur və belə xüsusiyyətlər inkişaf etdirilir.

Azərbaycan Respublikasında kitabxanaların metodiki təminatı müstəqil və suveren dövlət kimi ümumi və milli mədəniyyətimizin kontekstində inkişaf etdirilir. Bu inkişaf, ilk növbədə, onunla bağlıdır ki, müstəqillik şəraitində respublikamızın sosial-iqtisadi inkişafı, Azərbaycan xalqının elmi-texniki və mənəvi potensialının güclənməsi, milli mədəniyyətimizin hərtərəfli tərəqqisi üçün geniş imkanlar yaradılmışdır.

.

Hələ 90-cı illərin əvvəllərindən başlayaraq demokratiyanı genişləndirmək, hüquqi, dünyəvi dövlət yaratmaq, elm, iqtisadiyyat və mədəniyyətimizi daha da inkişaf etdirmək üçün dövlət səviyyəsində səmərəli tədbirlər həyata keçirilməyə başlanılmışdır. Belə tədbirlər içərisində cəmiyyətin sosial-iqtisadi və ümummədəni səviyyəsinin yüksəldilməsinə yönəlmiş informasiya təminatı xüsusi əhəmiyyət kəsb edir. Bu isə elm, mədəniyyət, təhsil, mətbuat orqanları ilə yanaşı, kitabxanaların da qarşısında çox mühüm vəzifələr qoyur. Hazırda kitabxana işinin inkişaf tempi onun metodiki cəhətdən yeni istiqamətlərindən xeyli asılıdır. Xüsusilə yeni kitabxana-informasiya texnologiyalarının tətbiqi, informasiya tələbatının artdığı bir şəraitdə elmi-metodiki təminat daha güclü olmalıdır. Cəmiyyətdə kitabxana informasiya prosesləri ilə əlaqədar ardıcıl olaraq problemlər yaranır. Bu problemlərin nəzəri baxımdan düzgün dərk edilməsi və həlli təcrübi eksperimentlərin təşkilini və müxtəlif nəzəri müddəaların kitabxana təcrübəsində səmərəliliyinin öyrənilməsini tələb edir. Belə kompleks tədbirlər metodik fəaliyyətin elmi-tədqiqat işləri ilə əlaqəli şəkildə həyata keçirilməsinin mühüm vasitəsi kimi meydana çıxır.

Günün vacib tələblərindən biri də metodiki təminat sisteminin informasiya funksiyasının olduqca böyük əhəmiyyət daşımasıdır. İnformasiya funksiyasının tətbiq edilməsində ölkədaxili və xarici metodik məlumat bazasının formalaşması və müvafiq informasiyanın metodik işdə səmərəli istifadə edilməsi nəzərdə tutulur. Bundan başqa, kitabxanaların metodik təminat sisteminin ən mühüm funksiyalarından biri də pedaqoji funksiyadır ki, bu da özünü daha çox kitabxanaçılıq təhsilinin ixtisasartırma və kadrların yenidən hazırlanması mərhələsində göstərir. Hazırda kitabxana işçilərinə yeni texnoloji vərdişlərin aşılanması, ölkənin informasiya sərvətlərinin dünya informasiya məkanına daxil olması üçün kitabxanaçıların müasir problemlərinə yönəlmiş nəzəri və tətbiqi biliklərə yiyələnməsi metodik təminat sisteminin pedaqoji funksiyasının başlıca cəhətlərindəndir.

Respublikamızda kitabxanaların metodiki təminat sistemi hazırda inzibati ərazi və sahəvi quruluş prinsiplərinə uyğun qurulmuşdur. Şəbəkə baxımından metodiki təminat respublika əhəmiyyətli kitabxanalar, respublika ərazi və sahəvi kitabxanalara, o cümlədən, rayon, şəhər mərkəzi sistemlərinə bölünür.

.

Metodiki təminat sisteminin bu cür struktur quruluşu respublikamızda olan bütün kitabxana şəbəkələrini əhatə edir, tabeçilik baxımından fərqli qaydada metodik köməklik göstərir. Metodiki funksiyaların fərqli olmasına baxmayaraq metodiki mərkəzlər müxtəlif səviyyələrdə vahid rəhbərlikdə kitabxana işini özündə birləşdirir, sistemə nəzarət edir, metodiki təklifləri, informasiya mübadiləsini və qabaqcıl təcrübəni, direktiv sənədlərin hazırlanması praktikasının öyrənilməsinə şərait yaradır. Respublika səviyyəli elmi-metodiki mərkəzlərlə yanaşı, hazırda MKS-lərdə də metodiki təminat fəaliyyətində bir sıra ləngimə və geriliklərlə yanaşı, nəzərə çarpan bəzi işlər də aparılır. Xüsusilə şəhər mərkəzi kitabxana sistemləri ərazi üzrə metodiki işlərin həyata keçirilməsində daha çox fəallıq göstərirlər. Xüsusilə son illərdə bəzi şəhər mərkəzi kitabxana sistemlərində xüsusi elmi mərkəzlərin yaradılması və fəaliyyətə başlaması metodiki təminat işinə xüsusi təkan vermişdir. Bu mərkəzlərin yaradılmasında Amerika səfirliyinin Azərbaycan Dillər Universitetində fəaliyyət göstərən informasiya resursları mərkəzinin xüsusi rolu olmuşdur. Bu mərkəzin yaxından köməyi sayəsində rayon və şəhər MKS-lərində on iki xüsusi elmi mərkəz yaradılmış və xüsusi avadanlıqlarla təchiz edilmişdir. Bütün bu avadanlıqlar Amerika səfirliyinin dəstəyi ilə alınmışdır və ona nəzarət edilir. Məhz bu mərkəzlərin köməyi ilə Azərbaycanın ayrı-ayrı zonaları üzrə fəaliyyət göstərən MKS-lərin metodiki təminat fəaliyyətləri əlaqələndirilir. Bu əlaqələrin genişləndirilməsi getdikcə möhkəmlənir və genişlənir. Xüsusilə Gəncə, Qazax, Şəki, Zaqatala, Lənkəran, Sumqayıt, Naxçıvan iqtisadi rayonlarının MKS-lərinin işi əlaqələndirilir.

Azərbaycan Respublikası regionlarının yaradılması iqtisadi inkişafla yanaşı, ölkədə digər idarə, müəssisə və təşkilatların işinə də çox böyük təsir etmişdir. Belə ki, regionlar üzrə iqtisadi inkişaf zonalarının yaradılması təkcə iqtisadiyyatın inkişafına deyil, həm də iqtisadi inkişafa xidmət edən ideoloji təşkilatların, o cümlədən, informasiya müəssisələrinin yaradılması və onların inkişafına da xüsusi təsir göstərməlidir. Buna görə də kitabxanaların üzərinə informasiya təminatı baxımından çox mühüm vəzifələr düşür. Odur ki, kitabxana-informasiya müəssisələrinin fəaliyyəti, xüsusilə, yeni kitabxana texnologiyalarının tətbiqi, dünya standartlarına uyğun yenidən qurulması və iqtisadi inkişafa uyğun yeniləşməsidir. Tarixi baxımdan

.

bir məsələni yada salmaq yerinə düşərdi ki, hələ XX əsrin 70-ci illərində kitabxana şəbəkələrinin mərkəzləşdirilməsi ilə bağlı qəbul olunmuş qərarda zona üzrə dayaq baza mərkəzi kitabxana sistemlərinin yaradılması da nəzərdə tutulmuşdur. Təəssüflə qeyd etmək lazımdır ki, hələ o dövrdə, yəni 70-80-ci illərdə keçmiş SSRİ-nin bir sıra müttəfiq respublikalarında, həmçinin, Rusiyanın ayrı-ayrı regionlarında zonalar üzrə dayaq baza kitabxanaları yaradılmış və bu gün də fəaliyyət göstərirlər. Zonalar üzrə dayaq baza kitabxanalarının yaradılması müasir dövr üçün, xüsusilə, regional və respublika əhəmiyyətli tədbirlərin keçirilməsində, sosial problemlər və çətinliklərlə rastlaşan kitabxana işçiləri üçün də çox əhəmiyyət kəsb edir. Bu gün Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət proqramında nəzərdə tutulan müddəalar da belə strateji quruluşa tamamilə uyğundur və zonalar da bu strateji məsələlərin həllində əhəmiyyətlidir.

Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət proqramında zonalar üzrə sosial-iqtisadi rayonlar Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə (14 aprel 2009-cu il) aşağıdakı kimi təsdiq edilmişdir.

1. Abşeron iqtisadi rayonu (Abşeron, Xızı rayonları, Sumqayıt şəhəri);

2.Aran iqtisadi rayonu (Ağcabədi, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Zərdab, Şirvan, Mingəçevir, Yevlax rayonları);

3.Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan, Şamaxı rayonları);

4. Gəncə-Qazax iqtisadi rayonu (Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göy-göl, Qazax, Samux, Şəmkir, Tovuz rayonları, Gəncə, Naftalan şəhərləri);

5. Quba-Xaçmaz iqtisadi rayonu (Dəvəçi, Xaçmaz, Quba, Qusar, Siyəzən rayonları);

6. Lənkəran iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı, Lənkəran rayonları);

7.Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Kəngərli, Şərur rayonları);

8.Kəlbəcər-Laçın iqtisadi rayonu (Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı rayonları);

.

9.Şəki-Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala, Şəki rayonları);

10. Yuxarı Qarabağ iqtisadi rayonu (1)

Azərbaycanda bu cür regionların iqtisadi inkişafının belə bir strateji xəttinin müəyyənləşdirilməsi, həmin rayonlarda yerləşən mərkəzləşdirilmiş kitabxana sistemlərinin işində xüsusi canlanma yaratmalıdır. Xüsusilə ayrı-ayrı rayon MKS-lərinin zonalar üzrə yaxınlaşması və onların işinin əlaqələndirilməsi olduqca vacib və əhəmiyyətlidir. Həmçinin, sosial-iqtisadi inkişafda MKS-lər informasiya mərkəzi kimi informasiya təminatında əhəmiyyət kəsb edə bilər. Ona görə də MKS-lərin fondunun komplektləşdirilməsi zamanı sosial-iqtisadi problemlərin bu sahəyə dair ədəbiyyatın əldə edilməsi və təbliğində kitabxanalar xüsusi tədbirlər həyata keçirməlidirlər. Mərkəzləşdirilmiş kitabxana sistemlərinin növündən və tipindən asılı olmayaraq sosial-siyasi ədəbiyyatın komplektləşdirilməsi və təbliği həmişə ön planda olmalıdır. Xüsusilə, regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar hər bir iqtisadi rayon üçün dövlət büdcəsindən xüsusi vəsaitin ayrılması regionda fəaliyyət göstərən və sosial-informasiya institutları hesab edilən mərkəzi kitabxana sistemləri və həmçinin, digər kitabxana şəbəkələri ərazidə gedən sosial proseslərdə iştirak etməli, kənarda qalmamalıdırlar.

Bunun üçün Respublika Mədəniyyət və Turizm Nazirliyi, M.F.Axundov adına kitabxana, həmçinin, sahəvi metodiki mərkəz kimi fəaliyyət göstərən Respublika kitabxanaları regionların sosial-iqtisadi inkişaf proqramına uyğun olaraq metodiki işləmələr işləyib hazırlamalı, onu müzakirə edərək təsdiq etməli və yerlərə göndərməlidirlər. Yəni, Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət proqramının ərazilər və regionlardakı informasiya mərkəzləri ilə əlaqəsi təmin olunmalıdır. Ona görə də mərkəzləşdirilmiş kitabxana sistemləri öz işlərini dövlət proqramına uyğun olaraq əlaqələndirməli və planlaşdırmada nəzərə almalıdırlar.

Mərkəzləşdirilmiş kitabxana sistemləri yerlərdə proqramın həyata keçirilməsində informasiya mərkəzi kimi öz işlərini həm regiondakı informasiya mərkəzləri, MKS-lərlə, həm də Respublika üzrə metodik mərkəz sayılan M.F.Axundov adına Milli Kitabxana ilə əlaqələndirməlidirlər. Mərkəzləşmiş kitabxana sistemləri yarandığı ilk

günlərdən etibarən metodik təminatla bağlı Respublika Mədəniyyət Nazirliyi və Milli Kitabxana tərəfindən konkret tədbirlər həyata keçirilməyə başlanıldı. Bu məqsədlə Respublika Mədəniyyət və Turizm Nazirliyinin kollegiyası 1973-cü il iyunun 13-də "Azərbaycanda Dövlət Kütləvi kitabxana şəbəkəsinin mərkəzləşdirilməsi haqqında" xüsusi qərar qəbul etmiş və bununla əlaqədar mərkəzləşdirmə prosesinin metodik təminatı Dövlət kitabxanasına həvalə edilmişdir.

1974-1976-cı illərdə rayon və şəhər kitabxanalarında mərkəzləşmə məsələlərinə həsr olunmuş 30-dan çox seminar məşğələləri təşkil edilmişdir. Bu seminarlardan sonra Respublikamızın Gəncə, Sumqayıt, Şəki, Salyan, Yevlax, Ağdam və Lənkəran şəhərlərində mərkəzləşmə ilə bağlı qabaqcıl təcrübə məktəbləri yaradılmışdı. Artıq 80-ci illərin əvvəllərində Respublikamızda Dövlət kitabxanalarının mərkəzləşdirilməsinin başa çatdırılması kitabxana işini metodiki təminat baxımından tamamilə formalaşdıraraq bu işin sistemli fəaliyyətə başlamasına şərait yaratdı. MKS-lərdə mərkəzi kitabxananın nəzdində müstəqil metodik şöbələrin bəzilərində isə metodiki biblioqrafiya şöbələrinin təşkili və onların əsasən yüksək ixtisaslı kadrlarla təmin edilməsi kənd kitabxanalarına, yəni filial kitabxanalarının metodik təminatı üçün əsaslı zəmin yaratdı. Onu da qeyd etmək lazımdır ki, hazırda respublikamızda 75-dən çox kənd kitabxanalarına metodiki köməklik göstərən mərkəzləşdirilmiş kitabxana sistemi fəaliyyət göstərir ki, bu kitabxanaların hər birində elmi-metodiki və ya metodiki biblioqrafiya şöbələri fəaliyyət göstərir. 1980-ci ildən bəri artıq bütün mərkəzləşdirilmiş kitabxana sistemlərində elmi-metodiki işin müxtəlif aspektlərində metodiki iş aparılır. Obyektivlik xatirinə bir məsələni qeyd etmək lazımdır ki, 80-ci illərin axırlarında kitabxanaların metodistləri filial kitabxanaları ilə daha intensiv əlaqələr qurmuşdular. Baxmayaraq ki, metodiki şöbələrin və onun işçilərinin lazımi təcrübə və səriştələri yox idi, lakin yeni bir əhval-ruhiyyə vardı. Həmçinin, o dövrdə Lenin adına Rusiya Dövlət kitabxanasından çoxlu elmi-metodiki ədəbiyyat alınırdı və bu ədəbiyyat təcrübəli kitabxanaçı-metodistlər tərəfindən Azərbaycan dilinə tərcümə edilərək MKS-lərə göndərilirdi. Əlbəttə, tərcümə olunmuş elmi-metodiki ədəbiyyatlar, yerli şərait və milli xüsusiyyətlər nəzərə alınmaqla hazırlanırdı. Son illərdə, xüsusilə, müstəqillik əldə

edildikdən sonra respublikamızda yaranan sosial və iqtisadi çətinliklərin olması da, xüsusilə, kitabxana işçilərinin respublika və regionlar üzrə birgə tədbirlərinin keçirilməməsi və nəticə etibarilə kənardan metodiki ədəbiyyatın daxil olmaması faktiki olaraq elmi-metodiki ədəbiyyatın qıtlığına və metodiki işlərin kollektiv müzakirədən kənarda qalmasına şərait yaratdı. Təəssüflə demək lazımdır ki, müstəqillik illərində hələ metodiki işlə bağlı bir dəfə də olsun respublika səviyyəli metodik müşavirə və seminar keçirilməyib. Halbuki belə müşavirələrə, metodistlərin və qabaqcıl kitabxana işçilərinin bir yerdə mövcud problemləri müzakirə etməsinə ciddi ehtiyac vardır. Metodik təminat işində ən prinsipial əhəmiyyət kəsb edən cəhət odur ki, hazırda kitabxana informasiya sahəsində çox güclü təcrübə vardır ki, həmin təcrübənin əldə edilmısi, öyrənilməsi və müzakirə edilməsi çox vacibdir.

Dünya təcrübəsində iri şəhərlərdə müxtəlif formalarda birliklər və s. qurumlar yaradılır və müxtəlif tədbirlər keçirilir. Belə təcrübələrin öyrənilməsi maraqlı olardı. Xüsusilə Azərbaycan Respublikasının Prezidentinin 2009-cu il fərmanına əsasən "Azərbaycan Respublikası Regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət proqramı"nda nəzərdə tutulmuş regionların bölgüsünə uyğun aparılması olduqca məqsədəmüvafiq olardı (Bu bölgü məqalənin əvvəlində fərmanda olduğu kimi verilmişdir).

Bakı şəhərində yerləşən bütün kitabxana şəbəkələrində və sistemlərində olan kitabxana resursları, bütövlükdə respublika kitabxanalarında olan kitabxana resurslarından daha çoxdur. Əlbəttə, bu, təbii bir haldır, çünki Bakı paytaxt şəhərdir, burada Milli kitabxana, respublika əhəmiyyətli mərkəzi sahəvi kitabxanalar, müxtəlif idarə, müəssisə və nazirliklərin, ali məktəblərin, gimnaziya və liseylərin, peşə məktəblərinin və s. kitabxanaları əksəriyyət təşkil edir. Azərbaycan Respublikasında kitabxana-biblioqrafiya resurslarının inkişafında iki istiqamət diqqəti cəlb edir. Birinci, paytaxt və digər iri şəhərlərdə formalaşmış kitabxana resursları, ikincisi isə mərkəzdən uzaq regionlarda respublikanın kənd və rayonlarında əsasən mərkəzləşdirilmiş kitabxana sistemlərindəki kitabxanalar. Odur ki, kitabxana işçilərinin, kitabxanaların və kitabxana resurslarının Bakı şəhərində üstünlük təşkil etməsini və bu regionda metodik təminat işinin aparılmasına daha çox ehtiyac olduğunu nəzərə alaraq sistemli

olaraq metodiki müşavirə və konfransların Bakı şəhəri üzrə ardıcıl olaraq keçirilməsi olduqca məqsədəuyğun olardı. Bir məsələni xüsusi olaraq nəzərə almaq lazımdır ki, kitabxana işi sahəsində görkəmli alimlər, qabaqcıl və təcrübəli kitabxana işçiləri, metodistlər Bakı şəhərində yaşayır və işləyirlər. Həm də mərkəzdə belə tədbirlərin keçirilməsi heç bir əlavə vəsait tələb etmir, ezamiyyə və digər xərclərə ehtiyac yoxdur. Belə olan tərzdə bir məsələ qarşıda durur, o da təşəbbüs göstərmək, sadəcə bu işi təşkil etmək. Rayon, şəhər mərkəzi kitabxana sistemləri paytaxt Bakıdan kənarda yerləşdiyinə görə uzun illərdir ki, heç bir metodiki ədəbiyyat və metodiki vəsait işləmələri əldə edə bilmirlər. Belə olan təqdirdə metodiki təminat işi pərakəndə, sistemsiz, hər bir metodistin özünün dərk etdiyi kimi, heç bir elmi, nəzəri və metodoloji əsası olmadan aparılır. Odur ki, Azərbaycanın metodiki təminat sahəsində mərkəz funksiyasını həyata keçirən M.F.Axundov adına Milli Kitabxana, onun metodiki şöbəsi öz işini Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli 3072 nömrəli sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı"nın tələblərinə uyğun yenidən qurmalıdır. MKS-lərin və digər kitabxanaların işinə yaxından köməklik göstərilən sərəncamda xüsusi olaraq göstərilir ki, "Kitabxana işi sahəsində elmi-tədqiqat və elmi-metodiki fəaliyyətin stimullaşdırılması, sahəyə aid ədəbiyyat nəşrinin genişləndirilməsi, kitabxana-informasiya işinin təkmilləşdirilməsi üçün müasir idarəetmə sisteminin tətbiqi, elektron kataloq və elektron kitabxanaların yaradılması işinin təmin edilməsi, onların müasir standartlar səviyyəsinə çatdırılması" kitabxana işçiləri qarşısında çox mühüm vəzifə kimi qoyulmuşdur. Bu vəzifələrin yerinə yetirilməsində Respublikamızın bütün kitabxana işçiləri səfərbər olunmalı, kitabxana-informasiya müəssisələrinin işinin proqrama uyğun olaraq yenidən qurulmasında kitabxanaların metodiki şöbələri təşəbbüs göstərməklə, aparıcı mövqe tutmalıdırlar. Proqramın yerinə yetirilməsində mərkəzi icra hakimiyyəti orqanları ilə yanaşı, kitabxana işi sahəsində çalışan bütün kitabxana ictimaiyyəti planlı şəkildə öz vəzifələrinə daha ciddi və daha məsuliyyətlə yanaşmalı, vəzifə borcunu əvvəlki illərlə müqayisədə daha yüksək səviyyədə yerinə yetirməlidir.

Respublikanın ayrı-ayrı regionlarında olan şəhər və rayon mərkəzi kitabxana sistemləri mərkəzi kitabxana olmaqla fəallıq göstər-

məli, ərazidə olan bütün kitabxanaların işini istiqamətləndirməli, metodiki təminat funksiyasını yerinə yetirməlidirlər.

Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin mərkəzi kitabxanaları, bu kitabxanaların metodiki şöbəsinin işçiləri, mərkəzi kitabxananın bütün işçiləri metodiki təminat sahəsində, xüsusilə, xarici ölkələrin təcrübəsini, həmçinin, respublikada olan qabaqcıl təcrübəni diqqətlə öyrənməli, ümumiləşdirməli və onun tətbiqinə cəhd göstərməlidirlər. Qabaqcıl təcrübənin tətbiqi ilə bağlı xüsusi təcrübi vəsaitlər hazırlanmalı və çap etdirilməlidir. Bu vəsaitlər bir qayda olaraq kitabxana işinin müxtəlif sahələrinə, əksər hallarda ayrı-ayrı texnoloji proseslərin həyata keçirilməsinə yönəlmiş, kitabxana təcrübəsinin son nailiyyətlərinə əsaslanan əməli işlərin təsvirindən və izahından ibarət olmalıdır.

Təcrübi vəsaitlər əsasən əhəmiyyətli metodik mərkəzlər tərəfindən tərtib olunub və yerlərə göndərilməlidir. Son illərdə belə təcrübə demək olar ki, respublika əhəmiyyətli kitabxanalar tərəfindən lazımi səviyyədə yerinə yetirilmir.

Odur ki, MKS-lərin metodistləri və təcrübəli işçiləri xüsusi təşkil edilmiş ixtisasartırma kursları və treninqlərdə, həmçinin, internet vasitəsilə və digər yollarla əldə etdikləri kitabxana texnologiyaları haqqında informasiyaları əldə etməklə ərazidə fəaliyyət göstərən filial kitabxanalarının işçilərini tanış etməli və izahat işləri aparmalıdırlar. Komplektləşdirmə, kataloqlaşdırma, planlaşdırma, uçot, hesabat, əməyin elmi təşkili və s. iş proseslərinin təşkilinə dair əməli işlərin yerinə yeni texnologiya əsasında həyata keçirilməsinə həsr olunmuş belə vəsaitlər aktual olub, kitabxana işçilərinin peşə səviyyəsinin yüksəldilməsində əhəmiyyətli ola bilər. Belə vəsaitlər yerlərə göndərilməklə aylıq müşavirə və konfranslarda müzakirə edilməli və əyani şəkildə işçilərə izah olunmalıdır. Yaxşı olar ki, izahat işləri proyektor vasitəsilə əyani olaraq göstərilsin, proseslərin gedişi nümayiş etdirilsin.

Bundan başqa istər respublika, istərsə də MKS-lərdə metodiki işin təşkili ilə bağlı metodik məktublar yerlərə göndərilməlidir. Metodiki məktublar əsasən xaricdə və ölkədə çap edilən kitabxanaşünaslıq ədəbiyyatında, o cümlədən, nəzəri və təcrübi nəşrlərdə kifayət qədər işıqlandırılan, lakin bu gün həllini tapmayan problemlərə həsr olunur, normativ və tənzimləyici sənədlər haqqında kitabxana rəhbərləri məlumatlandırılmalıdır.

.

Metodik məktubların mövzuları kitabxana təcrübəsində, əhaliyə kitabxana xidmətində meydana çıxan yeni, cari problemlər, çətinliklər, kitabxanaların metodik mərkəzlərə müraciətində müşahidə edilən sorğular əsasında müəyyənləşdirilə bilər. Bu cür problemlərin araşdırılması və ona uyğun tədbirlər görülməsi mərkəzləşdirilmiş kitabxana sistemlərinin işində daha çox rast gəlinə bilər. Hətta hər bir problem ayrı-ayrılıqda müzakirə edilərək öz həllini operativ şəkildə tapa bilər. MKS-in metodistləri filial kitabxanalarına getməklə yerindəcə məsələni həll edə bilər, bu şərtlə ki, metodistin özünün peşə səviyyəsi, peşəkarlığı ümumi tələblərə cavab versin. Mərkəzləşdirilmiş kitabxana sistemləri rayon-şəhər ərazisində faktiki olaraq struktur quruluş baxımından ən böyük müəssisələrdən biri hesab olunur. Onun struktur quruluşu faktiki olaraq bütün kənd və qəsəbələri əhatə edir, ərazi üzrə ən böyük təşkilatlardan biri hesab olunur.

## ƏDƏBİYYAT


1. *Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli 3072 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı" // Kitabxanaşünaslıq və biblioqrafiya. – 2008. – №2. – S.7-30.*
2. *İsmayılov X. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi.- B., 2000. – 415 s.*
3. *Xələfova S. Azərbaycan Dövlət kütləvi kitabxana şəbəkəsinin inkişafı (1970-1990). – B., 2007. – 159 s.*
4. *"Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə Statistik bülleten. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. – B., 2009. – 85 s.*
5. *M.F.Axundov adına Milli Kitabxananın MKS-lər haqqında hesabatları. – 1993-2007-ci illər.*

.

**Х.И.ИСМАИЛОВ**

## ОСОБЕННОСТИ ОРГАНИЗАЦИИ РАБОТЫ МЕТОДИЧЕСКОГО ОБЕСПЕЧЕНИЯ В ЦБС

### РЕЗЮМЕ

В статье рассматриваются вопросы организации работы методического обеспечения ЦБС в современных условиях. Особенное внимание уделено решению этого вопроса в ЦБС города Баку, где сконцентрирована значительная часть библиографических ресурсов Азербайджана.

**KH.I.ISMAILOV**

## PECULIARITIES OF ORGANIZATION OF METHODOLOGICAL SUPPORT IN CLS

### SUMMARY

Article describes some important issue of organization of methodical Support activity of CLS. Special attention ways of decition of this problem on Centralized Library Systems of Baku city where concentrised main part of methodical resurses of Azerbaijan.

.

**Yusif QAZIYEV**
*276 saylı orta məktəbin müəllimi*
*əməkdar müəllim, pedaqogika üzrə fəlsəfə doktoru*

# BAZAR GÜNÜ, DƏMİR YOLU, SƏNƏT VƏ DƏNİZÇİLİK MƏKTƏBLƏRİNİN KİTABXANALARI

## (Azərbaycanda məktəb kitabxanalarının inkişaf tarixindən)

***Açar sözlər:*** Sənət məktəb kitabxanası, bazar günü kitabxanası, dəmir yolu kitabxanası, dənizçilik məktəbləri, xidmət etmək.

***Ключевые слова:*** Библиотека училища, воскресенской школ, железной дорог библиотека, морской школы, библиотека обслуживание.

***Keywords:*** Schul library, Sunday schul library, library raclway, maritime schul library service

Rusiyada kapitalizmin inkişafı ilə əlaqədar olaraq XIX əsrin 70-ci illərinin sonlarından başlayaraq Azərbaycanda da bazar günü, dəmir yolu, sənət və dənizçilik məktəbləri yaranıb, onların nəzdində kiçik kitabxanalar təşkil edildi.

Bazar günü məktəbləri kənd və şəhər məktəbləri nəzdində açılaraq yaşlı əhalinin savadlanması və ibtidai kənd məktəblərini bitirmiş gənclərin oxu və yazı savadlarının təkmilləşməsi məqsədini güdürdü.(1) İlk bazar günü məktəbi 1878-ci ildə Qax kəndində açıldı. Qax bazar günü məktəbinin iş təcrübəsi QTD tərəfindən yoxlanaraq bəyənildi və bu tip məktəblərin çoxaldılması lazım bilindi. Bunların sayı get-gedə artaraq XIX əsrin sonlarında Azərbaycanın böyük kənd və şəhərlərində fəaliyyət göstərirdi. Bazar günü məktəblərinin ayrıca kitabxanaları yox idi. Müdavimlərə kitabxana xidməti işini şəhər və kənd məktəb kitabxanaları aparırdı (1).

İlk dəmir yol məktəbləri Gəncədə (1888), Hacıqabulda (1893), Bakıda (1896), Ağstafada (1901) açılıb, onların nəzdində şagird kitabxanaları təşkil olundu (V, 4a).

Bu dövrdə Azərbaycanda 3 sənət (Gəncədə-1884, Zaqatalada-1882, Bakıda-1888), bir dənizçilik məktəbi (Bakıda-1881) açılıb, onların nəzdində həm şagird və həm də əsaslı kitabxanalar təşkil edilmişdir (2).

1884-cü ildə Gəncə sənət məktəbinin və Bakı dənizçilik məktəbinin şagird kitabxanasında 445 manat dəyərində, 209 adda, 307 nüsxə, 1900-cü ildə 3 sənət məktəbinin şagird və əsaslı kitabxanasında 7001 manat dəyərində 2997 adda, 4574 nüsxə, 1902-ci ildə 8274 manat dəyərində, 3539 adda, 5356 nüsxə kitab olmuşdur (3).

Sənət məktəbi kitabxanalarında da dərslik və metodiki ədəbiyyat çatışmırdı. Mövcud olan dərslik və kitablar isə keyfiyyətsiz idi. Bu barədə 22 avqust 1890-cı ildə QTD popeçitelinə verilən məlumatların birində deyilirdi: "Sənaye məktəblərində ixtisas fənlərinin tədrisinə dair pedaqoji ədəbiyyatın çatışmazlığı və bu fənlərin bəzilərinə dair heç bir dərslik və vəsaitlərin olmaması nəzərə alınsın, bu çatışmazlığı doldurmaq üçün orta məktəblərə və həmçinin xalq mütaliəsinə dair buraxılan ən yaxşı kitablara imperator Pyotr adına verilən mükafat ibtidai, orta sənət və texniki məktəblərində tədris edilən fənlərə aid ən yaxşı dərslik və vəsaitlərin buraxılmasına da tətbiq etmək olardı (4).

Qeyd edilən təkliflə əlaqədar olaraq QTD popeçitelinin sənət məktəbi kitabxanalarının kitab fondunu yaxşılaşdırmaq üçün sərəncam verildi. Həmin məktəb kitabxanalarına yeni dərslik və tədris vəsaitləri göndərilmişdir. Bu barədə Gəncə sənət məktəbinin inspektoru 1890-cı ilin 13 sentyabrında, 24 oktyabrda isə Zaqatala sənət məktəbinin müdiri yeni alınmış kitablar haqqında QTD popeçitelinə məlumat vermişdir (4).

Azərbaycanda məktəb kitabxana işinin və sinifdənxaric mütaliənin inkişaf tarixi mürəkkəb yol keçmişdir. Məktəb kitabxanaları Azərbaycan Demokratik Respublikası hakimiyyətinə qədər bir sıra müxtəlif tip məktəblər də fəaliyyət göstərmişdir: 1) kilsə məktəbləri; 2) məktəb; mədrəsə və yeni tipli müsəlman məktəbləri; 3) qəza məktəbləri; 4) şəhər məktəbləri; 5) ibtidai məktəblər; 6) natamam orta və orta məktəblər; 7) sənət və bazar günü məktəbləri.

Məktəb kitabxanaları şagirdlərin təlim-tərbiyəsində başlıca rol oynamışdır. XX əsrin əvvəllərindən başlayaraq dövlət məktəblərinin kitabxanaları nəinki şagirdlərin təlimində, həmçinin, yaşlıların savadlanmasında, rus mədəniyyəti və ədəbiyyatının yayılmasında, azərbaycanlılar içərisində rus dilinin öyrənilməsində böyük rol oynamışdır.

Kitabxana şəbəkəsi və onun kitab fondu ilbəil artmış, lakin dərslik və sinifdənxaric qiraət üçün istifadə olunan kitablar çatışmırdı. Həmçinin, Azərbaycan dilində dərslik və sinifdənxaric qiraət üçün

dövlətin kitab qayğısı olmamışdır. Kitabxana işinin forma, metod və üsulları təkmilləşdirilmiş və şagirdlərin sinifdənxaric mütaliəsi rəngarəng işlərlə formalaşmışdır.

Kitabxanalarda kitab fondunun artmasında Azərbaycan ictimaiyyətinin böyük rolu olmuşdur. Azərbaycanda ianə və ayrı-ayrı şəxslərin yardımı hesabına və həm də dövlət hesabına məktəb və mədrəsələrin kitab fondu artaraq QTD-ə daxil olan başqa qəza və quberniyaların məktəb kitabxanalarından üstün olmuşdur. Lakin kitab fondu şagird kontingenti ilə qeyri-mütənasib olmuşdur. Bu vəziyyətdən çıxmaq üçün dövrün ziyalıları öz şəxsi kitabxanalarını şagirdlər və gənclər üçün hər zaman açıq elan etmişlər və onların sinifdənxaric mütaliələrinə himayədarlıq etmişlər.

Kitabxana fondunun azlığına baxmayaraq şagirdlər sinifdənxaric mütaliəyə və bədii yaradıcılıqlara, şeir, hekayə, məruzə, referat yazmaq, teatr tamaşaları, deklamasiyalar, albomlar hazırlamaq, kitabların üzünü köçürmək və s. işlərə qoşulmuşlar.

Məktəb kitabxanaları şagirdlərlə yanaşı, geniş əhali kütlələrinin savadlanmasına da xidmət etmişdir. Ancaq bu işdə kitablar azlıq təşkil etmişdir. Bu səbəbdən də ictimai kitabxanaların yaranmasına ehtiyac yaranmışdır.

Kitabxanalarda dərslik, bədii və elmi kitablar həmişə azlıq təşkil etmişdir. Bu münasibətlə Həsən bəy Zərdabi "Həyat" qəzetində yazırdı: "Məktəblərdə şagirdlər ağlaşırdılar ki, oxumaq üçün kitablarımız yoxdur" (2).

Kitabxanalarda olan kitablar köhnə və yararsız idi. Müəllimlər üçün elmi, metodiki və pedaqoji ədəbiyyat çox cüzi idi. Kitabxana üçün otaq ayrılmırdı.

Məktəb kitabxanalarında qeyd edilən qüsur və nöqsanlar bütün dövrlərdə mövcud olmuşdur. Bunun siyasi və iqtisadi səbəbləri vardır. Siyasi səbəb o idi ki, hakim sinif maarif işi sahəsində mürtəce siyasət yürüdüb, onun inkişafına hər vəchlə mane olurdu. İqtisadi səbəb də siyasi səbəbdən irəli gəlirdi. Yəni siyasətlə əlaqədar olaraq xalq maarif işinə cüzi miqdarda kapital qoyulurdu.

.

## ƏDƏBİYYAT


1. *Gürcüstan Respublikası Mərkəzi Dövlət Tarix Arxivi (GRMDTA), fond (f), Siyahı 3, iş 536, vərəq (v) 24.*
2. *Qafqaz Tədris Dairəsinin (QTD) 1884-cü il hesabatı, Tiflis(t) 1885, cədvəl 2, səh.4-5.*
3. *QTD-nin 1902-ci il hesabatı, T. 1903, cədvəl 21.*
4. *SRMDTA, f.422, s.1, iş 3738, v.1*



**Ю.ГАДЖИЕВ**


## БИБЛИОТЕКИ ВОСКРЕСЕНСКИХ, ЖЕЛЕЗНЫХ ДОРОГ, ПРОФЕССИОЛЬНЫХ И МОРСКИХ ШКОЛ

### РЕЗЮМЕ


Статья называется “Библиотеки воскреснских, железных дорог, профессий и морских школ” которые созданы в конце XIX века в Азербайджане. В связи развития капитализм Чарской России для пользования более благоприятных намерений в Азербайджане, были созданы при названных наверху училищах библиотеки.

Главное значение библиотеки этих школ было в том, что они служили не только ученикам и учителям, в том числе они служили для взрослых, которые изучили разные профессии.



**Y.QAZİYEV**


## THE RAILWAY PROFESSIONAL AND NAVIGATION SCHOOL LIBRARIES

### SUMMARY


The article is named “The railway professional and navigation school libraries” which are formed at the end XIX century in Azerbaijan.

In connection with the development of capitalism in Russia, the tsar opened these schools in order to use the labour of the local population effectively and that is why he opened libraries in these schools.

The main importance of these school libraries was that the libraries served not only the students, teachers, but also the citizens of the city and village. All of these had a great role of being educated of people.

.

**DADAŞİ MİTRA HƏSRİN**
**dissertant**

# İNFORMASİYA-AXTARIŞ SİSTEMLƏRİNİN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Açar sözlər:*** Biblioqrafik-informasiya tələbatı, "Pars Azərəxş", proqram təminatı, anket sorğusu, axtarışın nəticələri

***Ключевые слова:*** Библиографическо-информационный потребности, «Парс Азерахш» программного обеспечения, анкетного опрос, результат поиска.

***Keywords:*** biblioqraphic and information needs, "Phars Azerakhsh", software questionnaire, search results

Sosial institut kimi kitabxanalardan istifadəçilər üçün optimal olan müddətdə, istədiyi keyfiyyətdə informasiya məhsulları və xidmətlərinin müxtəlif çeşidlərinin onlara çatdırılması yolu ilə cəmiyyət tərəfindən sənəd resurslarının effektli istifadəsi tələb olunur. İnformasiya məhsulları və xidmətlərinin kitabxana istehsalı və keyfiyyətinin effektliliyinin qiymətləndirilməsi, tədqiqatçıların və praktiklərin diqqət mərkəzində durur (2).

Kompleks elmi-texniki proqramların həyata keçirilməsi, elmi problemlərin və ölkənin iqtisadi inkişaf məsələlərinin həlli elmi-texniki məlumat sisteminin inkişafı ilə əlaqələndirilir ki, bu da öz növbəsində elm və texnikanın müxtəlif sahələrində çalışan mütəxəssislərin daim artan biblioqrafik informasiya tələbatını ödəməyə yönəlmişdir.

Bütün dövrlərdə elmi tədqiqatların məlumat-biblioqrafiya xidmətinə yüksək tələbi ilə əlaqədar olaraq, alim və mütəxəssislərin sorğularını maksimum surətdə ödəyə bilən kitabxana fondlarının yaradılması böyük əhəmiyyət kəsb edir.

Fondun əlverişli surətdə komplektləşdirilməsi, onun az tələb olunan ədəbiyyatdan vaxtlı-vaxtında təmizlənməsi nəinki ən böyük kitabxanaların, həm də kiçik həcmli, o cümlədən, elmi-tədqiqat institutlarında fəaliyyət göstərən kitabxanaların ən ümdə vəzifəsidir.

Oxucuların biblioqrafik-informasiya tələbatları kitab fondunun yaranması və inkişafının təyinedici amili hesab edilir. Odur ki, ancaq

bütövlükdə oxucu kontingentinin biblioqrafik-informasiya tələbatlarını dərindən öyrənmək nəticəsində fondun formalaşması qanunauyğunluqlarını elmi əsaslarla təyin etmək olar.

Oxucuların biblioqrafik informasiya tələbatlarını formalaşdıran faktorların ən ümdəsi Təbriz Universitetinin elmi idarələrinin tematik strukturudur. Təbriz Universitetinin tərkibinə 10 bölmə daxildir: fizika, riyaziyyat, texnika, kimya, humanitar elmlər, yer haqqında elmlər, biologiya elmləri və ictimai elmlər və s.

Bu bölmələr elm və texnikanın təxminən bütün sahələrini əhatə edir. Mərkəzi kitabxanada hər il müvafiq fakültələrin məşğul olduqları elmi-tədqiqat mövzularının perspektiv inkişafı nəzərə alınmaqla analiz edilir və bunun əsasında alim və mütəxəssislərin maraq mövzuları müəyyənləşdirilir. Analiz nəticəsində nəzərə çarpan hər bir dəyişiklik kitabxana şəbəkələrinin hər birinin fondunun formalaşmasında öz əksini tapır.

Məlum olduğu kimi, hər bir kitabxananın fəaliyyətinin səmərəliliyi onun oxucu sorğularını nə dərəcədə yerinə yetiməsindən, informasiya-biblioqrafiya xidməti sisteminin alim və mütəxəssislərin tələbatına nə dərəcədə uyğun olmasından asılıdır. Mərkəzi kitabxananın filiallarında müntəzəm olaraq yeni ədəbiyyatın sərgiləri keçirilir, tematik sərgilər təşkil edilir. Kitabxanaçılar elmi işçilərin sorğularını tam və operativ yerinə yetirməyə, onların elmi məlumat axtarışında artıq vaxt sərf etməkdən azad etməyə çalışır. Bununla belə ayrı-ayrılıqda hər bir kitabxana fondunun inkişafı çox əhəmiyyətli faktordur (4).

Kitabxananın fonduna daxil olan materiallar haqqında oxuculara məlumat vermək və kitabxana fondunun axtarış sistemini təmin etmək üçün əvvəlcə kataloqlar tərtib olunmağa başlamış və beləliklə elmi biblioqrafiya işinin təməli qoyulmuşdur (5).

Elmin, texnikanın sürətlə inkişafı, mədəniyyətlərin məhdudiyyət bilmədən inteqrasiya etməsi son illərdə meydana gəlmiş xeyli sayda termin və analayışlarda öz təzahürünü tapır (6).

Məlumdur ki, informasiya cəmiyyətinin qurulması üçüncü minilliyin əsas ideologiyasıdır və hazırda bütün dünya qlobal informasiya cəmiyyətinin formalaşması mərhələsini yaşayır. Müasir dövrdə teleqraf əlaqələri müəyyən inkişaf mərhələlərindən keçərək İnformasiya-Kommunikasiya Texnologiyalarına (İKT) çevrilib və bu

texnologiyaların hər bir sahədə meydana çıxan məlumatların toplanmasında, emalında və ötürülməsində rolu çox böyükdür. İnformasiya-kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi zərurəti indiki qloballaşma dövründə daha çox hiss olunur və bu texnologiyaların sürətlə inkişafı və yayılması bəşəriyyətin inkişafı üçün geniş imkanlar yaradır.

Ümumiyyətlə, informasiya cəmiyyəti fərdi biliklərin İnternet mühitinin köməyi ilə ictimailəşməsi-kollektiv təfəkkürün formalaşması üçün misilsiz imkanlar yaradır. İnformasiya cəmiyyəti quruculuğu dövründə müasir kitabxanalar intellektual azadlığa münbit şərait yaradaraq informasiyaya əlyetərliyi təmin edir, demokratik dəyərlərin və vətəndaş haqlarının qorunması istiqamətində fəaliyyət göstərir. Kitabxanaların və informasiya mərkəzlərinin unikallığı ondan ibarətdir ki, onlar ictimai təklif əsasında fəaliyyət göstərir, vətəndaşların sual və tələblərinə cavab verirlər. Bütün bunları və kitabxanaların əsas bilik mənbəyi olmasını nəzərə alsaq, o zaman informasiya cəmiyyətində məhz belə bir institusional mərkəzə ehtiyacın çox böyük olduğunu söyləyə bilərik. Bu gün dünya durmadan dəyişir, insan resurslarına əsaslanan biliklər iqtisadiyyatı formalaşır, biliyə, elmə maraq artır, bu sahəyə qoyulan investisiyalar çoxalır.

Qərbdə belə bir tendensiya irəli sürülür ki, informasiyaya, biliyə qoyulan sərmayə bir neçə ildən sonra öz bəhrəsini verir, bu sahədən əldə olunan gəlirlər ən azı 4-6 dəfə ilkin sərmayədən çox olur. Belə ehtimal olunur ki, qarşıdan gələn illər ərzində iqtisadiyyatın inkişafında biliklərin, müasir texnologiyaların və İKT-nin rolu keyfiyyətdə dəyişiklərin baş verməsi ilə müşahidə olunacaq.

İnformasiya cəmiyyətinin əsas tələblərindən biri strateji əhəmiyyət kəsb edən bu mənbəni yalnız ənənəvi formada deyil həm də, elektron, rəqəmli formada istifadəçilərə təqdim etməkdir. Ənənəvi çap məhsulunu elektron formada hazırlamaq, qurmaq və düzgün istiqamətləndirmək üçün hazırda insan fəaliyyətinin bütün sahələrində İKT-dən geniş şəkildə istifadə olunur.

Elmin, mədəniyyətin və təhsilin müasir informasiya təminatı bu gün məhz İKT-dən effektli şəkildə istifadə etməklə və elektron kitabxana yaratmaqla mümkündür. İnformasiya axınının durmadan artdığı bir dövrdə bu tip kitabxanalar informasiya cəmiyyətinin əsas infrastruktur elementlərindən birinə çevrilir.

.

Dünyada baş verən qloballaşma prosesi, ölkələrarası inteqrativ münasibətlərin meydana gəlməsi və inkişafında biliklərin düzgün şəkildə idarə olunması müstəsna əhəmiyyətə malikdir.

Məhz İKT-nin kitabxanalarda tətbiqi, qlobal İnternet şəbəkəsinə çıxış kitabxanalara öz fondlarını elektron formada dünyaya təqdim etməyə, daha çox potensial oxucu qüvvəsini real oxucu kütləsi ilə əvəz etməyə imkan vermişdir.

Bu gün dünyada İnternetə çıxışı olan, İKT tətbiq edilən yarım milyondan artıq kitabxana var. 2,5 milyard oxucusu olan həmin kitabxanalar il ərzində 1,5 trilyon kitabxana əməliyyatı yerinə yetirir. Bu göstəricilər kitabxanaların kommunikativliyini, cəmiyyətin çox vacib biliklər əldə etməsi nöqteyi-nəzərindən strateji bir institutu olmasını tesdiqləyir (1).

Təbriz Universitetində İnformasiya-axtarış sistemlərinin səmərəliliyinin qiymətləndirilməsi üçün elmi-tədqiqat işi aparıldı. Bu elmi-tədqiqatda Mərkəzi kitabxananın oxucularından statistik formul əsasında 375 nəfər seçildi. İnformasiya-axtarış sistemlərinin səmərəliliyinin qiymətləndirilməsi üçün bir anket sorğusu keçirildi. Anket sorğusunda 21 sual qoyuldu və oxucuların kitabxananın "Pars Azərəxş" proqram təminatından razılıq dərəcəsi müəyyən olundu. Sorğunun nümunəsi aşağıda göstərilir. Anketin birinci hissəsində oxucudan suallara düz cavab vermək və hər kvadrata işarə etmək tələb olunur. Suallar aşağıdakılardan ibarətdir:

☐ Kişi ☐ Qadın Yaş:

İxtisasın adı:

1. "Pars Azərəxş" proqram təminatının ekranından nə qədər razısınız?

☐ heç ☐ çox az ☐ az ☐ normal ☐ çox ☐ lap çox

2. "Pars Azərəxş" proqram təminatının sözlər və mesajlarından nə qədər razısınız?

☐ heç ☐ çox az ☐ az ☐ normal ☐ çox ☐ lap çox

3. "Pars Azərəxş" proqram təminat ilə rahat və asan işləməkdən nə qədər razısınız?

☐ heç ☐ çox az ☐ az ☐ normal ☐ çox ☐ lap çox

.

4. “Pars Azərəxş” proqram təminatı vasitəsilə kitab və ya dissertasiya adı ilə axtarışdan nə qədər razısınız?

☐ heç ☐ çox az ☐ az ☐ normal ☐ çox ☐ lap çox

5. “Pars Azərəxş” proqram təminatı vasitəsilə kitab və ya dissertasiya müəllifi üzrə axtarışdan nə qədər razısınız?

☐ heç ☐ çox az ☐ az ☐ normal ☐ çox ☐ lap çox

6. “Pars Azərəxş” proqram təminatı vasitəsilə kitab və ya dissertasiya mövzusu üzrə axtarışdan nə qədər razısınız?

☐ heç ☐ çox az ☐ az ☐ normal ☐ çox ☐ lap çox

7. “Pars Azərəxş” proqram təminatında latın dilində axtarışdan nə qədər razısınız?

☐ heç ☐ çox az ☐ az ☐ normal ☐ çox ☐ lap çox

8. “Pars Azərəxş” proqram təminatı vasitəsilə sənədi ilinə və nəşr yerinə görə axtarışdan nə qədər razısınız?

☐ heç ☐ çox az ☐ az ☐ normal ☐ çox ☐ lap çox

9. “Pars Azərəxş” proqram təminatı vasitəsilə axtarışın nəticələrindən nə qədər razısınız?

☐ heç ☐ çox az ☐ az ☐ normal ☐ çox ☐ lap çox

10. “Pars Azərəxş” proqram təminatı vasitəsilə ixtisas üzrə informasiyanın axtarışından nə qədər razısınız?

☐ heç ☐ çox az ☐ az ☐ normal ☐ çox ☐ lap çox

11. “Pars Azərəxş” proqram təminatının kömək xidmətindən nə qədər razısınız?

☐ heç ☐ çox az ☐ az ☐ normal ☐ çox ☐ lap çox

12. “Pars Azərəxş” proqram təminatının imkan və qabiliyyət-lərindən nə qədər razısınız?

☐ heç ☐ çox az ☐ az ☐ normal ☐ çox ☐ lap çox

13. “Pars Azərəxş” proqram təminatının qarşılıqlı təsirindən (interaction) nə qədər razısınız?

☐ heç ☐ çox az ☐ az ☐ normal ☐ çox ☐ lap çox

14. “Pars Azərəxş” proqram təminatından yaxşı istifadə etmək üçün kitabxanaçılara nə qədər lazım olan təlimatı verirlər?

☐ heç ☐ çox az ☐ az ☐ normal ☐ çox ☐ lap çox

15. “Pars Azərəxş” proqram təminatının yadda saxlamaq imkanı və qabiliyyətlərindən nə qədər razısınız?

☐ heç ☐ çox az ☐ az ☐ normal ☐ çox ☐ lap çox

.

16. İstənilən kitab və dissertasiyanın axtarışından nə qədər nəticə almısınız?

☐ heç ☐ çox az ☐ az ☐ normal ☐ çox ☐ lap çox

17. Bu proqram təminatında sənədlərin axtarış imkanı və qabiliyyətlərindən nə qədər razısınız?

☐ heç ☐ çox az ☐ az ☐ normal ☐ çox ☐ lap çox

18. Bu proqram təminatında sənəd növü əsasında axtarış imkanı və qabiliyyətlərindən nə qədər razısınız?

☐ heç ☐ çox az ☐ az ☐ normal ☐ çox ☐ lap çox

19. "Pars Azərəxş" proqram təminatının "söz bankı" xidmətindən nə qədər razısınız?

☐ heç ☐ çox az ☐ az ☐ normal ☐ çox ☐ lap çox

20. Bu proqram təminatının daha yaxşı olması üçün hansı təklifləriniz var?

21. "Pars Azərəxş" proqram təminatının nöqsanları hansılardır?

Təbriz Universitetinin 11000-dən artıq oxucusu vardır. Anket sorğusu keçirmək üçün statistik formul əsasında 375 nəfər seçilmişdir. Beləliklə, 375 nəfər oxucu bu tədqiqatda iştirak etmiş və onların cavabları kompüterdə SPSS statistika proqram təminatı vasitəsilə analiz olunmuş və aşağıdakı nəticələr əldə edilmişdir.

Bu elmi- tədqiqatda 45,3 % kişi və 54,7 % qadın iştirak etmişdir. (cəd.1).

| Şərh | Sayı | Faiz (%) |
|---|---|---|
| Kişi | 170 | 45.3 |
| qadın | 205 | 54.7 |
| Ümumi miqdar | 375 | 100 |

Aşağıda oxucuların suallara verdiyi cavabların faizi cədvəllərdə göstərilib.

.

**1.“Pars Azərəxş” proqram təminatının ekranından nə qədər razısınız?** (Cəd.2)

İkinci cədvəl göstərir ki, oxucuların 7.7 %-i heç razı deyil, 6.9 %-i çox az, 3.5 %-i az razıdır. Həmçinin, 62.9 %-i normal və 18.9 %-i ən çox bu proqram təminatının ekranından razıdır.

| Şərh | Sayı | Faiz (%) |
|---|---|---|
| Heç | 29 | 7.7 |
| Çox az | 26 | 6.9 |
| Az | 13 | 3.5 |
| Normal | 236 | 62.9 |
| Çox | 71 | 18.9 |
| Lap çox | - | - |
| Ümumi miqdar | 375 | 100 |

Aşağıda onun diaqramı göstərilib.



.

**2.“Pars Azərəxş” proqram təminatının sözlər və mesajlarından nə qədər razısınız?**

Oxucuların 20,8 %-i az, 35,7%-i normal və 43.5%-i isə bu proqramın sözlər və mesajlarından çox razıdır (cəd.3).

| Şərh | Sayı | % |
|---|---|---|
| Heç | - | - |
| Çox az | - | - |
| Az | 78 | 20.8 |
| Normal | 134 | 35.7 |
| Çox | 163 | 43.5 |
| Lap çox | - | - |
| Ümumi miqdar | 375 | 100 |

**3.“Pars Azərəxş” proqram təminatı ilə rahat və asan işləməkdən nə qədər razısınız?**

Oxucuların 3,5 %-i çox az, 13,9 %-i az, 45,9 %-i normal, 29,1%-i çox və 7,7%-i proqram təminatı ilə ən çox rahat və asan işləyirlər (cəd.4).

| Şərh | Sayı | % |
|---|---|---|
| Heç | - | - |
| Çox az | 13 | 3.5 |
| Az | 52 | 13.9 |
| Normal | 172 | 45.9 |
| Çox | 109 | 29.1 |
| Lap çox | 29 | 7.7 |
| Ümumi miqdar | 375 | 100 |

**4 “Pars Azərəxş” proqram təminatı vasitəsilə kitab və ya dissertasiya adı ilə axtarışdan nə qədər razısınız?**

.

Cədvəl olan informasiya göstərir ki oxucuların 4 %-i heç, 6,7 %-i çox az, 14,1 %-i az, 48,8 %-i normal, 20 %-i çox və 4,6 %-i ən çox bu proqram təminatı vasitəsilə kitab və ya dissertasiya adı ilə axtarışdan razıdırlar (cəd.5).

| Şərh | Sayı | % |
|---|---|---|
| Heç | 15 | 4 |
| Çox az | 25 | 6.7 |
| Az | 53 | 14.1 |
| Normal | 183 | 48.8 |
| Çox | 75 | 20 |
| Lap çox | 24 | 6.4 |
| Ümumi miqdar | 375 | 100 |

Aşağıda onun diaqramı göstərilib.




**5. "Pars Azərəxş" proqram təminatı vasitəsilə kitab və ya dissertasiya müəllifi üzrə axtarışdan nə qədər razısınız?**

Nəticələr göstərir ki, oxucuların 3,5 %-i çox az, 23,5 %-i az, 40,5 %-i normal və 32,5 %-i çox "Pars Azərəxş" proqram təminatı vasitəsilə kitab və ya dissertasiyanın müəllifi üzrə axtarışdan razıdır (cəd.6).

| Şərh | Sayı | Faiz |
|---|---|---|
| Heç | - | - |
| Çox az | 13 | 3,5 |
| Az | 88 | 23,5 |

.

| | | |
|---|---|---|
| Normal | 152 | 40,5 |
| Çox | 122 | 32,5 |
| Lap çox | - | - |
| Ümumi miqdar | 375 | 100 |

**6. "Pars Azərəxş" proqram təminatı vasitəsilə kitab və ya dissertasiya mövzusu üzrə axtarışdan nə qədər razısınız?**

Cədvəldə olan informasiya əsasında oxucuların 14,7%-i az, 66,4%-i normal və 18,9%-i çox kitab və ya dissertasiya mövzusu üzrə axtarışdan razıdır (cəd.7).

| Şərh | Sayı | Faiz(%) |
|---|---|---|
| Heç | - | - |
| Çox az | - | - |
| Az | 55 | 14,7 |
| Normal | 249 | 66,4 |
| Çox | 71 | 18,9 |
| Lap çox | - | - |
| Ümumi miqdar | 375 | 100 |

**7. "Pars Azərəxş" proqram təminatında latın dilində axtarışdan nə qədər razısınız?**

Nəticələr göstərir ki, oxucuların 17,6 %-i az, 53,1%-i normal, 26,7 %-i çox və 2,7 %-i lap çox latın dilində axtarışından razıdırlar (cəd.8).

| Şərh | Sayı | (%)faiz |
|---|---|---|
| Heç | - | - |
| Çox az | - | - |
| Az | 66 | 17,6 |
| normal | 199 | 53,1 |
| Çox | 100 | 26,7 |

.

| | | |
|---|---|---|
| Lap çox | 10 | 21,7 |
| Ümumi miqdar | 375 | 100 |

**8.“Pars Azərəxş” proqram təminatı vasitəsilə sənədi ilinə və nəşr yerinə görə axtarışdan nə qədər razısınız?**

Oxucuların 27,7%-i az, 51,5 %-i normal və 20,8 %-i bu proqram vasitəsilə sənədi ilinə və nəşr yerinə görə axtarışdan çox razıdırlar. (cəd.9).

| Şərh | Sayı | (%)faiz |
|---|---|---|
| Heç | - | - |
| Çox az | - | - |
| Az | 104 | 27,7 |
| Normal | 193 | 51,1 |
| Çox | 78 | 20,8 |
| Lap çox | - | 100 |
| Ümumi miqdar | 375 | 100 |

**9. “Pars Azərəxş” proqram təminatı vasitəsilə axtarışın nəticələrindən nə qədər razısınız?**

Cədvəldə olan informasiya göstərir ki, oxucuların 3,5%-i heç, 11,7%-i az, 42,9%-i normal və 41,9 %-i axtarışın nəticələrindən çox razıdırlar (cəd.10).

| Şərh | Sayı | Faiz% |
|---|---|---|
| Heç | 13 | 3.5 |
| Çox az | - | - |
| Az | 44 | 11,7 |
| Normal | 161 | 42,9 |
| Çox | 157 | 41,9 |
| Lap çox | - | - |
| Ümumi miqdar | 375 | 100 |

Aşağıda onun diaqramı göstərilib.

.




**10.“Pars Azərəxş” proqram təminatı vasitəsilə ixtisas üzrə informasiyanın axtarışından nə qədər razısınız?**

Oxucuların 3,5%-i çox az, 29,9 %-i az, 47,5%-i normal və 19,2%-i “Pars Azərəxş” proqram təminatı vasitəsilə ixtisas üzrə informasiyanın axtarışından çox razıdırlar (cəd.11).

| Şərh | Sayı | % faiz |
|---|---|---|
| Heç | - | - |
| Çox az | 13 | 3,5 |
| Az | 112 | 29,9 |
| Normal | 178 | 47,5 |
| Çox | 72 | 19,2 |
| Lap çox | - | - |
| Ümumi miqdar | 375 | 100 |

**11.“Pars Azərəxş” proqram təminatının kömək xidmətindən nə qədər razısınız?**

Nəticələr göstərir ki oxucuların 3,5 %-i heç, 20,8 %-i az, 42,9 %-i normal, 29,1 %- çox, 3.7 %-i kömək xidmətindən lap çox razıdırlar (cəd.12).

| Şərh | Sayi | % faiz |
|---|---|---|
| Heç | 13 | 3.5 |
| Çox az | - | - |
| Az | 78 | 20.8 |
| Normal | 161 | 42.9 |

.

| | | |
|---|---|---|
| Çox | 109 | 29.1 |
| Lap çox | 14 | 3.7 |
| Ümumi miqdar | 375 | 100 |

**12. “Pars Azərəxş” proqram təminatının imkan və qabiliyyətlərindən nə qədər razısınız?**

Oxucuların 3,7%-i çox az, 18,1%-i az, 54,7 %-i normal və 23,5 %-i proqram təminatının imkan və qabiliyyətlərindən çox razıdırlar (cəd.13).

| Şərh | Sayı | % |
|---|---|---|
| Heç | - | - |
| Çox az | 14 | 3,7 |
| Az | 68 | 18.,1 |
| Normal | 205 | 54,7 |
| Çox | 88 | 23,5 |
| Lap çox | - | - |
| Ümumi miqdar | 375 | 100 |

**13. “Pars Azərəxş” proqram təminatının qarşılıqlı təsirindən (interaction) nə qədər razısınız?**

Cədvəldə olan nəticələr göstərir ki oxucuların 3,7 %-i heç, 23,7 %-i çox az, 15,5 %-i az, 27,7 %-i normal və 7,2 %-i proqram təminatının qarşılıqlı təsirindən çox razıdırlar (cəd.14).

| Şərh | Sayı | % |
|---|---|---|
| Heç | 14 | 3.7 |
| Çox az | 13 | 3.5 |
| Az | 52 | 13.9 |
| Normal | 221 | 58.9 |
| Çox | 75 | 20 |
| Lap çox | - | - |

.

| | | |
|---|---|---|
| Ümumi miqdar | 375 | 100 |

**14."Pars Azərəxş" proqram təminatından yaxşı istifadə etmək üçün kitabxanaçılar nə qədər lazım olan təlimatı verirlər?**

Oxucuların 25,9 %-i bəyan edir ki, heç bir təlimat verilməyib, 23.7 %-i çox az, 15,5 %-ı az və nəhayət 27,7 %-i normal, 7,2 %-i proqram təminatdan yaxşı istifadə etmək üçün çox təlimat verildiyini qeyd etmişlər (cəd.15).

| Şərh | Sayı | % |
|---|---|---|
| Heç | 97 | 25.9 |
| Çox az | 89 | 23.7 |
| Az | 58 | 15.5 |
| Normal | 104 | 27.7 |
| Çox | 27 | 7.2 |
| Lap çox | - | - |
| Ümumi miqdar | 375 | 100 |

Aşağıda onun diaqramı göstərilib.




**15."Pars Azərəxş" proqram təminatının yadda saxlamaq imkanı və qabiliyyətlərindən nə qədər razısınız?**

Oxucuların 14,9 %-i heç, 6,1 %-i çox az, 12,5 %-i az, 51,5 %-i normal, 11,2 %-i çox və 3,7 %-i proqram təminatının yadda saxlamaq imkan və qabiliyyətlərindən lap çox razı olanlardır (cəd.16).

.

| Şərh | Sayı | % faiz |
|---|---|---|
| Heç | 56 | 14.9 |
| Çox az | 23 | 6.1 |
| Az | 47 | 12.5 |
| Normal | 193 | 51.5 |
| Çox | 42 | 11.2 |
| Lap çox | 14 | 3.7 |
| Ümumi miqdar | 375 | 100 |

**16. İstənilən kitab və dissertasiyanın axtarışından nə qədər nəticə almısınız?**

Nəticələr göstərir ki oxucuların 10,1 %-i çox az, 18,9 %-i az, 47,2 %-i normal, 20 %-i çox və 3.7 %-i axtarışdan lap çox nəticə əldə etmişlər (cəd.17).

| Şərh | Sayı | % faiz |
|---|---|---|
| Heç | - | - |
| Çox az | 38 | 10.1 |
| Az | 71 | 18.9 |
| Normal | 177 | 47.2 |
| Çox | 75 | 20 |
| Lap çox | 14 | 3.7 |
| Ümumi miqdar | 375 | 100 |

**17. Bu proqram təminatında sənədlərin axtarış imkanı və qabiliyyətlərindən nə qədər razısınız**?

Oxucuların 3,7 %-i heç, 7,2 %-i çox az, 24,8 %-i az, 57,9 %-i normal və 6,4 %-i sənədlərin axtarış imkan və qabiliyyətlərindən çox razıdırlar (cəd.18).

| Şərh | Sayi | % faiz |
|---|---|---|
| Heç | 14 | 3.7 |
| Çox az | 27 | 7.2 |
| Az | 93 | 24.8 |
| Normal | 217 | 57.9 |

.

| | | |
|---|---|---|
| Çox | 24 | 6.4 |
| Lap çox | - | - |
| Ümumi miqdar | 375 | 100 |

**18. Bu proqram təminatında sənəd növü əsasında axtarış imkanı və qabiliyyətindən nə qədər razısınız?**

Nəticələr göstərir ki oxucuların 10.7 %-i heç, 11.2 %-i çox az, 17.3 %-i az, 48.3 %-i normal və 12.5 %-i proqram təminatının sənəd növü əsasında axtarış imkanı və qabiliyyətindən çox razıdırlar (cəd.19).

| Şərh | Sayı | % faiz |
|---|---|---|
| Heç | 40 | 10.7 |
| Çox az | 42 | 11.2 |
| Az | 65 | 17.3 |
| Normal | 181 | 48.3 |
| çox | 47 | 12.5 |
| Lap çox | - | - |
| Ümumi miqdar | 375 | 100 |

Aşağıda onun diaqramı göstərilib.




**19.“Pars Azərəxş” proqram təminatının “söz bankı” xidmətindən nə qədər razısınız?**

Oxucuların 3,7 %-i heç, 10,4 %-i çox az, 29,3 %-i az, 25,6 %-i normal və 30,9 %-i proqram təminatının “söz bankı” xidmətindən çox razıdırlar (cəd.20).

.

| Şərh | Sayı | % |
|---|---|---|
| Heç | 14 | 3.7 |
| Çox az | 39 | 10.4 |
| Az | 110 | 29.3 |
| Normal | 96 | 25.6 |
| Çox | 116 | 30.9 |
| Lap çox | - | - |
| Ümumi miqdar | 375 | 100 |

Beləliklə oxucuların 72,6 %-i "Pars Azərəxş" proqram təminatının axtarış imkanlarından razıdırlar. Oxucuların kişi və ya qadın olmasının heç fərqi yoxdur. Mühəndis ixtisasında olan oxucular bu proqram təminatından daha çox razıdırlar. 43,5% "Pars Azərəxş" proqram təminatının sözlər və mesajlarından ən çox razıdırlar. 45,9% istifadəçi bu proqram təminatı ilə normal rahat və asan işləyirlər. 48,8%-i ad əsasında sənəd axtarışından normal həddə razıdırlar. 32,5%-i müəllif üzrə axtarışdan çox razıdırlar. 53,1%-i latın dilində axtarışdan normal razıdırlar. 42,9%-i "Pars Azərəxş" proqram təminatı ilə axtarışdan müəyyən nəticələr əldə etmişlər. 47,5%-i ixtisas üzrə axtarışdan razıdırlar. 42,9%-i bu proqram təminatının kömək xidmətindən normal həddə razıdırlar. 54,7%-i "Pars Azərəxş" proqram təminatının imkan və qabiliyyətlərindən normal həddə razıdırlar. 27,7%-i "Pars Azərəxş" proqram təminatının qarşılıqlı təsirindən (interaction) normal həddə razıdırlar. 51,5 %-i bu proqram təminatının yadda saxlamaq qabiliyyətindən normal həddə razıdırlar. 48,3%-i sənədlərin növ əsasından axtarış imkanlarından normal həddə razıdırlar.

## ƏDƏBİYYAT

1. *Əliyeva-Kəngərli A.İ, Cəfərov C. Kitabxana-informasiya cəmiyyətin əsas infrastruktur elementidir// Elmi Əsərlər/ AMEA MEK .- 2006.-№ .7.- S.101 -107.*

2. *İsmayılov X. Kitabxana-İnformasiya Texnologiyaları :Dərs vəsaiti .- B. 2009. - 393s.*

.

3. *İsmayilov Xəlil. Kitabxana işinin təşkili və idarə edilməsi :Dərs vəsaiti .- B. 2009. 312s.*
4. *Məmmədova A. AMEA elmi tədqiqat müəssisəsinin kitabxana fondlarının oxucuların biblioqrafik informasiya tələbatına uyğunluğu// Elmi Əsərlər/ AMEA MEK .- 2003.- №. 4.- S.56 -80.*
5. *Rüstəmova A. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Kitabxanasının təşəkkülü və fəaliyyəti (1923-29-cu illər) // Elmi Əsərlər/ AMEA MEK .- 2003.- №. 4.-.- S.88 -95.*
6. *Talıbov B. Ensiklopedik nəşrlərin tərtibində sözlük əsas göstərici kimi// Elmi Əsərlər/ AMEA MEK .- 2006.- №. 7.- S. 97 -100.*

**М. Д. НАСРИН**

**ОЦЕНКА ЭФФЕКТИВНОСТИ ИНФОРМАЦИОННО-ПОИСКОВЫХ СИСТЕМ**

**РЕЗЮМЕ**

В статье анализируются итоги анкетного опроса проведенного с целью оценки эффективности информационно-поисковых систем Библиотеки Табризского Университета и отмечаются премущества программного обеспечения «Парс Азерахш»

**M.D.NASRIN**

**EVALUATING THE EFFECTIVENESS OF INFORMATION RETRIEVAL SYSTEMS**

**SUMMARY**

The article analyzes the results of a questionnaire conducted to assess the effectiveness of information retrieval systems library of Tabriz University and highlights the benefits of software «Pars Azerakhsh»

.

**Eldəniz MƏMMƏDOV**
*BDU-nun Elmi kitabxanasının əməkdaşı*
*Kitabxanaşünaslıq kafedrasının dissertantı*

# M.F.AXUNDOV ADINA MİLLİ KİTABXANANIN DÖVRİ MƏTBUAT FONDUNUN AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN VƏ ELMİNİN İNKİŞAFINDA YERİ VƏ ROLU (1923-2008)

***Açar sözlər:*** Dövri mətbuat, kitabxana fondu, kitabxana işi, kitabxanaşünaslıq, milli kitabxana.

***Ключевые слова:*** Периодика; библиотековедение; библиотечный фонд; Библиотечное дело; национальная библиотека.

***Keywords:*** Periodicals; librarianship; library fund; library work; national libra

Hələ 1995-ci il iyunun 3-də M. F. Axundov adına Milli Kitabxanada miniatür kitabın təqdimat sərgisi keçirilərkən ümummilli liderimiz Heydər Əliyev demişdir: «Mən vaxtilə bu kitabxanaya dəfələrlə gəlmişəm. Amma bu gün kitabxananın astanasından keçərkən çox böyük hörmət və ehtiram hissi duyuram. Kitabxanaya, burada çalışan insanlara hörmət və ehtiramımı bildirmək istəyirəm» [4, s. 35].

Heydər Əliyevin daha sonra qeyd etdiyi kimi, «Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir» [4, s. 35].

Bəşər mədəniyyətinin beşiyi sayılan Şumerlərdə gil lövhələrdən ibarət kitabları saxlayan ilk kitabxanaların meydana gəldiyi dövrdən müasir informasiya cəmiyyətində yaranıb inkişaf edən, külli miqdarda sənəd informasiyasının mühafizəsini və istifadəsini təşkil edən kitabxanaların dövrünə qədər dünya mədəniyyəti tarixi çox böyük yol keçmişdir. Bu böyük zaman kəsiyində «sənəd» məfhumu daha geniş anlayış kimi xarakterizə edilmiş və cəmiyyətin inkişafında mühüm elmi əhəmiyyət kəsb edən informasiya vasitəsi kimi formalaşmışdır. «Sənəd» dedikdə müəyyən işarələrlə, simvollarla əks edilən,

informasiyanın zaman və məkan daxilində verilməsini, yayılmasını təmin edən müxtəlif maddi (fiziki) daşıyıcılar (kağız, mikrofilm, maqnit lenti, disklər, qrafik vasitələr və s.) nəzərdə tutulur. Bütün əlyazmaları, çap əsərləri, qrafik və audiovizual vasitələr, təsviri əsərlər, predmetlərin toplusu və s. sənəd anlayışı ilə ifadə edilir. Müxtəlif tip sənədlər vardır: bunlardan elmi, texniki, iqtisadi, bədii, hüquqi, estetik, tarixi, siyasi və s. sənədlər daha geniş yayılmışdır.

Müasir dövrdə kitabxana işinin təşkili və idarə olunmasının hüquqi əsaslarını 1999-cu il mart ayının 12-də ümummilli liderimiz Heydər Əliyevin «Kitabxana işi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə fərmanı təmin edir. Bu qanun 6 fəsil, 34 maddədən ibarətdir [2].

Sözü gedən qanunun IV fəslinin 20-ci maddəsində («Kitabxana xidmətinin təşkili») deyilir: «Kitabxanalar çap əsərlərindən və digər informasiya daşıyıcılarından səmərəli istifadə etmək məqsədilə kompleks kitabxana, biblioqrafiya və informasiya xidmətləri göstərir. Bu xidmətlər abonentləri ədəbiyyat və informasiya ilə təmin etmək, informasiya daşıyıcılarının seçilməsində kömək göstərmək məqsədi daşıyır. Kitabxana xidməti abonement, qiraət zalı, kitabxanalararası və beynəlxalq abonement, biblioqrafiya, elmi-texniki informasiya, fərdi və kütləvi, yazılı və şifahi, stasionar və qeyri-stasionar, qiyabi, kompleks vasitələrlə təşkil edilir. Kitabxana xidmətinin vəzifəsi kitabxana sərvətlərinin, dünya ədəbiyyatı nümunələrinin etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, bəşəri dəyərlərə yiyələnmək, müstəqil və yaradıcı düşünən vətəndaş yetişdirilməsinə fəal yardım etməkdən ibarətdir» [5].

Daha sonra, bu qanunun V fəslinin 26-cı maddəsində («Kitabxanaların elmi-metodik və kadr təminatı») deyilir:

«Mülkiyyət formasından asılı olmayaraq kitabxanaların elmi-metodik təminatı Milli kitabxana və elmi-metodik mərkəz statusuna malik olan kitabxanalar tərəfindən həyata keçirilir. Elmi-metodik mərkəz statusuna malik olan kitabxanalar kitabxanaşünaslığa, biblioqrafiyaya və informasiyaya dair metodik materiallar nəşr edir, kitabxanaçılıq nəzəriyyəsi və təcrübəsində mütərəqqi iş üsullarını ümumiləşdirib tətbiq edir, kadrların ixtisasının artırılmasını təmin edir» [5].

.

Azərbaycan Respublikasında fəaliyyət göstərən belə kitabxanalardan biri də məqsəd və vəzifəsinə görə universal elmi kitabxana sayılan M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasıdır.

Tarixdə ilk dəfə olaraq 2008-ci ildə təntənəli şəkildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Naziri cənab Əbülfəs Qarayevin 07.08.08 tarixli 416 saylı əmrinə əsasən üç gün – 17-19 noyabr tarixlərində milli kitabxananın 85 illik yubileyi keçirilmişdir.

2008-ci ilin noyabrın 17-də Azərbaycan Dövlət Musiqili Komediya Teatrında M. F. Axundov adına Azərbaycan Milli Kitabxanasının 85 illik yubileyinə həsr olunmuş tədbirdə mədəniyyət və turizm naziri Əbülfəs Qarayev yubiley mərasimini açaraq kitabxananın 85 illik yubileyi çərçivəsində Türkdilli Ölkələrin Milli Kitabxanaları direktorlarının II beynəlxalq konfransı və «Avrasiya Kitabxanaları Assambleyası» Qeyri-Kommersiya Əməkdaşlıq Təşkilatının X beynəlxalq iclasının bu tədbirdə iştirak edən nümayəndələrini salamlamış, əlamətdar gün münasibəti ilə kitabxana işçilərini təbrik etmişdir. Dövlətimizin mədəniyyət sahəsinə, o cümlədən kitabxanalara göstərdiyi diqqət və qayğıdan ətraflı söz açan nazir Prezident İlham Əliyevin Türkdilli Ölkələrin Milli Kitabxanaları direktorlarının II beynəlxalq konfransının və «Avrasiya Kitabxanalar Assambleyası» Qeyri-Kommersiya Əməkdaşlıq Təşkilatının X beynəlxalq iclasının iştirakçılarına təbrik məktubunu oxumuş, milli kitabxananın bir qrup əməkdaşına Mədəniyyət və Turizm Nazirliyinin fəxri fərmanını təqdim etmişdir [1].

Tədbirdə çıxış edən Azərbaycan Yazıçılar Birliyinin katibi, xalq yazıçısı Çingiz Abdullayev, TÜRKSOY-un baş direktoru Düsen Kaseinov və başqaları tədbirdə yubiley münasibəti ilə milli kitabxananın kollektivini təbrik etmişlər [1].

Daha sonra yubiley iştirakçılarına «Salnamə» sənədli filmlər studiyasında Azərbaycan Milli Kitabxanasının tarixinə həsr olunmuş «Milli Kitabxana» sənədli filmi nümayiş etdirilmişdir. Filmdə milli kitabxananın direktoru Kərim Tahirov bu elm məbədinin yaradıldığı 1923-cü ildən bu günədək keçdiyi inkişaf mərhələlərindən, insanların maariflənməsində, elm və təhsilin inkişafında onun rolundan ətraflı söz açmışdır. Vurğulanmışdır ki, yarandığı ilk illərdə 4 otaqda yerləşən kitabxananın cəmi 10 min nüsxə fondu olmuşdur. Müqayisədə təqdim edilmişdir ki, müəyyən müddətdə müxtəlif binalarda

fəaliyyət göstərdikdən sonra 1961-ci ildən indiki möhtəşəm binaya köçürülən kitabxanada hazırda 5 milyondan çox çap məhsulu mühafizə olunur. Kitabxanada əmək və mühafizə şəraitinin yaxşılaşdırılmasında, onun bugünkü səviyyəyə çatdırılmasında, kitab fondunun zənginləşdirilməsində ulu öndərimiz Heydər Əliyevin əvəzsiz xidmətləri diqqətə çatdırılmışdır [1].

Məlum olduğu kimi, respublikanın milli kitabxanasında əsas fondun təşkili və onun inkişafı 85 illik tarixə malikdir. 1923-cü ildə rəsmi açılışı olmuş kitabxananın fəaliyyətini təmin etmək məqsədi ilə fondun təşkilinə ciddi fikir verilmiş, bu məqsədlə əsas diqqət ayrı-ayrı şəxslərdən satın kitab alınmasına yönəldilmiş və milli çap məhsullarının diqqətlə toplanmasına səy göstərilmişdir. Bir faktı göstərmək kifayətdir ki, 1922-ci ildə Baş İqtisad Şurası Dövlət kitabxanasına (indiki milli kitabxanaya) milli dildə kitab almaq üçün 10000 manat qızıl pul verilməsini lazım bilmişdir [4, s. 5]. Bundan başqa, kitabxana açılarkən İmperator Texniki Cəmiyyəti Bakı şöbəsinin və Bakı ictimai yığıncağının 5 min cilddən ibarət kitab fondu da oraya verilmişdir [3, s. 44].

1939-cu ilin iyununda kitabxanaya Azərbaycanın görkəmli dramaturqu və maarifçisi M. F. Axundovun adı verilmişdir. Kitabxana 1960-cı ildən hazırda yerləşdiyi milli memarlıq nümunələrindən biri olan (memar Mikayıl Hüseynov) binaya köçmüşdür [9, s. 2].

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 15 aprel 2004-cü il tarixli 50 saylı qərarı ilə M. F. Axundov adına Azərbaycan Dövlət Kitabxanasına «Milli Kitabxana» statusu verilmişdir və həmin andan bu kitabxana Azərbaycan Milli Kitabxanası (AMK) adlanır [10, 2008].

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının 2008-ci il hesabat məlumatlarına görə, kitabxananın fondunda 4508626 nüsxə çap vahidi mühafizə olunur. 2008-ci ildə kitabxanaya 25672 nüsxə yeni sənəd daxil olmuşdur ki, bunun da 11548 nüsxəsi kitab, 14124 nüsxəsi isə digər sənədlərdir. 11548 nüsxə kitabın 8032 nüsxəsi azərbaycan dilində, 2678 nüsxəsi rus dilində, 838 nüsxəsi isə digər dillərdə olmuşdur. Kitabxanadan il ərzində 37185 nəfər istifadə etmişdir [10, 2008].

Milli kitabxanada 25 şöbə, 50 bölmə fəaliyyət göstərir və onlarda cəmi 361 nəfər işçi çalışır. Bu işçilərin 301 nəfəri kitabxana işçiləridir.

Onlardan 213 nəfərin ali (149 nəfərin ali ixtisas) və 88 nəfərin isə orta ixtisas təhsili vardır [10, 2008, s. 6].

2008-ci il ərzində kitabxananın daimi oxucularının sayı 37185 nəfər, virtual oxucularının (saytdan istifadə edənlər) sayı 98447 nəfər, virtual sifarişin xidmətlərindən istifadə edənlər 260 nəfər, elektron kataloqdan istifadə edənlər isə 43458 nəfər olmuşdur. Davamiyyət 1759-69 nəfər olmuş, kitab verilişi isə 694017 nüsxəyə çatmışdır [10, 2008].

Məlumdur ki, informasiyanın emalı prosesində baş verən kardinal dəyişikliklər nəticəsində sivilizasiyanın inkişafı tarixində bir neçə informasiya inqilabları olmuşdur. Bu kimi inqilablar bəşəriyyət tərəfindən yeni keyfiyyətli cəmiyyətlərin yaranmasına gətirib çıxarmışdır [11]:

- **Birinci informasiya inqilabı** hər hansı maddi daşıyıcının üzərində (daş, ağac və s.) yazının kəşfi ilə əlaqədardır. Bu zaman biliklərin nəsillərdən nəsillərə ötürülməsi imkanı yarandı;
- **İkinci informasiya inqilabı** (XV əsrin ortaları) kitab çapı ilə əlaqədardır. Kitab kağız üzərində geniş tutumlu semantik məlumatın - biliyin həm zamana görə ötürülməsinə, həm də məkana görə yayılmasına imkan verən maddi daşıyıcıdır;
- **Üçüncü informasiya inqilabı** (XIX əsrin sonu) elektrikin kəşfi ilə bağlıdır. Bunun da nəticəsində istənilən həcmdə informasiyanı operativ olaraq yığmağa və ötürməyə imkan verən teleqraf, telefon və radio meydana gəldi;
- **Dördüncü informasiya inqilabı** (XX əsrin 70-ci illəri) mikroprosessor texnologiyasının və fərdi kompüterlərin meydana gəlməsi ilə əlaqədardır. Bu inqilab cəmiyyətdə yeni bir sahənin - informasiya sənayesinin yaranmasına gətirib çıxarmışdır. Başqa sözlə, informasiya cəmiyyətinin qurulması prosesi başlanmışdır.

İnformasiya cəmiyyəti elə bir cəmiyyətdir ki, burada insanlar informasiyanın, xüsusən də onun ən yüksək forması olan biliklərin müasir informasiya texnologiyalarının köməyilə istehsalı, yadda saxlanılması, emalı və reallaşdırılması ilə məşğuldurlar.

Müasir kitabxana fondları, o cümlədən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının vahid fondu sənəd informasiyasının çap edilmiş və çap edilməmiş müxtəlif növlərindən ibarətdir. Çap materiallarına ancaq kitablar yox, serial nəşrləri (dövri mətbuat və s.), dövlət sənədlərini, texniki hesabatları, əlyazmaları, kartoqrafik mate-

.

rialları, şəkilləri, çertyojları, notları, mikrosənədləri (mikrofilmlər, mikrofişlər, mikrokartlar) aid edirlər. Kitabxana fondlarında saxlanılan çap edilməmiş materiallar sırasına isə audiovizual materialları (filmlər, slaydlar), elektron nəşrləri (CD, VCD, DVD) aid edirlər. Kitabxanalar ən mühüm elmi informasiya mərkəzi olduğundan göstərilən sənədlərin toplanıb saxlanılmasında və onların istifadəsinin təşkilində böyük xidməti vardır. Ancaq ənənəvi olaraq yenə də kitabxana fondlarında kitablar öz üstünlüyünü saxlamaqdadır. Buna baxmayaraq M.F.-Axundov adına milli kitabxananın fond sistemi içərisində dövri mətbuat (jurnal və qəzet) fondunun Azərbaycan mədəniyyətinin və elminin inkişafında xüsusi yeri və rolu danılmazdır (Sxem) [8, s. 10].

**Sxem**



Mətbuat (çap olunmuş əsərlər, çap məhsulları) sözü termin kimi, əsasən, dövri mətbuat mənasında işlədilir. Kütləvi informasiya və təbliğatın əsas vasitəsi kimi mətbuat sosial və siyasi mübarizənin, elmi bilikləri yaymağın, maarif və mədəniyyəti inkişaf etdirməyin, ictimai rəyi və dünyagörüşünü formalaşdırmağın qüdrətli silahıdır. XV əsrin ortalarında Avropada meydana gəlmiş mətbuat əvvəlcə kitab tipli nəşrlərdən, XVII əsrdən başlayaraq daha çox qəzet və jurnal nəşrlərindən ibarət olmuşdur [7, s. 529].

Dövri mətbuat – müəyyən vaxt ardıcıllığı ilə çap edilən nəşrlər; kütləvi informasiya və təbliğatın əsas vasitələrindən biridir. Dövri mətbuata qəzet, jurnal, dövri məcmuələr, bülletenlər və s. daxildir. Dövri mətbuatın əsas xüsusiyyətləri onun müəyyən edilmiş vaxtda müntəzəm çıxması, bütün nömrələrin eyni ad daşıması, illik nömrə və cildlərin sıra ilə artması, redaktorun və ya redaksiya heyətinin rəhbərliyi ilə buraxılmasıdır; əlavə xüsusiyyətləri: jurnallar üçün – dövriliyi (həftəlik, iki həftədən bir, aylıq, rüblük), hər ildə yeni nömrələrlə çıxması, çap vərəqlərinin qatlanaraq tikilməsi; qəzetlər üçün – dövriliyi (gündəlik, həftədə üç dəfə, həftəlik), illik nömrə ardıcıllığı, iriformatlı kağızdan istifadə, tikilmədən çap olunması və sairədir. Dövri mətbuat deyəndə ilk növbədə qəzetin yada düşməsi də təsadüfi deyildir. Çünki mətbuat sistemində qəzet daha qədim tarixə malikdir. Dövri mətbuatın ilk nümunələri müxtəlif vaxtlarda, müxtəlif ölkələrdə meydana gəlmiş yenilikləri əks etdirən əlyazma vərəqələri olmuşdur. Venesiyada belə əlyazma vərəqələri «gazzetta» adlanan xırda pul vahidinə satılırdı. Qəzet adı həmin pul vahidindən götürülmüşdür. Çap qəzetlərinin yaranması, əsasən, XII (Almaniya, Avstriya, Hollandiya, Belçika, Danimarka) təsadüf edir. Rusiyada ilk qəzet 1702-ci ildə çıxan I Pyotrun «Ведомости»dir. Dünyada ilk jurnal Fransada (1665), XVII əsrin II yarısından İngiltərə, İtaliya və Almaniyada nəşr olunmuş, Rusiyada isə 1728-ci ildə buraxılmışdır. Azərbaycan dilində nəşr edilən ilk qəzetlər «Tiflis əxbarı» (1832) və «Qafqazın bu tərəfinin xəbəri»dir (1845). Azərbaycanda milli mətbuatın yaranma tarixi H. Zərdabinin Bakıda (1875, 22 iyul) çap etdirdiyi «Əkinçi» qəzeti ilə başlayır. Azərbaycan dilində ilk jurnal C. Məmmədquluzadənin Tiflisdə çıxardığı satirik «Molla Nəsrəddin» [6(19) aprel, 1906] məcmuəsidir [2, s. 528].

.

1875-ci ildə min bir zillətlə qəzet nəşr edən H. Zərdabinin bu böyük vətəndaşlıq zəhmətini cəmiyyət qiymətləndirə bilmədi. Cəmi 25-30 il sonra Azərbaycanda gündəlik qəzetlərə ehtiyac yarandı. M. Şahtaxtinski, Ə. Hüseynzadə, Ə. Ağaoğlu kimi naşirlər yetişdi. Azərbaycanda Qərbin kommersiya qəzet modelləri yarandı. Əsrlərlə özünün ədəbi-bədii məktəbləri ilə yaşayan Azərbaycanda realist, rasional təfəkkürün məhsulu olan «Molla Nəsrəddin» məcmuəsi yarandı.

Azərbaycan mətbuatı 1910-cu illərin ortalarında milli müstəqillik ideyalarını «Açıq söz» qəzetinin köməyi ilə xüsusi tematikaya çevirməklə seçildi. Azərbaycan Xalq Cümhuriyyəti kimi müstəqil bir dövlətlə nəticələnən bu ideyaların bəhrəsi kimi Rusiyadan fərqli olaraq Azərbaycanda gerçək mətbuat, söz azadlığına zəmin yaratdı. 1917-ci il rus inqilabından sonra hakimiyyəti ələ alan bolşevik hökumətinin Rusiyada ilk fərmanı bolşevizmə xidmət etməyən qəzetlərin qapadılmasına verildi. Azərbaycan Xalq Cümhuriyyəti parlamenti isə 1919-cu ildə mətbuat haqqında nizamnamə qəbul etdi. İndi biz, hətta fəxrlə deyə bilərik ki, rus dövri mətbuatından fərqli olaraq Azərbaycan dövri mətbuatı tarixin heç olmasa bir məqamında söz və mətbuat azadlığının dadını görmüşdür [6, s. 35].

«Əkinçi»dən bu günədək olan bütün bu müddətdə xalqa, yalnız xalqa xidmət edən mətbuat elə bu xalqın özü tərəfindən müdafiə edilməyib. Tarixin onlarca dönəmində bu müdafiəyə, bu dəstəyə çox ehtiyacı olan Azərbaycan mətbuatı məmur, senzura təzyiqləri ilə təkbaşına qalmışdır. Bu hesabla Azərbaycan mətbuat tarixi yüz ilin tənhalığını yaşamış, amma heç vaxt təslim olmamış böyük bir qüvvə kimi hörmətə, məhəbbətə layiqdir.

Bu tarixin öyrənilməsi millətin ictimai, siyasi, mədəni irsinin öyrənilməsi deməkdir. Məhz bu bir daha M.F.Axundov adına milli kitabxananın dövri mətbuat fondunun Azərbaycan mədəniyyətinin və elminin inkişafındakı yeri və rolunu önə çəkir. Çünki M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası Azərbaycanda kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşrləri, xarici ölkələrdə Azərbaycan dilində nəşr olunmuş çap məhsullarını və Azərbaycan müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə çap olunmuş məlumat daşıyıcılarını toplayıb mühafizə edən milli xəzinə və dövlət kitabsaxlayıcısıdır.

.

İndiyə qədər milli kitabxananın dövri mətbuat fondunun tarixi, müasir vəziyyəti və inkişaf perspektivləri probleminə müəyyən dərəcədə professor A. Xələfovun kitabxana işi tarixinin nəzəri məsələlərinə həsr edilmiş monoqrafiya və məqalələrində toxunulmuş, bu problemlə əlaqədar respublikamızın tanınmış kitabxanaşünas alimləri Xəlil İsmayılovun, Zöhrab Baxşəliyevin və bir sıra tədqiqatçıların əsərlərində də diqqət yetirilmişdir, ancaq dövri mətbuat fondu müstəqil və xüsusi tədqiqat obyekti olmamışdır.

Burada əsas məqsəd əsası XX əsrin I yarısında qoyulan M. F. Axundov adına Milli Kitabxananın dövri mətbuat fondunun kompleks tarixi mənzərəsini yaratmaq və milli kitabxanaşünaslıq elmi fikrində onun yerini müəyyənləşdirməkdən ibarətdir.

AMK-nın fondunda araşdırma apararkən çox maraqlı faktlara, statistik məlumatlara rast gəlinir. Təkcə 6 ay müddətində 1923-2008-ci illərdə kitabxanaya daxil olan qəzet fondunun incələnməsi prosesində milli kitabxananın 3 şöbəsindən («Kitab fondlarının formalaşdırılması söbəsi», «Azərbaycan ədəbiyyatının arxivi şöbəsi», «Kitab fondlarının mühafizəsi şöbəsi») topladığımız tədqiqat materiallarına görə məlum olmuşdur ki, kitabxanda azərbaycan dilində 1000 adda qəzet (bunlardan 182 adda rayon qəzetidir), rus dilində 427 adda qəzet, 4 adda isə digər dillərdə olan qəzet, «Azərbaycan ədəbiyyatının arxivi şöbəsi»ndə azərbaycan dilində 74 adda qəzet, 45 adda mikrofilm, rus dilində isə 34 adda qəzet nömrələri mühafizə olunur.

Müqayisə etmək üçün AMK-nın son 9 ilinin, yəni 2000-2008-ci illərinin fondda olan çap məhsullarının miqdarını, kitabxana üzrə davamiyyəti, kitabxana üzrə sənəd verilişini, KAA üzrə sənəd verilişini, oxucuların sayını cədvəl şəklində aşağıda təqdim edirik.

| **İllər üzrə** | **Fondda olan çap məhsullarının (sənədlərin) miqdarı** | **Kitabxana üzrə davamiyyət (Gəliş)** | **Kitabxana üzrə sənəd verilişi** | **KAA üzrə sənəd verilişi** | **Oxucuların sayı** |
|---|---|---|---|---|---|
| ***1*** | ***2*** | ***3*** | ***4*** | ***5*** | ***6*** |
| ***2000*** | *4482986* | *211317* | *791759* | *4014* | *28067* |

.

| | | | | | |
|---|---|---|---|---|---|
| ***2001*** | *4489450* | *231716* | *862563* | *3915* | *30495* |
| ***2002*** | *4495098* | *227025* | *933486* | *3424* | *30487* |
| ***2003*** | *4509511* | *206848* | *775421* | *3661* | *32359* |
| ***2004*** | *4513244* | *177154* | *713714* | *2942* | *27623* |
| ***2005*** | *4453071* | *204227* | *765407* | *4038* | *31491* |
| ***2006*** | *4465442* | *225318* | *783949* | *5145* | *34083* |
| ***2007*** | *4482954* | *200050* | *713444* | *5103* | *39716* |
| ***2008*** | *4508626* | *175969* | *694017* | *4630* | *37185* |

Bundan başqa, 2000-2008-ci illərdə milli kitabxananın fondundan oxuculara çap məhsullarının aşağıdakı (jurnal və referativ jurnallar, qəzetlər, elmi əsərlər) növlərinə görə sənəd verilişi olmuşdur.

| **İllər üzrə** | **Jurnal və referativ jurnallar** | **Qəzetlər** | **Azərbaycan qəzeti arxivi** | **Elmi əsərlər** |
|---|---|---|---|---|
| ***1*** | ***2*** | ***3*** | ***4*** | ***5*** |
| ***2000*** | *37442* | *8498* | *7998* | *7879* |
| ***2001*** | *30995* | *6112* | *6387* | *7205* |
| ***2002*** | *27880* | *5995* | *3725* | *5695* |
| ***2003*** | *2440* | *5562* | *2230* | *5278* |
| ***2004*** | *2050* | *5400* | *2000* | *4980* |
| ***2005*** | *36804* | *6785* | *2900* | *4052* |
| ***2006*** | *41938* | *183913* | *3000* | *3873* |
| ***2007*** | *48334* | *51678* | *600* | *3844* |
| ***2008*** | *51120* | *3527* | *100* | *3758* |

1999-cu ildə kitabxananın 26536 nəfər oxucusu: bunlardan 21007 nəfəri azərbaycanlı, 2773 nəfəri rus, 742 nəfəri xarici ölkə vətəndaşı, 2014 nəfəri isə MDB ölkə vətəndaşları olmuşdur, 2008-ci ildə artıq bu göstəricilər artaraq 37185 nəfərə çatmışdır ki, bunun da 28900 nəfərini azərbaycanlı, 2683 nəfərini rus, 2310 nəfərini xarici ölkə vətəndaşı, 3292 nəfərini isə MDB ölkə vətəndaşları təşkil etmişdir.

.

AMK-nın fondunda digər sənəd növləri ilə yanaşı dövri mətbuata dair bu qədər sənəd kütləsinin belə gözəl qorunub saxlanılmasında, onlardan oxucuların sistemli ictimai istifadəsinin təşkilində kitabxanaçıların əməyi ilə bərabər dövlətin qayğısı da özünü büruzə verir.

Xalqımızın böyük oğlu, dünya şöhrətli siyasətçi, müstəqil Azərbaycan dövlətçiliyinin memarı, ümummilli liderimiz Heydər Əliyevin respublikamıza 34 illik rəhbərliyi dövründə mədəniyyətimizin çox mühüm sahəsi olan kitabxana işi dövlət qayğısı ilə əhatə edilmiş, bu sahə həmişə böyük öndərin diqqət mərkəzində olmuş və həmin illər respublikamızda kitabxana işinin tarixinə inkişaf və tərəqqi dövrü kimi daxil olmuşdur. Onun M.F.Axundov adına Milli Kitabxana haqqında yuxarıda qeyd etdiyimiz sözləri hər dəfə hörmətlə yad edilir. Məhz bunun nəticəsidir ki, onun sələfi, Prezident İlham Heydər oğlu Əliyev dahi öndərin tutduğu yolu davam etdirir, bu sahədə ciddi addımlar atır. 20 aprel 2007-ci ildə «Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» və 6 oktyabr 2008-ci ildə "Azərbaycan Respublikasının kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" haqqında sərəncamları kitabxanaçılar tərəfindən, o cümlədən ölkənin digər ziyalıları tərəfindən prezidentin növbəti belə addımı kimi qiymətləndirilir və Heydər Əliyev irsinə böyük hörmət hissi olaraq alqışlanır.

## ƏDƏBİYYAT


1. *Azərbaycan Milli Kitabxanasının 85 illik yubileyi keçirilmişdir // Azərbaycan. – 2008. – 18 noyabr.*
2. *Dövri mətbuat // Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə. C. 3. - Bakı, 1979. – 600 s.*
3. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik: III hissə. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2003. – 314 s.*
4. *İsmayılov X. Milli Kitabxana Azərbaycan elm və mədəniyyətinin xəzinəsidir // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. – B.: Bakı Universiteti Nəşriyyatı, 2008. – №2. – s. 34-40.*
5. *«Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu // Azərbaycan. – 1999. – 14 mart.*

.

6. *Məmmədli C. Jurnalistikaya giriş: Dərs vəsaiti. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001. – 385 s.*
7. *Mətbuat // Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə. C. 6. - Bakı, 1982. – 608 s.*
8. *70 il xalqın xidmətində: (M.F.Axundov adına Azərbaycan Respublika Dövlət kitabxanasının tarixinə dair materiallar məcmuəsi) / M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanası; Red.: F.Məmmədov. – Bakı, 1993. – 156 s.*
9. *M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 2002-ci il üçün tərtib etdiyi 80-A-T-RİH №-li forma. – 8 s.*
10. *M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının 2000-2008-ci il hesabatları..*
11. *http://az.wikibooks.org/wiki/%C4%B0nformatika_elminin_tarixi,_predmeti_v%C9%99_informasiya_c%C9%99miyy%C9%99tind%C9%99ki_rolu*

**Э. Э.МАМЕДОВ**

## РОЛЬ И МЕСТО ФОНДА ПЕРИОДИКИ НАЦИОНАЛЬНОЙ БИБЛИОТЕКИ ИМЕНИ М. Ф. АХУНДОВА В РАЗВИТИИ КУЛЬТУРЫ И НАУКЕ АЗЕРБАЙДЖАНА

### РЕЗЮМЕ

В этой статье с использованием короткого экскурса исследована роль печатного фонда библиотеки имени М. Ф. Ахундова в развитии Азербайджанской культуры и науки в период 85 летней деятельности.

**E. E.MAMMADOV**

## THE ROLE OF PERIODICAL FUND OF THE NATIONAL LIBRARY NAMED AFTER M. F. AKHUNDOV IN THE DEVELOPMENT OF AZERBAIJAN CULTURE AND SCIENCE

### SUMMARY

In this article is spoken and analyzed the material using a short excursion to investigate the role of periodical fund of the National Library named after M. F. Akhundoff in the development of Azerbaijan culture and science in a period of 85 years activity.

.

**Müşfiq İMAMVERDİYEV**
*Kitabxanaşünaslıq kafedrasının magistrantı*

## SƏBAİL RAYON KÜTLƏVİ KİTABXANALARINDA GƏNCLƏRƏ KİTABXANA XİDMƏTİNİN TƏŞKİLİ

***Açar sözlər:*** Səbail, elektron kataloq, komplektləşdirmə, kitabxana , biblioqrafik mənbə

***Ключевые слова:*** Сабаил, электронный каталог, комплектования, библиотека, библиографический источник

***Keywords:*** Sabail, electronic catalog, acquisition, library, bibliographic source.

Ölkəmizdə gənclərin asudə vaxtlarının təşkilində kitabxanalar əvəzsiz rol oynayır. Dövlətin kitabxana siyasətinin əsas parametrlərindən biri də oxucuların informasiya təminatını dolğun ödəmək, həmçinin hər bir oxucuya öz kitabını çatdırmaq və s. kimi məsələlərdir. Respublikanın bütün bölgələrində uşaq və gənclərin mütaliəsinə rəhbərlik bu tip oxuculara xidmət edən kitabxanaların qarşısında geniş vəzifələr qoyur. Uşaq və gənclərə kitabxana xidmətinin səmərəli təşkili onların müstəqil respublikamızın sabahı üçün hazırlanan kadr potensialının ilkin mərhələsi olduğundan bu iş daim nəzarətdə olmalıdır. Dövlət Gənclər siyasətinin prioritet istiqaməti sayılan gəncliyin Dövlət proqramında gənclərin və yeniyetmələrin uğurlu gələcəyi naminə əlaqədar təşkilatların qarşısında duran müxtəlif vəzifələr kimi, uşaq və gənclər kitabxanaları da öz növbəsində geniş missiya yerinə yetirir.

Haqqında danışacağımız kitabxanalar universal məzmunlu, bütün oxucuların istifadəsinə imkanı olan kütləvi, universal kitabxanaların tipinə daxildir. Bu kitabxanaların qarşısında duran vəzifələrin elmi və sosial əhəmiyyətini professor A.A.Xələfov özünün "Kitabxanaşünaslığa giriş" adlı dərs vəsaitində göstərmişdir. O yazır: "Cəmiyyət inkişaf etdikcə, onun strukturunda ciddi dəyişikliklər baş verdikcə, cəmiyyət üzvlərinin mədəni səviyyəsi yüksəldikcə, oxucular arasında yüksək ixtisaslı, hərtərəfli inkişaf etmiş oxucuların sayı çoxaldıqca kütləvi kitabxanaların qarşısında daha mühüm vəzifələr meydana çıxırdı. Bu vəzifələrin öhdəsindən gəlmək üçün kütləvi kitabxanaların

təşkilati quruluşunda və strukturunda böyük dəyişikliklər aparmaq, onların işinin məzmununu müasir dövrün tələblərinə uyğun qurmaq tələbi irəli sürülürdü (3, s.48-49).

Müasir dövrdə gənc oxucuların şəxsiyyətinin formalaşmasında mütaliənin böyük rolu vardır. Ona görə də uşaq və gənc oxucuların mütaliəyə cəlb olunmasında, eləcə də onların mütaliə maraqlarının artırılmasında kütləvi kitabxanalar xüsusi səy göstərməlidirlər. N.Nərimanov adına Səbail rayon kütləvi kitabxanası qarşıya qoyulan çox mühüm vəzifələri yerinə yetirmək məqsədilə fondun komplektləşdirilməsinə böyük diqqət yetirir. Kitabxana öz fondunun komplektləşdirilməsində 6 mühüm xüsusiyyəti nəzərdə tutur:

a) Kitabxana vəzifəsinin öyrənilməsi

b) Gənc oxucu sorğularının öyrənilməsi

c) Biblioqrafik mənbələrin istifadə edilməsi

d) Komplektləşdirmə mənbələrinin müəyyənləşdirilməsi

e) Gənclər ədəbiyyatının seçilmə keyfiyyətinin müəyyənləşdirilməsi

ə) Fondun oxucularla əlaqəsi və əks əlaqəsi

Bu xüsusiyyətlərin kitabxanada qarşılıqlı surətdə istifadə edilməsi fondun formalaşmasına təsir göstərir. N.Nərimanov kitabxanası fondun formalaşmasında bu xüsusiyyətləri geniş nəzərə alır və bir sıra forma və metodlara istinad edir. Bu formalardan biri kartotekaların təşkilidir. Bu kartotekalardan kitabxanalarda səmərəli istifadə olunur. Belə ki, kitabxananın "kitabxana profili", "oxucu gənclərin profili", "təkrar komplektləşdirmə" mövzularında təşkil etdiyi kartotekalar bu baxımdan xeyli maraq doğurur. Həmin kartotekalarda fondda çatışmayan və komplektləşdirilməsi zəruri hesab edilən ədəbiyyat əks etdirilir. Burada xüsusən kitabxananın vəzifəsinə və oxucu sorğusuna dair ən mühüm ədəbiyyat nümunələri seçilib əhatə olunur. Burada oxuculara "yox" cavabları da geniş nəzərə alınır. Kartotekaların tərtibi fondların məqsədyönlü komplektləşdirilməsinə mühüm istiqamət verir, fondun bütünlükdə tənzimləndirilməsini təmin edir. Həmin kartotekalar əsasında kitabxana 2003-cü ildə 2099 nüsxədən artıq kitab əldə etmişdir (6). Nərimanov kitabxanasında 2005-2010-cu illərdə 1800 nəfər gənc oxucu üzərində (istehsalatla bağlı olanlar) təcrübə aparılmış və müəyyənləşdirilmişdir ki, gənc oxucu tələbatının artması istehsalat ədəbiyyatının alınmasını

ildən-ilə yüksəltmiş və tərkibcə zənginləşməsinə səbəb olmuşdur. Nərimanov adına kütləvi kitabxanada oxucuların sayı durmadan artır. Əgər 2003-cü ildə kitabxana fondundan 8093 nəfər oxucu istifadə etmişdirsə, 2009-cu ildə həmin fonddan 9340 nəfər oxucu istifadə etmişdir. Bu da bilavasitə kitabların istifadəsi ilə əlaqədar olmuşdur.

Məhz buna görə kitabxanalara müraciət edən oxucuların sayı artır. Burada oxucuların təkcə miqdar etibarilə artması deyil, həm də tərkib etibarilə zənginləşməsi daha çox diqqəti cəlb edir.

Səbail rayon kitabxanaları olan N.Nərimanov adına kütləvi, Bibi-heybət kütləvi və M.Qorki adına Mərkəzi Səyyar kitabxanalarında gənc oxuculara xidmət işinin düzgün qurulmasında bir çox amillər nəzərə alınır. Bunlardan biri zəngin kitabxana fondunun olmasıdır. Çünki müxtəlif oxuculara kitabxana xidmətinin düzgün həlli bilavasitə oxucu tələbatını ödəyəcək fondun olmasıdır. Hər üç kitabxananın özünəməxsus fondları vardır. Bu fondlar hər il yeni ədəbiyyatla komplektləşdirilirlər.

| **Kitabxananın adı** | **İllər üzrə kitab fondu** | | |
|---|---|---|---|
| | **1995** | **2000** | **2009** |
| *N. Nərimanov adına kütləvi kitabxana* | *72340* | *87436* | *93035* |
| *Bibi-heybət kütləvi kitabxanası* | *36530* | *41432* | *53736* |
| *M.Qorki adına kütləvi kitabxana* | *71400* | *79216* | *83401* |

Verilmiş cədvəldən aydın olur ki, hər üç kitabxananın fondu təminedicidir. Hər üç kitabxanada 1995-ci ilə nisbətən 2009-cu ildə fondun az olmasının başlıca səbəbi kitabxana fondlarından öz aktuallığını itirmiş ədəbiyyatın silinməsi olmuşdur. Göstərmək lazımdır ki, kitabxanalarda komplektləşdirmə üçün qorunan vəsaitin çox hissəsi dövri nəşrlərin abunəsinə sərf edilir. Bu da bütün oxucularla bərabər, gənc oxucuların da kitabxanaya gəlib dövri nəşrlər vasitəsilə gündəlik müxtəlif məlumatlar əldə etmələrinə imkan verir.

N.Nərimanov adına kütləvi kitabxanadan, M.Qorki adına şəhər kitabxanasından, Bibi-heybət qəsəbə kitabxanasından istifadə edən

.

oxucuların çox hissəsini uşaq və gənclər təşkil edir. Bunun başlıca səbəblərindən biri bəlkə də mühüm hissəsi kitabxana fondlarının universal məzmuna malik olması, digəri isə oxucular üçün ictimai-mədəni şəraitin yaradılmasıdır. Bu kitabxanalarda xidmət işinin yaxşılaşdırılmasında kütləvi tədbirlərin rolu və yeri böyükdür. Kitabxana təcrübəsində və elmi ədəbiyyatda kitabxanalarda müxtəlif forma və üsullarda kütləvi tədbirlərin keçirilməsi barədə geniş məlumat vardır. Kitabxanalar mövzu və oxucu seçimi ilə əlaqədar olaraq bu tədbirlərdən istifadə edirlər. Bunlar əsasən üç formada həyata keçirilir:

Əyani formada-bura daxildir: - kitab sərgiləri, kitabxana plakatları və s.

Mətbu təşviqat və təbliğat: a)dövri nəşrlər; b)kiçik formatlı nəşrlər.

Şifahi təbliğat forması (Kitabxanalarda şifahi iş formaları).

Səbail rayon kütləvi kitabxanaları müasir informasiya texnologiyalarının tətbiqində də mühüm işlər görmüşdür. Bu kitabxalardan, xüsusilə, M.Qorki adına Mərkəzi şəhər Səyyar Kitabxana Fondunu qeyd etmək lazımdır. M.Qorki adına MSKF-nin Elektron kataloqu M.F.Axundov adına Milli Kitabxananın VTLS/Virtual sisteminə qoşularaq onun Məlumat Bazası əsasında 2009-cu ilin yanvar ayından yaradılmağa başlanılmışdır. Kataloqa ilk olaraq cənab Prezident İlham Əliyevin sərəncamı ilə nəşr olunan latın qrafikalı Azərbaycan dilində olan ədəbiyyat daxil edilmişdir. Bununla yanaşı Məlumat Bazasına digər latın qrafikası və kiril qrafikasında olan Azərbaycan ədəbiyyatı və rus dilində olan rus ədəbiyyatı daxil edilir. Bu işin həyata keçirilməsi üçün Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsi tərəfindən kitabxana lazım olan texniki avadanlıq və inventarla təmin olunmuşdur.

## ƏDƏBİYYAT


1. *“Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya. Elmi-nəzəri və təcrübi jurnal.-B.,1999.-№1.-S.3-19.*
2. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərs vəsaiti.-B., 1996.-57 s.*
3. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik (üç hissədə).- h 3.-B., BUN, 2003.-314 s.*

.


4. *Xələfov A.A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri.-B., 2006.-106 s.*
5. *Əhmədov E.Y. Qlobal informasiya məkanı və müasir kitabxana-şünaslıqda mütaliənin yeni təzahürləri // Kitabxanaşünaslıq və biblioqrafiya.-B., 2007.- № 2.-S. 3-14.*
6. *N.Nərimanov adına Kütləvi kitabxananın 2000-2010-cu il hesabatları.*
7. *M.Qorki adına kütləvi kitabxananın 2000-2010-cu il hesabatları.*
8. *Bibi-heybət kütləvi kitabxanasının 2000-2010-cu il hesabatları.*



**М.ИМАМВЕРДИЕВ**


## ОБРАЗОВАНИЕ СЛУЖБЫ БИБЛИОТЕК ДЛЯ МОЛОДЕЖИ В МАССОВЫХ БИБЛИОТЕКАХ САБАИЛЬСКОГО РАЙОНА

**РЕЗЮМЕ**


В статье говориться о службе библиотек для молодежи в массовых библиотеках Сабаильского района, о рабочей структуре этих библиотек и о приминении современной информационной технологии. Особое внимание уделяется рабочей структуре массовой библиотеки имени Н.Нариманова и массовой библиотеке имени М. Горького.



**M.İMAMVERDİYEV**


## THE FORMATION OF THE LIBRARY SERVICE FOR THE YOUTH IN THE MASS LIBRARIES OF SABAIL DISTRICT

**SUMMARY**


The article deals with the library service for the youth in the mass libraries of Sabail District, work structure of these libraries and applying the modern information technology. The special attention is paid to the mass library named after N. Narimanov, and the mass library named after M. Qorki.

.

**Rüfət HƏMZƏYEV**
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının magistrantı*

# M.F.AXUNDOV ADINA MİLLİ KİTABXANANIN İLKİN SƏNƏDLƏRLƏ KOMPLEKTLƏŞDİRİLMƏ MƏNBƏLƏRİ

**Açar sözlər:** Milli Kitabxananın fondu, Milli Kitabxana ilkin sənədlər, Milli Kitabxana məcburi nüsxələr, Milli Kitabxana komplektləşdirmə, M.F.Axundov ilkin sənədlər komplektləşdirmə

***Ключевые слова:*** Фонд Национальной библиотеки Азербайджана, первичные документы Национальной, библиотеки Азербайджана, комплектование Национальной библиотеки Азербайджана, комплектование фонда документов библиотеки имени М.Ф.Ахундова, первичные документы М.Ф.Ахундов

***Keywords:*** Foundation of the National Library of Azerbaijan, primary documents of the National Library of Azerbaijan, acquisition of the National Library of Azerbaijan, acquisition of documents library M.F.Akhundov, primary documents M.F.Akhundoff

Kitabxanalar informasiyanın əldə olunmasında və lazımi istiqamətdə yönəldilməsində böyük rol oynayır. Müasir kitabxanalar kitabxana binasından kənarda belə öz funksiyasını saxlamaqla informasiyanı məqsədyönlü şəkildə istiqamətləndirir. Kitabxanaların informasiya ilə fasiləsiz təmin olunması kitabxana fondunun zəngin olmasına, oxucuların sorğularına dəqiq, düzgün və operativ cavab verməsinə səbəb olur.

Kitabxanalar sənədlə vaxtında təmin olunmasalar, bir sosial institut kimi məhv ola bilərlər. Müasir dövrdə kitabxanaların qarşısında duran əsas məsələlərdən biri profilinə və yerləşdiyi ərazinin əhalisinə uyğun sənəd toplamaqdır. Bununla da kitabxanalar əhalinin həm milli, həm də dünya mədəniyyətinə, biliklərinə, elminə yiyələnməsini təmin edir. Kitabxana fondunun tərkibinə kitab, jurnal, qəzet, digər çap məhsulları, audiovizual və texniki vasitələrlə oxunan materiallar, əlyazmalar və başqa informasiya daşıyıcıları daxildir. Kitabxana fondları universal, sahəvi, çoxsahəli, ixtisaslaşdırılmış ola bilər.

Əsası 1923-cü ildə qoyulmuş M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası Azərbaycanın ilk böyük elm və mədəniyyət mərkəzlərindən biridir. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası universal elmi kitabxanaların fəaliyyət xüsusiyyətlərini nəzərə alaraq öz fondunu bütün elm sahələrinə dair nəşrlərlə komplektləşdirir. Kitabxananın qarşısında duran ən mühüm vəzifələrdən biri kitab fondunun müntəzəm inkişaf etdirilməsindən və daha da təkmilləşdirilməsindən ibarətdir.

Fondda toplanmış informasiya daşıyıcılarından daimi və səmərəli istifadənin təşkili Milli kitabxananın başlıca funksiyasıdır. Məlumdur ki, M.F.Axundov adına Milli Kitabxananın sənəd-informasiya fondunun istifadəçiləri respublikamızda yaşayan müxtəlif oxucu qruplarıdır. Mürəkkəb xarakterli oxucu kontingentinə səmərəli xidmət göstərilməsində, həmçinin fondun komplektləşdirilməsində Milli Kitabxanada fəaliyyət göstərən "Kitab fondlarının formalaşması", "Ölkədaxili kitab mübadiləsi", "Xarici ədəbiyyat və beynəlxalq kitab mübadiləsi", "Elektron resursların yaradılması" və "Kitabxanaların abonement" şöbələri və orada çalışan işçilərin xüsusi rolu vardır. Kitabxana fondunun formalaşmasının tərkib hissəsi kimi, komplektləşdirmənin əhəmiyyəti təkcə formalaşma prosesinin praktiki müəyyənləşdirməkdə kifayətlənmir, ümumiyyətlə, bütün kitabxana fəaliyyətinin əsasını təşkil edir. Komplektləşdirmə hər şeydən əvvəl sosial-iqtisadi, mədəni, habelə oxucu profilinə xidmət edən kartotekalara isnad edir.

Kitabxanaların sənədlərlə komplektləşdirilməsində kitabxanaların maliyyələşdirilməsi mühüm yer tutur. "Kitabxana işi haqqında" qanunun 27-ci maddəsində qeyd olunur: "Dövlət kitabxanaları və büdcədən maliyyələşdirilən təşkilatların tabeçiliyində olan kitabxanalar dövlət büdcəsi vəsaitləri, hüquqi və fiziki şəxslərin könüllü ayırmaları hesabına maliyyələşdirilir." (2)

"Dövlət kitabxanaları maliyyələşdirilərkən büdcədən kitab fondlarının komplektləşdirilməsinə yönəldilən vəsait ayrıca maddədə göstərilməli və bu vəsait müntəzəm olaraq artırılmalıdır. Ayrılmış vəsait kitabxanaların sərəncamında qalır və onların nizamnamə fəaliyyətini həyata keçirmək üçün istifadə edilir." (5, s.77)

Milli kitabxana fondlarının komplektləşdirilməsi xüsusiyyətləri həmin kitabxanaların spesifik vəzifələri ilə müəyyənləşir; istehsalat,

iqtisadiyyat və siyasət, elmi-tədqiqat, kənd təsərrüfatı sahələrində çalışan mütəxəssislərə kömək göstərmək, onların elmi-texniki biliklərinin, elmi dünyagörüşlərinin yüksəldilməsinə köməklik göstərməkdir. Kitabxanaların sənəd-informasiya fondunun profili universal olduğuna görə, orada bütün elm sahələrini əhatə edən sənədlər yer alır.

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr 611-1Q saylı fərmanı ilə təsdiq olunmuş «Kitabxana işi haqqında» Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinə müvafiq olaraq Milli Kitabxanaya dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafiya müəssisələri və digər hüquqi və fiziki şəxslər tərəfindən buraxılan çap məhsullarından 4 pulsuz məcburi nüsxə, respublikada nəşr olunan bütün qəzet və jurnallardan isə 2 pulsuz məcburi nüsxə göndərilir. 2009-cu ilə olan məlumata görə kitabxananın ümumi fəaliyyəti 4 516 841 nüsxədən ibarətdir. (6)

Tarixə nəzər salsaq görərik ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1995-1999-cu illərdə 4 dəfə Milli kitabxanaya gəlmişdir. H. Əliyev Milli kitabxanaya ikinci dəfə 1996-cı il mart ayının 5-də İsraildə çap olunan "Heydər Əliyev: Siyasi portretin cizgiləri" kitabının təqdimat mərasimi zamanı gəlmişdir. O zaman kitabxananın fondlarına çox az miqdarda yeni kitabların daxil olduğunu görərək öz şəxsi kitabxanasından 400 nüsxəyədək çox qiymətli kitabı Milli Kitabxanaya hədiyyə etmişdir.

Ulu öndər kitabxanadakı çıxışı zamanı bu məsələ haqqında bunları demişdi: "Mən indi kitabxanaya xeyli kitab bağışladım. Güman edirəm ki, bunlar fondda öz yerini tutacaqdır. Zənnimcə, gələcəkdə bu təşəbbüs davam edə bilər". Onun çağırışına səs verən görkəmli alimlərimiz və ziyalılarımız Milli Kitabxanaya öz şəxsi kitabxanalarından xeyli miqdarda kitablar bağışladılar.

Milli kitabxana dövlət nəşriyyatları ilə də əməkdaşlıq edir. Misal olaraq, "Şirvan", "Adiloğlu", "Azərnəşr", "Qanun", "Elm", "Təhsil", "Azərbaycan" dövlət nəşriyyatlarını göstərmək olar. Fondun komplektləşdirilməsilə nəşriyyat planları ilbəil artır.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası qanununun 14-cü maddəsində yazılır: "Kitabxanalar dövlət və qeyri-dövlət nəşriyyatları tərəfindən buraxılan profilinə uyğun çap məhsulları və digər informasiya daşıyıcıları birinci növbədə almaq hüququna malikdir. Bu hüquq müvafiq icra hakimiyyəti orqanları tərəfindən

müəyyənləşdirilmiş qaydada kitabxana kollektoru, kitab ticarəti müəssisələri, nəşriyyat orqanları, ayrı-ayrı şəxslərlə aparılan müvafiq əməliyyatlar, məcburi nüsxələrin alınması, abunə, bağışlama və vərəsəlik əsasında miras qalmış nəşrlərin verilməsi, habelə beynəlxalq və ölkə daxili kitab mübadiləsi yolu ilə təmin edilir.”

Milli kitabxanaya məcburi nüsxələr, kitab mağazalarından, abunə yazılışından, kitab mübadiləsindən, hədiyyə yolu ilə və s. mənbələrdən daxil olur. Məsələn, 1997-ci ildə abunə yolu ilə 184, beynəlxalq mübadilə yolu ilə 159 kitab və 216 dövri mətbuat, hədiyyə yolu ilə 316 jurnal və 5 qəzet fonda daxil olmuşdur. Bundan başqa, həmin ilin iyun ayından “Qaya” mətbuat yayımı firması ilə əlaqə yaradıb dövri mətbuata abunə olmuşdur. Bu və ya digər səbəblərdən fonda düşməyən qəzeti kitabxananın əməkdaşları müxtəlif orqanların təsisçi təşkilatları ilə əlaqə yaradıb həmin qəzeti kitabxananın fondu üçün əldə edirlər. (6)

Milli kitabxananın fondunun formalaşdırılmasında yerli nəşrlərin komplektləşdirilməsi böyük əhəmiyyət kəsb edir. Məlumdur ki, kitabxananın fondu universal məzmuna malikdir. Odur ki, Azərbaycan kitabının komplektləşdirilməsi zamanı bu prinsip əsas götürülür. Kitabxana dövri nəşrlərlə də fondunu komplektləşdirir. Dövri nəşrlərin əldə olunması üçün əsas üsul abunə yazılışıdır. Hal-hazırda kitabxanaya 276 adda (245 azərbaycan dili, 31 rus dilində), 184 adda jurnal (88 azərbaycan dili, 96 rus dilində) daxil olur. (6)

Yuxarıda qeyd olunduğu kimi, kitabxanalar pulsuz məcburi nüsxələrlə də təmin olunmalıdır. Dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafiya müəssisələri və digər hüquqi şəxslər tərəfindən buraxılan çap məhsullarından Milli Kitabxanaya 4 pulsuz məcburi nüsxə, qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının kitabxanalarına, respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalara, AMEA Mərkəzi Elmi Kitabxanasına və BDU-nun kitabxanasına profilinə uyğun olaraq 2 pulsuz məcburi nüsxə, Azərbaycan Respublikasında nəşr olunan bütün qəzet və jurnal redaksiyaları isə 2 pulsuz məcburi nüsxə göndərməlidirlər.

2004-cü ildə Milli Kitabxananın əməkdaşlarının Avstriyaya ezamiyyəti zamanı oradakı kitabxananın fondunda Azərbaycana dair çoxlu sayda kitabların olması müəyyən olunmuş və onların ksero surətləri çıxarılaraq ölkəyə gətirilmişdir. 3 adda kitabın isə Bakıda

.

orijinal nüsxələrinin tapılıb Milli Kitabxananın fonduna verilməsi təmin olunmuşdur.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli 56 saylı “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” sərəncamı ilə çap olunan kitablar kitabxanaların sənəd təminatında mühüm yer tutur. Belə ki, çap olunan kitabların hər birindən 100 nüsxə Milli Kitabxanaya verilmişdir. Belə ki, bu sərəncama əsasən 2005-ci ildə fonda 1555 adda kitab daxil olmuşdur ki, bu da fondun zənginləşməsinə səbəb olmuşdur. Hədiyyə olunan kitabların ümumi sayı 2005-ci ildə 3562, 2006-cı ildə isə 5242 nüsxə olmuşdur. Hədiyyə yolu ilə daxil olan kitabların mənbələri kimi: Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı, ABŞ səfirliyi, digər səfirlik və xarici nümayəndəliklər, Beynəlxalq təşkilat və qurumları göstərmək mümkündür.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının fondunun mühüm xüsusiyyətlərindən biri də burada avtoreferat və dissertasiyalar fondunun yaradılmasıdır. Kitabxananın fondunun durmadan zənginləşdirilməsi buraya oxucu marağını artırır.

Qısa olaraq, fondun formalaşması üçün istifadə olunan mənbələri aşağıdakı kimi qruplaşdırmaq olar:

1) Respublika nəşriyyatları; 2) Respublika kitab mağazaları; 3) Kitab mübadiləsi; 4) Abunə; 5) KAA; 6) Elmi-tədqiqat institutları; 7) Hədiyyələr; 8) Ali Attestasiya Komissiyası; 9) Beynəlxalq kitab mübadiləsi və s.

Beləliklə, komplektləşdirmənin əhəmiyyəti təkcə formalaşma prosesinin praktiki müəyyənləşdirməkdə kifayətlənmir, ümumiyyətlə, bütün kitabxana fəaliyyətinin əsasını təşkil edir.

## ƏDƏBİYYAT

*1. Azərbaycan Respublikası prezidenti H.Əliyevin M.F.Axundov adına Milli Kitabxanada çıxışı// Azərbaycan qəzeti, 1999, 6 iyun.*

*2. “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanunu// Azərbaycan.- 1999.- 14 mart.*

*3. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik: 3 hissədə: h.1-2.- B.: BDU nəşriyyatı, 2001.- 398s.*

.

4. *Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında.- B.: Nurlar, 2007.*

5. *Həsənov M.M. Kitabxana fondunun yaranması, formalaşması və idarə edilməsi: Dərs vəsaiti.- B.: BDU nəşriyyatı, 2004.- 101 s.*

6. *M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının 1997-2009-cu il hesabatı.*

**Р.ХАМЗАЕВ**

**ИСТОЧНИКИ КОМПЛЕКТОВАНИЯ ПЕРВИЧНЫМИ ДОКУМЕНТАМИ НАЦИОНАЛЬНОЙ БИБЛИОТЕКИ ИМЕНИ М.Ф.АХУНДОВА**

**РЕЗЮМЕ**

В данной статье обращает внимание на некоторые источники комплектования Национальной Библиотеки имени М.Ф. Ахундова. Также делается попытка оценить распределение потоков, тематику, виды, экземплярность поступающих в библиотеку отечественных и иностранных документов в целях наиболее оптимального обслуживания пользователей и сохранности фонда.

**R.KHAMZAYEV**

**SOURCE OF PRIMARY DOCUMENTS OF THE NATIONAL LIBRARY NAMED AFTER M.F. AKHUNDOFF**

**RESUME**

This article draws attention to some of the sources of acquisition of the National Library named after M.F. Akhundoff. Also attempts to estimate the distribution of streams, themes, types, an instance coming to the Library of domestic and foreign documents to the best possible customer service and safety stock.

.



**Nadir İSMAYILOV**
*pedaqoji elmlər namizədi, dosent*
**İradə BAYRAMOVA**
*Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi*

# AZƏRBAYCAN RESPUBLİKASININ REGİONLARININ KİTABXANA-İNFORMASİYA RESURSLARININ İNKİŞAFININ BƏZİ MƏSƏLƏLƏRİ

## (Dağliq Şirvan İqtisadi Rayonunun nümunəsində)

***Açar sözlər:*** Kitabxana-informasiya təminatı, informasiya resursları, kitabxanaların kadr təminatının müasir vəziyyəti

***Ключевые слова:*** Библиотечно-информационных обеспечение, информационных ресурсов, современное состояние кадрового обеспечения библиотеки

***Keywords:*** Bibliographic-information provision, information resources, current status of staffing of the library

Müasir elmi-texniki tərəqqi dövründə, Azərbaycan Respublikasının tam müstəqillik əldə etdiyi bir şəraitdə kitabxanaların informasiya funksiyası daha böyük əhəmiyyət kəsb edir və bu "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda da öz real ifadəsini tapmışdır: "Kitabxana-elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur" (7,s.3-16 ).

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bir-birinin ardınca imzaladığı sərəncam və fərmanlar bir daha göstərir ki, ölkə başçısı kitabxana işinə dövlət qayğısını vacib sayır. 2004-cü ildən bu günədək ölkəmizdə kitabxana işi sahəsində uğurla aparılan möhtəşəm quruculuq işləri – "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" (2004), "Dünya

ədəbiyyatı və uşaq ədəbiyyatı kitabxanası seriyasından kitabların nəşri haqqında" (2005), "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" (2004), "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" (2007), "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq olunması haqqında" (2008) verilmiş silsilə sərəncamlar kitabxanalara xüsusi qayğının bariz nümunəsidir.

Respublikanın regionlarının iqtisadi və sosial inkişafını yüksəltmək və hər bir iqtisadi rayonun sosial-iqtisadi potensialından istifadəni sürətləndirmək üçün Respublikanın Prezidenti cənab İlham Əliyev 11 fevral 2004-cü ildə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" fərman imzalamışdır (1).

Proqramın uğurlu icrası nəticəsində regionlarda makroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə edilmiş, sosial-iqtisadi inkişaf sahəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi əhalinin həyat səviyyəsinin yüksəldilməsində mühüm rol oynamışdır .Regionların inkişafının daha da sürətləndirilməsi üçün dövlət qayğısı hər bir sahədə olduğu kimi, kitabxana- informasiya fəaliyyəti sahəsində də öz əksini tapmışdır. Odur ki,"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"çərçivəsində başlanmış işlərin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" hazırlanmışdır (2).

Proqramda regionların sosial-iqtisadi inkişafı ilə yanaşı, regionlarda yerləşən kitabxanaların inkişafı, kitabxana-informasiya tələbatının daha da yaxşılaşdırılması üçün qarşıya bir çox məsələlər qoyulmuş, dünyanın inkişaf edən ölkələri ilə inteqrasiya edən ölkəmizdə kitabxanaların gələcək perspektivləri diqqət mərkəzinə alınmışdır.

Azərbaycan Respublikasının Prezidenti 6 oktyabr 2008-ci il tarixində Azərbaycan Respublikasında kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması, elmi-mədəni sərvətlərdən hərtərəfli istifadə imkanlarının genişləndirilməsi, cəmiyyətin informasiya təminatının artırılması, eləcə də Azərbaycan kitabxanalarının dünya informasiya məkanına daxil olmasının təmin edilməsi məqsədi ilə "Azərbaycan

.

Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi barədə sərəncam imzalamışdır.

Azərbaycan kitabxana işi tarixində ilk dəfə olaraq öz məzmunu, əhatə dairəsi, konkretliyi, həyatiliyi ilə fərqlənən kitabxana işinin məqsəd və vəzifələrini, ümumaçıq olmasını, inkişaf istiqamətini, maddi-texniki bazasının möhkəmlənməsini, əhatəliyini, kitabxana xidmətinin plana uyğun elmi əsaslar üzərində qurulmasını, dövlət tərəfindən maliyyələşdirilməsini, görüləcək işlərin konkret icra tarixini dəqiq rəqəmlərlə göstərən bu sənəd mühüm əhəmiyyət kəsb edir. Bu sənədə “Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə tədbirlər planının əlavə edilməsi onun üstünlüyünü göstərən ən mühüm göstəricidir (6,S.383-384).

“Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”nda region kitabxanaları diqqət mərkəzində saxlanmış, Dövlət Proqramının həyata keçirilməsi üçün hazırlanmış Tədbirlər Planında sırf regionlarla bağlı bir sıra məsələlərin həlli qarşıya qoyulmuşdur. Onlardan “Kitabxana fondları regionun inkişafının əsas informasiya resursu kimi” mövzusunda dəyirmi masaların keçirilməsi, regionlardakı kitabxanalar arasında “Ən yaxşı ictimai internet mərkəzi”, ”Ən maraqlı veb sayt”mövzusunda Respublika müsabiqəsinin keçirilməsi, regionlarda kiçik və orta biznesin informasiyaya olan tələbatını ödəmək üçün MKS-lərin bazasında kitabxanaların mövcud ştat vahidləri çərçivəsində və ictimai əsaslarla informasiya mərkəzlərinin yaradılması və s. misal göstərmək olar (3,S. 6-29).

Azərbaycan Respublikasında 10 iqtisadi rayon var. Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Aran, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın, Dağlıq Şirvan, Naxçıvan Muxtar Respublikası.

Dağlıq Şirvan iqtisadi rayonunun ümumi sahəsi 6,06 min kv. km olub, respublika ərazisinin 7%-ni təşkil edir. Əsasən Şamaxı, İsmayıllı, Ağsu və Qobustan inzibati rayonları bu iqtisadi rayonun tərkibinə daxildir. İqtisadi rayonun əlverişli təbii şəraiti tarixən bu ərazidə əhalinin məskunlaşmasına səbəb olmuşdur. 2009-cu ilin əhalinin siyahıya alınmasının nəticələrinə görə Dağlıq Şirvan iqtisadi rayonunda 283,6 min nəfərin məskunlaşdığı qeydə alınıb. Əhalinin

orta sıxlığı hər kv. km-də 47 nəfərdir. Ümumi iqtisadi rayon üzrə əhalinin 94,5%-ni azərbaycanlılar təşkil edir. İnzibati rayonlar üzrə azərbaycanlılar Şamaxıda əhalinin 97,8%-ni, İsmayıllıda 84,8%-ni, Ağsuda 99%-ni, Qobustanda isə 99%-ni təşkil edir ( 9).

Regionların sosial-iqtisadi inkişafını daim diqqət mərkəzində saxlayan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2007-ci ilin oktyabrında Qobustan, 2009-cu ilin oktyabrında İsmayıllı və Ağsu, 2009-cu ilin noyabrında isə Şamaxı rayonlarına səfər etmişdir.

Dağlıq Şirvan iqtisadi rayonunda 43 məktəbəqədər təhsil müəssisəsi, 253 dövlət ümumtəhsil müəssisəsi, 2 orta ixtisas təhsil müəssisəsi, 2 ali məktəb (Dövlət Pedaqoji və "Odlar Yurdu" universitetlərinin Şamaxı filialları), eləcə də 127 klub, 10 muzey fəaliyyət göstərir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən 2009-cu ildə keçirilmiş "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələrinə görə Dağlıq Şirvan iqtisadi rayonunda cəmi 419 kitabxana fəaliyyət göstərir. Onlardan 53-ü şəhərdə, 366-sı kəndlərdə fəaliyyət göstərir. Ölkə kitabxanalarının təqribən 5%-i bu iqtisadi rayonun payına düşür. İqtisadi rayonda fəaliyyət göstərən kitabxanaların 183-ü (43,7%) Mədəniyyət və Turizm Nazirliyinin, 224-ü (53,4 %) ümumtəhsil məktəblərinin payına düşür (8, S.75-83).

Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan kitabxanalar dedikdə iqtisadi rayona daxil olan 4 rayonun Mərkəzləşdirilmiş Kitabxana Sistemləri nəzərdə tutulur. Bu iqtisadi rayonda statistik rəqəmlərdən də göründüyü kimi, ümumtəhsil məktəb kitabxanaları üstünlük təşkil edir. Təsadüfi deyil ki, gənc nəslin təlim-tərbiyəsi, elmi biliklərə yiyələnməsi üçün ümumtəhsil müəssisələrinin üzərinə çox böyük məsuliyyət düşür.

"Azərbaycan kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidenti 20 aprel 2007-ci ildə Sərəncam imzalamışdır (4). Bu sərəncamın yerinə yetirilməsi məqsədilə Təhsil Nazirliyi "2008-2013-cü illərdə məktəb kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsinə və müasir informasiya texnologiyaları ilə təchizatına dair Tədbirlər Planı"nı həyata keçirməyə, təhsilin günün tələbləri səviyyəsində inkişafı üçün ciddi işlər görməyə başlamışdır.

.

Dağlıq Şirvan iqtisadi rayonunda 253 ümumtəhsil müəssisəsində 39928 nəfər məktəbli təhsil alır. İqtisadi rayon üzrə cəmi 224 ümumtəhsil məktəbi kitabxanası məktəblilərin, eləcə də, məktəbin müəllim heyətinin informasiyalaşdırılmasına xidmət edir. İqtisadi rayona daxil olan hər bir inzibati rayon üzrə orta təhsil müəssisələrində oxuyanların sayını bilməklə, məktəblərdə yerləşən məktəb kitabxanalarında müəllim və şagirdlərdən ibarət böyük oxucu qruplarının olduğunu görə bilərik. Belə kitabxanaların maddi-texniki bazalarını inkişaf etdirməklə, elmin və texnikanın nailiyyətlərindən istifadə edərək, kitabxanaların fondunu daha da zənginləşdirib oxucu auditoriyasını genişləndirmək olar.

Dağlıq Şirvan iqtisadi rayonunda mövcud olan 419 kitabxanadan 119 kitabxana Ağsu rayonunda, 126 kitabxana İsmayıllı rayonunda, 52 kitabxana Qobustan rayonunda, 122 kitabxana Şamaxı rayonunda əhalinin informasiya təminatını həyata keçirir (8, S.23-41).

Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri kimi məşhur olan Dağlıq Şirvan regionu kitabxanaların informasiya resurslarının zənginliyi və özünəməxsus xüsusiyyətləri ilə də fərqlənir. Belə ki, regionun kitabxana resursları ölkənin kitabxanalarının informasiya resurslarının 2,4 %-ni təşkil edir. Bölgənin informasiya resursları 2,6 milyon nüsxəyə yaxındır. Bu resursların 98,8%-ni kitablar, 19,6%-nı elektron informasiya daşıyıcıları, 0,3%-ni jurnallar, 0,4%-ni qəzetlər, 0,5 %-ni isə digər informasiya daşıyıcıları təşkil edir (8,S. 44-66).

Təhlillər göstərir ki, ölkə üzrə əsas informasiya daşıyıcısı kimi kitabların xüsusi çəkisi 80,5%-dir. 19,5% isə digər daşıyıcıların payına düşür. Lakin öyrənilən iqtisadi rayonda bu rəqəm 98,8% təşkil edir ki, bu da ölkə üzrə ən yüksək göstəricidir. Bu fakt bölgədə mütəxəssislərin digər operativ informasiya mənbələri təminatı sisteminin zəif inkişafını göstərən amillərdən biri kimi diqqəti cəlb edir.

Regionun inzibati rayonları üzrə kitabxanaların informasiya resursları aşağıdakı kimi yerləşmişdir:

İsmayıllı rayonu – 811891 nüsxə
Şamaxı rayonu – 748761 nüsxə
Ağsu rayonu – 634603 nüsxə
Qobustan rayonu – 359508 nüsxə

.

Regionun kitabxanalarının informasiya resurslarının şəhər və kənd yaşayış məntəqələri üzrə bölgüsü aşağıdakı kimidir:

1.Ağsu rayonu üzrə şəhər yerlərində 35,3%, kənd yerlərində 64,7%

2.Şamaxı rayonu üzrə şəhər yerlərində 31%, kənd yerlərində 69%

3.İsmayıllı rayonu üzrə şəhər yerlərində 30,1%, kənd yerlərində 69,9%

4.Qobustan rayonu üzrə şəhər yerlərində 24,4%, kənd yerlərində isə 76,6%

Bütövlükdə regionun şəhər yerlərində yerləşmiş kitabxanaların informasiya resursları ölkə şəhərlərinin informasiya resurslarının 10%-ni, kənd yaşayış məntəqələri üzrə isə 5,8%-ni təşkil edir. İqtisadi regionda fəaliyyətdə olan bütün kitabxanalarda cəmi 30 kompüter vardır ki, onun da 14-ü istifadəçilər üçün, 16-sı kitabxana işçiləri üçündür. Cəmi bir kompüterin internetə çıxışı var (8,S. 75-83).

Dağlıq Şirvan iqtisadi rayonu kitabxanaçı-biblioqraf kadrlarla təminat səviyyəsinə görə də fərqlənir. İqtisadi rayonun şəhər, qəsəbə və kəndlərində 338 kitabxana mütəxəssisi fəaliyyət göstərir. Bu mütəxəssislərin cəmi 11 nəfəri ali ixtisas təhsilli, 22 nəfəri ali qeyri-ixtisas təhsilli, 69 nəfəri orta ixtisas təhsilli, 64 nəfəri orta qeyri-ixtisas təhsilli, 172 nəfəri isə ümumi orta təhsilli kadrlardan ibarətdir.

İqtisadi rayona daxil olan 4 inzibati rayonun hər birinin kitabxana- informasiya şəbəkələrini ayrıca nəzərdən keçirək: İqtisadi rayonun əsas bölgələrindən biri olan Ağsu rayonu 8 oktyabr 1943-cü ildə təşkil edilmişdir. Rayonda 1 şəhər (Ağsu şəhəri), 78 kənd vardır. Bu yaşayış məntəqələri 24 ərazi icra nümayəndəliyini və 60 bələdiyyəni əhatə edir. 2010-cu il yanvarın 1-nə olan göstəriciyə görə iqtisadi rayonun əhalisi 70,7 min nəfərdir. Əhalinin sıxlığı hər kv km-də 69 nəfərdir. Əhalinin 25,7%-i şəhərdə, 74,3%-i kənd yaşayış məntəqələrində yaşayır. Milli etnik mənsubiyyətinə görə əhalinin 99%-i azərbaycanlılardan, 1%-i ləzgilərdən, türklərdən və s. ibarətdir. Ağsu rayonunda 70 ümumtəhsil məktəb, 5 məktəbdənkənar və 6 məktəbəqədər müəssisə var. Həmçinin, 1 mədəniyyət sarayı, 10 mədəniyyət evi, 30 klub müəssisəsi, 47 kitabxana, 1 uşaq musiqi məktəbi və tarix-diyarşünaslıq muzeyi vardır (15).

Rayonda 11-i ölkə və 13-ü isə yerli əhəmiyyətli olmaqla, 24 tarixi mədəniyyət abidəsi var. Əhalinin elm, təhsil, mədəni səviyyəsinin yüksəldilməsində iqtisadi rayon daxilində fəaliyyət göstərən kitabxanalar mühüm əhəmiyyət kəsb edir. Belə ki, Ağsu rayonunda cəmi 119 kitabxana oxuculara biblioqrafik informasiya xidməti göstərir. Bu kitabxanalardan 10-u şəhər yaşayış mərkəzlərində, 109-u isə kənd yaşayış məntəqələrində fəaliyyət göstərir. Kitabxanalardan 47-si Mədəniyyət və Turizm Nazirliyinin, 70-i ümumtəhsil müəssisələrinin, 1-i musiqi məktəbinin, 1-i isə səhiyyə müəssisəsinin nəzdində fəaliyyət göstərir. Rayonun cəmi informasiya resursları 634603 nüsxədir. Kitabxana resurslarının 99,1%-ni kitablar, 0,3%-ni jurnallar, 0,3%-ni qəzetlər, 0,3 %-ni digər materiallar təşkil edir. Rayon kitabxanalarının kompüterlə təminatı qənaətbəxş deyil. Rayon üzrə kitabxanalarda cəmi 4 kompüter vardır ki, bunun 1-i istifadəçilər üçün, 3-ü kitabxana işçiləri üçün nəzərdə tutulmuşdur (8,S. 44-66)

Rayon kitabxanalarında cəmi 81 nəfər mütəxəssis fəaliyyət göstərir. Onlardan 2 nəfər kitabxana üzrə ali ixtisas, 2 nəfər ali qeyri-ixtisas, 12 nəfər orta ixtisas, 20 nəfər orta qeyri-ixtisas təhsilli, 45 nəfər isə ümumi orta təhsilli kadrlardır.

Ağsu rayonunda Təhsil Nazirliyinə tabe olan məktəb kitabxanalarının xüsusi çəkisi Mədəniyyət və Turizm Nazirliyinə tabe olan kütləvi kitabxanalardan çoxdur. Belə ki, rayonda 70 ümumtəhsil məktəbi vardır. Bu məktəblərin hamısında kitabxana fəaliyyət göstərir. Rayon üzrə ümumtəhsil məktəblərində 9687 nəfər sagird təhsil alır ki, onlar həm də rayonun məktəb kitabxanalarından istifadə edən oxucular deməkdir (5).

Ağsu rayonunda əhalinin biblioqrafik informasiya təminatının ödənilməsində Ağsu rayon MKS-in xüsusi rolu vardır. MKS-də kitabxana işi təşkil olunarkən kitab təbliği, oxucu marağının öyrənilməsi və artırılması daim diqqət mərkəzində saxlanılır. Bununla belə, dövlət siyasətinin və milli-mənəvi dəyərlərimizin təbliği əsas amil kimi kitabxana işinin ayrılmaz tərkib hissəsidir.Ağsu rayon MKS-i 1979-cu ildə yaradılmışdır. MKS-də 1 Mərkəzi Uşaq, 2 şəhər, 43 kənd kitabxana filialı fəaliyyət göstərir.

Ağsu rayon MKS-nin əsas kitabxanası Mərkəzi Kitabxana hesab olunur. Ağsu rayon Mərkəzi Kitabxanası 1943-cü ildə yaranmış və

qəsəbə kitabxanası kimi fəaliyyətə başlamışdır. 1979-cu ildə Mərkəzi kitabxanaya Əhməd Cavadın adı verilmişdir. Kitabxananın 20 nəfərlik oxu zalı və 15 nəfər işçisi vardır. Mərkəzi Kitabxanada 3 kompüter var. 2009-cu ildə Mərkəzi kitabxana Azərbaycan Respublikasının Prezidentinin 12 yanvar 2004-cü il tarixli "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı ilə 276 nüsxə kitab almışdır. Bununla da Mərkəzi kitabxananın kitab fondu 29432 nüsxəyə çatmışdır. Əhalinin kitabxanaya cəlb olunması 9,2%-dir. Mərkəzi kitabxananın ümumi kitab fondundan 5904 nüsxəsi latın qrafikalı ədəbiyyatdır. MKS üzrə fondun ümumi həcmi 247633 nüsxədir. Fondun ümumi sayında latın qrafikalı ədəbiyyat 48684 nüsxədir. MKS-nin ümumi kitab fondundan 218201 nüsxəsi kitabxana filiallarının payına düşür. 2009-cu ildə MKS-ə ümumilikdə 1725 nüsxə ədəbiyyat daxil olmuşdur. Yeni daxil olan ədəbiyyatların 1449 nüsxəsi kitabxana filiallarına verilmişdir. MKS-də oxucuların sayı 2008-ci ildəki 16560 nəfərdən 2009-cu ildə 16815 nəfərə çatmışdır ki, bunun da 14817 nəfəri kitabxana filiallarının hesabınadır. 2009-cu il üçün olan oxucuların tərkibinin təhlili göstərir ki, 395 qulluqçu, 530 mütəxəssis, 826 müəllim, 160 həkim, 125 mühəndis, 1983 fəhlə, 10974 tələbə və şagird, 269 təqaüdçü, 553 digər oxucu qrupu MKS-ə müraciət etmişdir. MKS-in oxucularının ümumi sayı içərisində tələbə və şagird kontingentinin xüsusi çəkiyə malik olması onu göstərir ki, MKS tələbə və şagirdlərin biblioqrafik informasiya təminatını daha yaxşı ödəmək imkanına malikdir. 2009-cu ildə Ağsu rayon Mərkəzi kitabxanasında "Uşaq hüququ" İnformasiya Mərkəzi yaradılmış, Mərkəzə 1 ədəd kompüter bağışlanmışdır. Hazırda Ağsu rayon MKS-nin veb- saytı internet istifadəçilərinin ixtiyarına verilib. Rayon MKS-i üzrə kitabxana işçilərinin ümumi sayı 63 nəfərdir. MKS-də 1 ali ixtisas, 1 ali qeyri-ixtisas, 9 orta ixtisas və 52 orta təhsilli kadr çalışır (11).

Dağlıq Şirvan iqtisadi regionuna daxil olan digər inzibati rayon İsmayıllı rayonudur. İsmayıllı rayonu inzibati rayon кimi 1931-ci ilin noyabr ayında təşкil olunmuşdur. Sahəsi 2,06 min kv. кm, əhalisi 79,9 min nəfərdir. Əhalinin 17,4 min nəfəri şəhərdə, 62,4 min nəfəri isə kənd yaşayış məntəqələrində məskunlaşmışdır. Rayonda azərbaycanlılara bərabər digər xalqların və etnik qrupların nümayəndələri də yaşayır: ləzgilər, ruslar, yəhudilər, lahıclar, qədim albanların nəslindən

olan hapıtlar. Əhalinin 84,4 %-i azərbaycanlılardan, 15,2%-i ləzgilərdən, ruslardan və digər xalqların nümayəndələrindən ibarətdir (9).

Hazırda rayonda 81 ümumtəhsil məktəbi, 1 texniki peşə məktəbi, 1 incəsənət məktəbi, 10 məktəbəqədər uşaq müəssisəsi fəaliyyət göstərir. Həmçinin, rayon əhalisinə 60 kitabxana xidmət edir.

Ötən illər ərzində İsmayıllıda başlıca diqqət, respublika prezidentinin imzaladığı "Azərbaycan Respublikası regionlarının, o cümlədən, Qəbələ, İsmayıllı, Oğuz və Şamaxı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirdər haqqında" 25 avqust 2005-ci il tarixli sərəncamlarından irəli gələn vəzifələrin yerinə yetirilməsinə yönəldilmişdir. Dövlət Proqramının qarşıya qoyduğu vəzifələrin həll edilməsi baxımından, Mərkəzi Kitabxananın, Uşaq kitabxanasının dam örtüyünün dəyişdirilməsi, fasadlarının təmir olunması, istilik və elektrik sistemlərinin yenidən qurulması diqqəti çəkir (16).

İsmayıllı rayonunda cəmi 126 kitabxana var. Onlardan 14-ü şəhərdə, 112-si kənd yaşayış məntəqələrində yerləşir. 60 kitabxana Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində,1 kitabxana ilk peşə ixtisas təhsili müəssisəsində, 63 kitabxana ümumtəhsil məktəblərində, 1 kitabxana musiqi məktəbində, 1 kitabxana səhiyyə müəssisəsində fəaliyyət göstərir. Rayonda Mədəniyyət və Turizm Nazirliyinə tabe olan kütləvi kitabxanaların sayı ilə Təhsil Nazirliyinə tabe olan məktəb kitabxanalarının sayı, demək olar ki, eynilik təşkil edir. Rayon üzrə 81 ümumtəhsil məktəbində 63 kitabxana vardır ki, bu kitabxanaların informasiya xidmətindən 12778 nəfər məktəb yaşlı oxucu istifadə edir. Rayon kitabxanalarında 7 ədəd kompüter var. Onlardan 5-i şəhər kitabxanalarında, 2-si kənd kitabxanalarında yerləşir. Rayon kitabxanalarının informasiya resursları cəmi 811891 nüsxə təşkil edir ki, bu da Dağlıq Şirvan iqtisadi rayonuna daxil olan inzibati rayonlar arasında ən yüksək göstəricidir. Fondun 98,7%-ni kitablar, 0,2%-ni jurnallar, 0,4%-i qəzetlər, 0,7%-ni digər materiallar təşkil edir (8,S.44-66).

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2009-cu ildə apardığı statistik müayinələr zamanı, ümumiyyətlə, İsmayıllı rayonunda kitabxanalarda işləyən mütəxəssislərin 98 nəfər olduğu məlum olmuşdur. Bu işçilərin 6 nəfərinin ali ixtisas təhsilli, 11 nəfərinin ali qeyri-ixtisas təhsilli, 19 nəfərinin orta ixtisas təhsilli, 15

nəfərinin orta qeyri-ixtisas təhsilli, 47 nəfərinin ümumi orta təhsilli mütəxəssis olduğu bildirilir.

İsmayıllı rayonu kitabxana şəbəkələri içərisində İsmayıllı MKS-nin xüsusi yeri vardır. Rayon MKS 59 filialı özündə birləşdirir. MKS-ə 2009-cu ildə 2443 nüsxə yeni ədəbiyyat daxil olmuşdur. Daxil olan ədəbiyyatlardan 2395 nüsxə latın qrafikalı ədəbiyyat, 48 nüsxə isə rus və xarici dildə olmuşdur. Hazırda MKS üzrə kitabxanalarda 466244 nüsxə ədəbiyyat vardır ki, bu ədəbiyyatlardan 68541 nüsxəsi latın qrafikalı ədəbiyyatlardır. Rayon üzrə hər oxucuya 17,5 nüsxə ədəbiyyat düşür. Rayon MKS üzrə cəmi kitab verilişi 564588 nüsxə olmuşdur, bu da 2008-ci ilə görə 13176 nüxsə azdır. 2009-cu ildə oxucuların cəmi sayı 27920 nəfər olmuşdur. Bu da 2008-ci il üzrə göstəricidən 167 nəfər çoxdur. 2009-cu ildə gəlişlərin sayı 558405 olmuşdur (12).

MKS və onun filiallarında oxucuları kitabxanalara cəlb etmək və əhalinin elmi dünyagörüşünü formalaşdırmaq, gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmək, onlara mütaliə mədəniyyətini aşılamaq məqsədilə müxtəlif səpkili işlər görülür. MKS-də texniki işçilər istisna olmaqla, 82 nəfər kitabxanaçı mütəxəssis var. Onların 10 nəfəri ali ixtisas təhsilli, 4 nəfəri ali qeyri-ixtisas təhsilli, 23 nəfər orta- ixtisas təhsilli, 5 nəfəri orta qeyri- ixtisas təhsilli, 40 nəfəri ümumi orta təhsillidir.

Dağlıq Şirvan iqtiadi rayonuna daxil olan daha bir rayon Qobustan rayonudur. Rayonun ərazisi 1,37 kv.km, əhalisi 40,5 min nəfərdir. Əhalinin 20,3%-i şəhərdə, 79,7%-i kənd yaşayış məntəqələrində yaşayır. Rayonda 30 ümumtəhsil məktəb, 5 məktəbəqədər uşaq müəssisəsi, 24 kitabxana var. 2009-cu il üçün olan statistikaya görə, Qobustanda fəaliyyət göstərən 30 ümumtəhsil məktəbində 5373 nəfər şagird təhsil alır. Rayonda 2003-2009-cu illərdə 1500 şagird yerlik 7 məktəb binası və 10 əlavə sinif otağı tikilib istifadəyə verilmişdir (17).

Rayon Mədəniyyət və Turizm şöbəsinin tabeliyində 1 Uşaq İncəsənət məktəbi, 1 Uşaq Musiqi məktəbi, 1 Rayon Mədəniyyət evi, 3 kənd Mədəniyyət evi, 17 kənd klubu, 1 Mərkəzi Kitabxana, 22 kitabxana filialı, 1 Uşaq kitabxanası var.

Ölkəmizi əhatə edən abadlıq-quruculuq işləri, insanların sosial rifah halının yaxşılaşdırılması tədbirləri Qobustanda da öz normal

ahəngi ilə həyata keçirilir. 2008-ci ildə prezidentin sərəncamı ilə Qobustan şəhər statusu almışdır.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 2009-cu ildə apardığı statistik hesablamalar zamanı müəyyən olunmuşdur ki, Qobustan rayonunda cəmi 52 kitabxana oxucuların biblioqrafik informasiya təminatını həyata keçirir. Onların 7-si şəhərdə, 45-i isə kənd yaşayış məntəqələrində yerləşir.Bu kitabxanalardan 24-ü Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində, 26-sı isə ümumtəhsil məktəblərində fəaliyyət göstərir. Rayon kitabxanalarının cəmi 359508 nüsxə informasiya resursu var. İnformasiya resursunun 354761 nüsxəsi (98,7%) kitablar, 2856 nüsxəsi (0,8%) jurnallar, 1387 nüsxəsi (0,4%) qəzetlər, 440 nüsxəsi (0,1%) digər materiallardır. Kitabxanalarda 7 kompüter var. Kitabxana mütəxəssislərinin sayı 59 nəfərdir. Onlardan 2 nəfəri ali qeyri-ixtisas təhsilli, 14 nəfəri orta ixtisas təhsilli, 10 nəfəri orta qeyri-ixtisas təhsilli, 33 nəfəri isə ümumi orta təhsillidir (8,S.75-83).

Qobustan rayonunda oxucuların biblioqrafik informasiya təminatının ödənilməsində bilavasitə əsas rolu Qobustan MKS-i tutur. 1 Mərkəzi Kitabxananı və 23 kitabxana filialını birləşdirən Qobustan rayon MKS, 1991-ci ildə yaradılmışdır. Rayon MKS-nin informasiya resursunun ümumi həcmi 234722 nüsxədir. Ümumilikdə isə MKS-nin informasiya resursunun 31109 nüsxəsini latın qrafikalı ədəbiyyat təşkil edir. Təkcə 2009-cu ildə Qobustan rayon MKS-nin fonduna 2694 nüsxə kitab daxil olmuşdur. MKS üzrə oxucuların ümumi sayı 16846 nəfər olmuşdur. Oxucu kontingentinin tərkibinə görə tələbə və şagirdlərin üstünlük təşkil etməsi məlum olur. MKS-nin Mərkəzi kitabxanası və kitabxana filiallarının fondundan məzmunca əhəmiyyətini itirmiş, fiziki cəhətdən köhnəlmiş və yararsız hala düşmüş çap məhsulları seçilərək, 19618 nüsxəsi istifadədən çıxarılmışdır. MKS-də 6 kompüter var. 2009-cu ildə istifadəçilərin sayı 4230 nəfər olmuşdur.

Qobustan rayon MKS-nin veb-saytı yaradılmışdır. Veb-saytda kitabxanaların fəaliyyəti, keçirdikləri kütləvi tədbirlər, Mərkəzi Kitabxanada fəaliyyət göstərən İnformasiya Resurs Mərkəzi, həmçinin, Qobustan rayonunun əhalisi, coğrafi relyefi, iqtisadi inkişafı, flora və faunası, tarixi abidələri, ziyarətgahları, ziyalıları, tanınmış

şəxsiyyətləri, şəhidləri və s. haqda məlumatlar geniş şəkildə əks olunmuşdur.

Qobustan rayon MKS-də 50 nəfər kitabxana mütəxəssisi çalışır. Onlardan 1 nəfər ali ixtisas təhsilli, 2 nəfər ali qeyri-ixtisas təhsilli, 8 nəfər orta ixtisas təhsilli, 2 nəfər orta qeyri-ixtisas təhsilli, 37 nəfər ümumi orta təhsillidir (13).

Dağlıq Şirvan iqtisadi regionuna daxil əsas bölgələrdən biri də Şamaxı rayonudur. Sahəsi 1,61 kv.km, əhalisi 92,5 min nəfərdir. Respublika paytaxtından 135 kilometr məsafədə yerləşən Şamaxı Azərbaycanın ən qədim tarixə malik şəhərlərindən biridir və keçən əsrin 30-cu illərindən sonra rayon kimi fəaliyyət göstərmişdir.

Hazırda rayonda 72 ümumtəhsil məktəb, 23 məktəbəqədər tərbiyə müəssisəsi, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı, Şamaxı Mədəni-Maarif Texnikumu, İqtisad kolleci, AMEA-nın Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanası və Şamaxı Geofizika Mərkəzi, 52 kütləvi kitabxana və s. fəaliyyət göstərir. Təhsil müəssisələrində 1849 nəfər müəllim və 14526 nəfər şagird var.

Şamaxı tarixən elmə, təhsilə olan marağı ilə, yetişdirdiyi böyük alim və görkəmli şəxsiyyətləri ilə daim seçilmişdir. Məhz şəhər ziyalılarının böyük zəhməti və səyi nəticəsində 1859-cu il sentyabrın 15-də Şamaxı şəhərində camaat üçün ilk kitabxana açılmışdır. 1905-ci il inqilabından sonra Şirvan qəzasının Şamaxı şəhərində bir çox maarifpərvər ziyalılar tərəfindən qiraətxana-kitabxana təsis edilmişdir. Bu kitabxana–qiraətxana 1918-ci ilin mart ayına qədər fəaliyyət göstərmişdir. Həmin ildə Azərbaycanda baş verən vətəndaş müharibəsi zamanı Şamaxı şəhəri yandırılıb talan edilərkən onun kitabxanası da yanmışdır. 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra kitabxana yenidən bərpa olunmuşdur. İndi bu kitabxana Şamaxı şəhərinin mərkəzində tikilmiş xüsusi binada yerləşir (18).

Statistik müayinə zamanı müəyyən olunmuşdur ki, Şamaxı rayonunda əhaliyə kitabxana-informasiya təminatını hazırda 122 kitabxana müəssisəsi həyata keçirir. Bu kitabxanalardan 18%-i şəhərdə, 82%-i kənd yaşayış məntəqələrində yerləşir. Kitabxanaların 52-si Mədəniyyət və Turizm Nazirliyinin, 1-i ali təhsil müəssisəsinin, 2-si orta ixtisas təhsili müəssisəsinin, 1-i ilk peşə ixtisas təhsili

müəssisəsinin, 65-i ümumtəhsil müəssisələrinin, 1-i səhiyyə müəssisəsinin nəzdində yerləşir. Rayon üzrə 72 ümumtəhsil məktəbində 65 kitabxana vardır ki, bu kitabxanaların xidmətindən 12088 nəfər şagird istifadə edir.

Şamaxı rayonunda fəaliyyət göstərən kitabxanalardan danışarkən N.Tusi adına Şamaxı Astrofizika rəsədxanasının nəzdində fəaliyyət göstərən kitabxanadan danışmamaq olmaz. Kitabxananın informasiya resursları respublikamızda və xaricdə nəşr olunmuş 39731 nüsxə ədəbiyyatdan ibarətdir (10).

Rayon kitabxanalarının ümumi informasiya resurslarının həcmi 749761 nüsxədir. Fondun 31%-i şəhərdə, 69%-i kənd yaşayış məntəqələrində yerləşməklə, 98,9%-ni kitablar, 0,2%-ni jurnallar, 0,4%-ni qəzetlər, 0,5%-ni digər informasiya daşıyıcıları təşkil edir. Kitabxanalarda 12 kompüter var ki, bu da regiona daxil olan 4 inzibati rayon arasında ən yüksək göstəricidir. Rayon kitabxanalarında elektron kataloq və elektron poçt var.

Şamaxı rayonunun kitabxanalarında 100 nəfər mütəxəssis çalışır. Onlardan 3 nəfəri ali ixtisas təhsilli, 7 nəfəri ali qeyri-ixtisas təhsilli, 24 nəfəri orta ixtisas təhsilli, 19 nəfəri orta qeyri-ixtisas təhsilli, 47 nəfəri isə ümumi orta təhsilli kadrlardır (8,S.75-83)

Dağlıq Şirvan iqtisadi rayonunun informasiya arealında mühüm yer tutan Şamaxı rayon MKS-nin 52 filialı var. Buraya 1 Mərkəzi, 1 Uşaq, 3 şəhər və qəsəbə, 47 kənd kitabxanası daxildir. MKS-nin informasiya resursunun ümumi həcmi 433 min nüsxədir. Fondun əsas hissəsi-380 mini Azərbaycan dilində olan ədəbiyyatdır. Azərbaycan dilində olan ədəbiyyatın 322 mini kiril, 58 mini isə latın qrafikalıdır. 2009-cu ildə MKS-nin fonduna 4993 nüsxə ədəbiyyat daxil olmuşdur. 2009-cu ildə oxucuların sayı 33,4 min nəfər olmuşdur. Onlara il ərzində 716,2 min nüsxə kitab verilmişdir. Rayon əhalisinin 39%-i kitabxanaların xidmətindən istifadə edir. Kitabxana mütəxəssislərinin sayı 90 nəfərdir. Onların 7 nəfəri ali ixtisas təhsilli, 1 nəfəri ali qeyri-ixtisas təhsilli, 36 nəfəri orta ixtisas təhsilli, 8 nəfəri orta qeyri ixtisas təhsilli, 38 nəfəri ümumi orta təhsillidir (14).

Şamaxı rayon Mərkəzi Kitabxanasında kitabxana-informasiya mərkəzi fəaliyyət göstərir. Kitabxanada 10 kompüter var. Mərkəzi kitabxana Mədəniyyət və Turizm Nazirliyinin vəsaiti hesabına alınan İRBİS-64 avtomatlaşdırılmış elektron kataloqla işləyir. MKS-nin veb-

saytı yaradılmış və oxucuların istifadəsinə verilmişdir. Bu günə kimi 50 min nüsxədən artıq kitab elektron kataloqa daxil edilmişdir. Bu sahədə işlər hələ də davam etdirilir. Veb-saytda Şamaxı rayonunun tarixi, turizm gözəllikləri, şəxsiyyətləri, astrofizika rəsədxanası, soyqırım haqqında ətraflı məlumat verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar Mədəniyyət və Turizm Nazirliyinin tədbirlər Planına uyğun olaraq Mərkəzi Kitabxanada "Uşaq hüququ" İnformasiya Mərkəzi yaradılmışdır. Mərkəz Kompüter Resursları mərkəzinin informasiya texnologiyaları əsasında yaradılmışdır (19).

Ümumiyyətlə, Dağlıq Şirvan iqtisadi rayonunun sosial-iqtisadi inkişafı ilə paralel olaraq, kitabxana infrastrukturunun inkişafına da çox önəm verilir. İqtisadi rayonun tərkibinə daxil olan bütün inzibati rayonların MKS-nin hər biri hər il orta hesabla 2000-dən artıq yeni ədəbiyyatla təmin olunur. Kitabxanalara gəliş, oxucuların sayı, kitab verilişi və s. göstəricilər əhalinin informasiya təminatının ödənilməsində müsbət dəyişikliklərin olmasından xəbər verir. Regiona daxil olan Ağsu, Qobustan və Şamaxı rayonlarının MKS-də müasir informasiya texnologiyalarının, veb-saytın olması, Regional Kitabxana İnformasiya Mərkəzlərinin fəaliyyəti iqtisadi rayonun kitabxana-informasiya sahəsinin inkişafında mühüm əhəmiyyət daşıyır.

Lakin bu sahədə qüsurlar da var. Belə ki, kitabxanaların yüksək ixtisaslı kadrlarla təminatı, eyni zamanda, qəza vəziyyətində olub, əsaslı təmirə ehtiyacı olan kitabxana binalarının təmir olunması gələcəkdə, Dövlət Proqramı çərçivəsində həlli vacib olan məsələlər sırasındadır.

Bütün bu çatışmazlıqlara baxmayaraq, Dağlıq Şirvan iqtisadi rayonunda kitabxana-informasiya təminatını həyata keçirən kitabxanalar, onların fondunun daha da zənginləşdirilməsi, region əhalisinin mədəni-elmi potensialının artırılmasında və gənclərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayırlar.

.

## ƏDƏBİYYAT


1. *«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı (2004- 2008-ci illər)» // Azərbaycan.- 2004.-11 fevral.*
2. *«Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»-B.: Nurlar, 2009.-184 s.*
3. *«Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı» // Kitabxana-şünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal.-2008.-№ 2.-S.6-29.*
4. *«Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı //Azərbaycan.-2007.-21 aprel.*
5. *«Azərbaycanın statistik göstəriciləri -2009».-B.-Səda, 2009.-772 s.*
6. *Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik (3 hissədə).-H.3.-B., 2010 .- 431s.*
7. *«Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu// Kitabxanaşünaslıq və biblioqrafiya-1999.- №1.-S.3-16.*
8. *«Kitabxanaların fəaliyyəti haqqında» statistik müayinənin nəticələri barədə Statistik bülleten. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.-B.-2009.-88 s.*
9. *Məmmədov Z.S. Regionların iqtisadi inkişaf problemləri.-B.: Elm, 2007.-465s.*
10. *Cəfərli R. Dağlıq Şirvan iqtisadi rayonu // Azərbaycan .- 2009.- 9 aprel.*
11. *Ağsu rayon MKS-nin 2009-cu il hesabatı.*
12. *İsmayıllı rayon MKS-nin 2009-cu il hesabatı.*
13. *Qobustan rayon MKS-nin 2009-cu il hesabatı.*
14. *Şamaxı rayon MKS-nin 2009-cu il hesabatı.*
15. *www.agsumks.webs.com*
16. *www. ismayilli-ih.gov.az*
17. *www.qobustan-ih.gov.az*
18. *www.shamaxi-mks.az*
19. *www.medgis.az*

.

**Н. И. ИСМАИЛОВ**
**И.З. БАЙРАМОВА**

## НЕКОТОРЫЕ ВОПРОСЫ РАЗВИТИЕ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫХ РЕСУРСОВ В РЕГИОНАХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (В ПРИМЕРЕ ЭКОНОМИЧЕСКОГО РАЙОНА НАГОРНЫЙ ШИРВАН )

### РЕЗЮМЕ

В статье анализируются современное состояние размищения библиотечно-информационных ресурсов в регионах Азербайджанской Республики (на примере нагорный ширван экономического района), а также проявление заботы государства в этой области, о роле библиотек в повышение интеллектуально-культурного развития уровнья населения.

**N.I. ISMAILOB**
**I. Z. BAYRAMOVA**

## SOME PROBLEMS OF DEVELOPMENT OF LIBRARY-INFORMATION RESOURCES OF REGIONS OF AZERBAIJAN REPUBLIC ( ON A MODEL OF DAGLIG SHIRVAN REGION)

### SUMMARY

In this article analyses the situation of location of library-information resourses in the regions of Azerbaijan Republic (especially in Daglig Shirvan Economical region). At the some trine in this spector deals with the increasing of libraries because of development of peoples intellectual-cultural level the reflection of states care to it.

Qəmzə HACIYEVA
*Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi*

# MÜASİR DÖVRDƏ ÖLKƏŞÜNASLIQ BİBLİOQRAFİYASININ TƏŞKİLİ

***Açar sözlər:*** Diyarşünaslıq biblioqrafiyası, informasiya təminatı, biblioqrafik vəsaitlər, milli kitabxana, məlumat biblioqrafiya bazası

***Ключевые слова***: крайведческая библиография, информационное обеспечение, библиографические указателя, национальная библиотека, информационный-библиографическая база

***Keywords:*** local history bibliography, information support, bibliographies, National library, information bibliographic database

Müasir dövrdə informasiya mühüm əhəmiyyət kəsb edərək cəmiyyətin inkişafında əsas strateji resursa çevrilir. Bu sahədə xüsusi müəssisələr formalaşmışdır ki, belə mühüm sosial institutlardan biri informasiya resurslarının formalaşmasını və cəmiyyətdə istifadəsini təmin edən kitabxanalardır. 29 dekabr 1998-ci ildə qəbul edilmiş "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda qeyd olunur ki, kitabxana elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur.

Müstəqil dövlət quruculuğu şəraitində Azərbaycançılıq ideyasının mühüm, aparıcı ideya olduğunu diqqət mərkəzində saxlayan kitabxanaların da üzərinə bu sahədə ciddi vəzifələr düşür. Qanunun "Kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsipləri və dövlətin vəzifələri" adlanan üçüncü maddəsində qeyd olunur ki, xarici ölkə kitabxanalarında saxlanan, milli sərvət hesab olunan nadir kitabların və əlyazmaların (imkan olmadıqda surətlərinin) Azərbaycan respublikasına qaytarılması təmin olunsun, eyni zamanda respublikanın dövlət kitabxana fondundan (maddə 13) bəhs edilərkən kitabxanalarda olan nadir və qiymətli nəşrlərin, xüsusi kolleksiyaların qanunvericilikdə müəyyən olumuş qaydada Azərbaycan Respub-

.

likasının milli mədəni sərvətlər reyestrinə daxil olması və xüsusi rejimdə mühafizə edilməsi göstərilmişdir.

Xalqımızın keçmişi, bu günü, gələcəyi ilə bağlı belə ədəbiyyatın qorunub saxlanması, bu haqda müvafiq biblioqrafik informasiyanın hazırlanıb tələbatçılara çatdırılması ölkəşünaslıq biblioqrafiyasının da qarşısında duran mühüm vəzifələrdəndir. Qlobal informasiya cəmiyyətinin yarandığı indiki dövrdə elmin biliklərin cəmiyyətin bütün fəaliyyət sahələrinə çatdırılmasında biblioqrafik resursların, bu resurslardan səmərəli istifadənin təşkilinin böyük əhəmiyyəti vardır.

Müasir informasiyalaşdırılmış cəmiyyətin tələblərinə cavab verən keyfiyyətli və operativ informasiya resurslarının formalaşması kitabxanaların mühüm strateji vəzifəsinə çevrilmişdir.

Bütün bunlar respublikamızda ölkəşünaslıq və diyarşünaslıq biblioqrafiyasının inkişafına öz təsirini göstərməklə, onun yeni istiqamətdə təşkili üçün də əsaslı şərait yaratmış olur. "Azərbaycan Respublikası regionlarının sosial iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008-ci illər və 2009-2013-cü illər üçün), "Bakı şəhərinin qəsəbələrinin sosial iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər proqramı" bilavasitə diyarşünaslığın, ayrı-ayrı regionlarda iqtisadiyyatın inkişafını sürətləndirən amilləri, bununla bağlı dövlət siyasətinin və dövlət dəstəyinin əsas istiqamətlərinin müəyyənləşdirilməsini əks etdirir.

Respublikamızda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması, elmi mədəni sərvətlərdən hərtərəfli istifadə imkanlarının genişləndirilməsi, cəmiyyətin informasiya təminatının artırılması, eləcə də Azərbaycan kitabxanalarının dünya informasiya məkanına daxil olmasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" qəbul edilmişdir.

Qərarda qeyd olunur ki, Azərbaycan Respublikasında 12 mindən çox müxtəlif tipli kitabxananın daxil olduğu geniş kitabxana-informsiya şəbəkəsi mövcuddur. Bu şəbəkəyə yalnız kütləvi kitabxanalar deyil, həm də elmi-texniki, uşaq, gənclər, musiqi məktəblərinin, eləcə də müxtəlif təşkilatların tabeliyində olan kitabxanalar, o cümlədən, 6 respublika əhəmiyyətli kitabxana, Bakı şəhərində 84 kitabxana və filialı 72 şəhər və rayon Mərkəzləşdirilmiş

Kitabxana Sistemi daxildir. Lakin bu kitabxanaların 90%-i müasir tələblərə cavab vermir.

Sözsüz ki, bütün bunlar ölkəşünaslıq və diyarşünaslıq biblioqrafiyasının inkişafına, bu işin səmərəli təşkilinə öz təsirini göstərməmiş olmur. Azərbaycanşünaslığın daha da inkişaf etdirilməsini, bu haqda mükəmməl məlumat bazasının yaradılmasını nəzərdə tutaraq qərarda xüsusi olaraq qeyd edilir ki, Azərbaycanşünaslığa dair qiymətli əsərlərin böyük bir hissəsi XIX əsrin əvvəlində Rusiyanın Moskva, Sankt-Peterburq, Kazan və digər şəhərlərinin kitabxanalarına aparılmışdır. Həmin əsərlərin əslinin, yaxud surətlərinin Azərbaycan kitabxanalarına qaytarılması zəruridir.

Bundan başqa Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının ayrı-ayrı bəndlərində qarşıda duran vəzifələr xüsusi olaraq göstərilmişdir. Bunlardan Azərbaycanşünaslığa və diyarşünaslığa aid qarşıda duran mühüm problemləri qeyd etmək məqsədəuyğundur. Belə ki, tədbirlər planında Azərbaycanşünaslığı inkişaf etdirmək məqsədilə ölkəşünaslıq və diyarşünaslığa dair materiallarla fondların zənginləşdirilməsi (2.1.2); ölkəşünaslığa (Azərbaycanşünaslığa) dair Rusiya dövlət kitabxanasında, Rusiya Milli kitabxanasında, Kazan, Tbilisi şəhər və digər milli kitabxanalarda saxlanılan ədəbiyyatın (o cümlədən dövri mətbuatın) müəyyənləşdirilməsi və onların çatışmayan nüsxələrinin Azərbaycan Respublikasına gətirilməsi məqsədilə layihələrin həyata keçirilməsi (2.1.6); Dünyanın böyük kitabxana mərkəzlərində saxlanılan diyarşünaslıq (ölkəşünaslıq) xarakterli qiymətli və nadir kitabların (əsli yaxud surəti və elektron variantı) "Heydər Əliyev Mərkəzi"ndə toplanması (2.2.47) xüsusi olaraq qeyd olunmuşdur. Sözsüz ki, belə ədəbiyyatın toplanıb qorunması, onlar haqqında biblioqrafik informasiyanın da hazırlanıb məlumat tələbatçılarının istifadəsinə verilməsi zəruri məsələlərdən birinə çevrilir.

Kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində müasir kitabxana-informasiya infrastrukturunun yaradılması, istifadəçilərə göstərilən kitabxana biblioqrafiya xidmətinin dünya standartları səviyyəsinə çatdırılması, əhalinin intellektual potensilaının və bilik səviyyəsinin inkişafı müvafiq islahatların aparılmasını tələb edir. Respublikanın milli-mədəni irsinin qorunması, elektron informaiya daşıyıcılarına köçürülməsi və

nəsillərdən-nəsillərə çatdırılması, dünya informasiya sistemlərində Azərbaycan kitabxana-biblioqrafiya resurslarının təbliği ilk növbədə kitabxanaların modernləşdirilməsini və müasir informasiya texnologiyaları ilə təmin edilməsini qarşıya mühüm vəzifə kimi qoyur. "Azərbaycan ədəbiyyatı", "Azərbaycan tarixi", "Azərbaycan muzeyləri", "Qobustan", "Azərbaycanın turizm gözəllikləri" adlı elektron kitabxanaların yaradılması, İnternetdə Azərbaycanın tarixi, ədəbiyyatı, mədəniyyət və incəsənəti haqqında müntəzəm olaraq informasiyaların əks olunması Dövlət Proqramında dəfələrlə qeyd olunur. Azərbaycanın regionları üzrə, o cümlədən ayrı-ayrı rayon mərkəzi kitabxanalarında bilavasitə diyarşünaslıq xarakterli məlumat bazalarının yaradılması və onların İnternet şəbəkəsinə yerləşdirilməsi kimi məsələlər də Proqramın Tədbirlər Planında öz geniş əksini tapmışdır. Azərbaycanın regionları üzrə "Qədim Bakı və bakılılar", "Qədim Şuşa və şuşalılar", "Qədim Bərdə və bərdəlilər", Lerik və Yardımlı rayon mərkəzi kitabxanalarında "Ətraf mühit", "Uzunömürlülər", Şəki şəhərinin mərkəzi kitabxanasında "Azərbaycanın ipək diyarı" və digər məlumat bazalarının yaradılması ölkəşünaslıq və diyarşünaslıq üzrə biblioqrafik işin səmərəli təşkilinə, müvafiq sahədə mövcud problemlərin sistemli həllinə yönəldilmişdir. Haqqında bəhs etdiyimiz Dövlət Proqramının əsas vəzifələrindən biri də məhz virtual kitabxanaların inkişaf etdirilməsi və "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nın oxucuların istifadəsinə verilməsidir.

Ölkəşünaslıq və diyarşünaslıq üzrə biblioqrafik vəsaitlərin bir növü də yerli nəşrlərin biblioqrafik repertuarının yaradılmasıdır. Azərbaycan kitabının biblioqrafik repertuarının yaradılması haqqında hələ 1959-cu ildə "Əsasnamə"qəbul olunsa da, bu iş yarımçıq qalmışdır. Buna görə də Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planında bu məsələnin xüsusi olaraq qeyd edilməsi böyük əhəmiyyət kəsb edir. Burada göstərilir ki, Azərbaycan kitabının milli biblioqrafiyasının yaradılması və nəşri (2.2.28) 2009-2010-cu illərdə həyata keçirilsin və bu iş Mədəniyyət və Turizn Nazirliyinə, M.F.Axundov adına Azərbaycan Milli kitabxanasına və digər aidiyyatı olan orqanlara həvalə edilsin. Azərbaycan kitabının ümumi biblioqrafik repertuarının yenidən hazırlanması, mövcud boşluqların tamamlanmasında bu sərəncamın nə qədər böyük əhəmiyyət kəsb etdiyi bir daha aydın nəzərə çarpır. "Azərbaycanın kitab yaddaşı" adlı ümumrespublika

proqramının işlənməsi və məlumat bazasının yaradılması (2.3.10) da bu baxımdan olduqca təqdirəlayiqdir.

Qlobal informasiya cəmiyyətinin yaradıldığı indiki şəraitdə elmin, biliklərin cəmiyyətin bütün bilik sahələrinə çatdırılmasında kitabxana-biblioqrafiya resursları həlledici rol oynayır.

Cəmiyyətdə gedən informasiya prosesi kitabxanaların fəaliyyətinə də daxil olmuş, onun gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmişdir. Bu fəaliyyət elə bir prosesdir ki, o, kitabxanalarda müasir dövrün tələblərinə cavab verə biləcək keyfiyyət dəyişikliklərinə nail olmağa şərait yaratmış olacaq. Kitabxana-biblioqrafiya sahəsində innovasiya strategiyasının inkişafı üçün əsas şərt müasir texniki vasitələrdən istifadə edərək müxtəlif texnoloji proseslərin mənimsənilməsidir. Kitabxana-informasiya sahəsinin inkişafına dair dövlət proqramı tədbirlər planında "kitabxanaların kompüter və informasiya proqram təminatı, respublika üzrə kompüterləşdirilmiş kitabxana-informasiya şəbəkəsinin yaradılması və inkişafı" bölməsi (2.2) ayrıca verilmiş və bu sahədə qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir. "Heydər Əliyev Mərkəzi"ndə təşkil olunacaq kitabxanaya "Milli kitabxana-informasiya kompleksi" statusunun verilməsi dövlətin bu məsələyə necə böyük əhəmiyyət verdiyini açıb göstərir. Müasir dövrdə kitabxanaların innovasiya prosesləri üzrə inkişafına məhz kompleks layihələr yaradıb tətbiq etməklə nail olmaq olar.

Respublikamızda kütləvi kitabxanalara ölkəşünaslıq biblioqrafiyası sahəsində metodiki mərkəz funksiyasını yerinə yetirən M.F.Axundov adına Milli Kitabxana da öz fəaliyyətini müasir tələblər səviyyəsində qurmaq üçün müəyyən tədbirlər həyata keçirir. Kitabxana digər müəssisələr kimi keçid dövrünün çətinliklərinə baxmayaraq ölkənin aparıcı kitabxanası kimi kütləvi kitabxanalara elmi-metodiki mərkəz funksiyasını davam etdirmişdir.

2004-cü ildə Respublika Nazirlər Kabinetinin qərarı ilə "Milli Kitabxana" statusu almış bu kitabxana nəinki regionda, o cümlədən bütün dünyada tanınan ən böyük Milli kitabxanalardan hesab olunur. Kitabxana-informasiya sahəsində həyata keçirilən innovasiya prosesləri kitabxananın fəaliyyətinin keyfiyyət baxımından yeni istiqamətdə inkişafına əsaslı təsir göstərmişdir. Belə ki, 2000-ci ildə kitabxanada "İnternet zalı" açılmış, 2003-cü ildən isə avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqinə başlanmışdır. Bununla əlaqədar olaraq Milli

kitabxanada "Kitabxana işinin avtomatlaşdırılması və informasiya texnologiyaları", "Elektron informasiya xidməti", "Elektron resursların yaradılması" kimi yeni şöbələr açılmışdır. Eyni zamanda bir sıra şöbələr də öz fəaliyyətini dövrün tələblərinə müvafiq olaraq yeni istiqamətdə qurmuş, onların adlarında, strukturunda dəyişikliklər edilmişdir. Belə şöbələrdən biri də "Diyarşünaslıq elmi biblioqrafiya" şöbəsidir. 2008-ci ildə şöbənin "Əsasnamə"si qəbul edilmiş və əsasən 3 bölmədə fəaliyyət göstərir:

"Azərbaycanşünaslıq" bölməsi", "Diyarşünaslıq məlumat bazasının yaradılması" bölməsi və "Biblioqrafik arayışların arxivi " bölməsi.

Adlarından da göründüyü kimi hər bölmənin müvafiq fəaliyyət sahəsi vardır və şöbədə bütün işlər qarşılıqlı, əlaqəli şəkildə aparılır. "Diyarşünaslıq elmi biblioqrafiya" şöbəsinin əsas vəzifələrinə aşağıdakılar daxildir:

Diyarşünaslıq xarakterli elektron məlumat-biblioqrafiya bazasını yaratmaq; bu bazada əks olunan məqalələrin skaner olunaraq tam mətnlə verilməsi və istifadəçilərə informasiya xidməti göstərmək; "Azərbaycanşünaslıq" toplu kataloqunu (retrospektiv) tədricən kitabxanaların elektron kataloquna köçürmək; diyarşünaslıq xarakterli elektron biblioqrafik vəsaitləri tərtib və nəşr etmək; diyarşünaslığa aid məlumat nəşrləri və biblioqrafik vəsaitləri özündə əks etdirən soraq-biblioqrafik nəşrlər fondunu (şöbədəki) komplektləşdirmək; şöbənin tərtib etdiyi diyarşünaslıq xarakterli biblioqrafik vəsaitlərin arxivini yaratmaq və qorumaq və s.

Kitabxanada tətbiq olunan müasir informasiya texnologiyaları əsasında öz işini yenidən qurmuş "Diyarşünaslıq elmi biblioqrafiya" şöbəsi artıq diyarşünaslıq xarakterli məqalələri elektron kataloqda əks etdirir. Diyarşünaslığa dair məqalələr əvvəllər elmi kitabxanalar üçün KBT cədvəlinə uyğun olaraq sistemləşdirilirdisə, hazırda biblioqrafik yazılar elektron kataloqda VTLS sistemində VİRTUA proqram təminatında MARK 21 formatında yazılaraq dünya informasiya sisteminə qoşulur. Azərbaycanşünaslıq materialları kompüterlərə köçürülərək elektron mübadilə sistemi vasitəsilə yayımlanır. 2006-cı ildən Azərbaycanşünaslığa dair məqalələr kitabxananın "Milli ədəbiyyatın elektron kataloqu"nda əksini tapır.

Məlumat bazası yaradılarkən biblioqrafik yazılar QOST 7.1-2003 Analitik biblioqrafik təsvir qaydalarına uyğun tərtib olunurlar.

.

Şöbədə son illərdə müxtəlif mövzularda məlumat bazası yaradılaraq oxucuların istifadəsinə verilmişdir. Bunlardan "Tofik Kazımov ", "Qara Qarayev-90", "Leyli və Məcnun-100" "Səttar Bəhlulzadə-100", "Akademik Zərifə Əliyeva -85", "Mikayıl Müşfiq-100" və başqalarını göstərmək olar.

Respublikamızda Milli kitabxanadan başqa digər kitabxanaların da veb saytlarının yaradılması ölkəşünaslıq biblioqrafiyasının təşkilində və kitabxanaların virtual metodiki təminat sisteminin həyata keçirilməsində mühüm əhəmiyyət kəsb edir.

M.F.Axundov adına Milli kitabxana bütün idarə və sistemlərin kitabxanalarına, xüsusilə kütləvi kitabxanalara virtual rejimdə metodik xidmət göstərməyə başlamışdır. Belə ki, kitabxananın saytında "Virtual metodik xidmət" bölməsi yaradılmışdır. Respublikamızın istənilən nöqtəsindən hər bir kitabxana işçisi müxtəlif sorğularını milli kitabxananın saytına ünvanlayaraq qısa müddətdə öz sorğusuna cavab ala bilər.

Milli kitabxana virtual metodiki xidmətlə yanaşı, ənənəvi metodiki təminat üsullarından da istifadə edir. Ötən əsrin 1960-70-ci illərində kitabxana "Əlamətdar və tarixi günlər təqvimi", "Kitabxana işçisinə kömək" adlı metodiki vəsaitlər çap etdirmişdir. Uzun müddətli fasilədən sonra 2004-cü ildə "Əlamətdar və tarixi günlər təqvimi"nin nəşri yenidən bərpa edilmiş və həmin ildə 2005-ci ili əhatə edən ilk buraxılış çapdan buraxılmışdır.

Vəsaitdə ölkəşünaslıq və diyarşünaslıq baxımında diqqəti cəlb edən tədbirlərə də geniş yer verilir. Məsələn, vəsaitin 2006-cı ilə aid buraxılışında il ərzində kitabxana işçilərinin ikigünlük seminar məşğələlərinin aylar üzrə təxmini mövzuları göstərilmişdir. Bunların içərisində Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın tarixinə dair ədəbiyyatın təbliği məqsədilə məruzə, kitab sərgisi, biblioqrafik xülasənin keçirilməsi; Azərbaycanşünaslığa dair əməli metodiki tövsiyələr; 31 dekabr-Dünya Azərbaycanlılarının həmrəyliyi günü və digər mövzular ölkəşünaslıq üzrə biblioqrafik işin daha səmərəli təşkilinə təsir etmək məqsədilə keçirilir.

Bununla belə Respublikamızda kitabxana informasiya sahəsində həyata keçirilən innovasiya prosesləri kitabxanaların metodiki təminatının əsaslı şəkildə yeniləşməsini tələb edir.

.

Ölkəşünaslıq üzrə bibliorafik işin daha səmərəli təşkili üçün Azərbaycanşünaslığa dair bütün materialların mükəmməl elektron məlumat bazasının yaradılması dövrün zəruri tələbinə çevrilib. Bu zaman yalnız respublika kitabxanalarında deyil, eyni zamanda xarici ölkə kitabxanalarının fondunda saxlanılan müvafiq ədəbiyyatın da aşkara çıxarılıb, toplanmasına diqqət artırılmalıdır.

## ƏDƏBİYYAT


1. *"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu: 29 dekabr 1998-ci il// Kitabxanaşünaslıq və biblioqrafiya:elmi, nəzəri və təcrübi jurnal.-1999.-№1.- s.3-16.*
2. *Azərbaycan Respublikasında kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri metodik və təcrübi jurnal.-2008. .-№2- s.7-30.*
3. *Tahirov K. M.F.Axundov adına Milli Kitabxana müstəqillik illərində// Humanitar elmləri öyrənilməsinin aktual problemləri (Ali məktəblərarası elmi məqalələr məcmuəsi)/ Bakı Slavyan Universiteti.- B., 2010.-№2.- s.373-381.*
4. *M.F. Axundov adına Milli Kitabxananın "Diyarşünaslıq elmi biblioqrafiya"şöbəsinin əsasnaməsi.*
5. *M.F. Axundov adına Milli Kitabxananın "Diyarşünaslıq elmi biblioqrafiya"şöbəsinin hesabatları 2005-2010.*
6. *Azərbaycan Milli Elmlər Akademiyasının 2008-ci ildəki fəaliyyəti haqqında hesabat.- B.: Elm, 2009.- s. 275-278*



**Г.С. ГАДЖИЕВА**


## ОРГАНИЗАЦИЯ СТРАНОВЕДЧЕСКОЙ БИБЛИОГРАФИИ НА СОВРЕМЕННОМ ЭТАПЕ

## РЕЗЮМЕ


За последнее десятилетие с целью развития библиотечно-информационных ресурсов приняты некоторые директивные материалы, а так же разработана Государственная Программа. Эти материалы открыли широкие возможности для интенсификации страноведческой и краеведческой библиографии. В статье

.

основе этих материалов изучены информационные базы данных созданные библиотеками по различным темам страноведение.

**G.S. HAJİYEVA**

**ORGANİZATİON OF REGİONAL GEOGRAPHİC BİBLİOGRAPHY AT THE PRESENT STAGE**

**SUMMARY**

Over the past decade to develop library and information resources policy adopted by come materials, as well as the State Program. These materials have apaned up broad possibilities for intensification of regional geographic and local history bibliography.

Article based on these materials were studied information data - bases by libraries on various topic geography.

.

**Solmaz SADIQOVA**
*Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi*

# BAKI DÖVLƏT UNİVERSİTETİNİN 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ BİBLİOQRAFİK İNFORMASİYA MƏNBƏYİ YARADILIR

***Bu məqalə Bakı Dövlət Universitetinin 2010-2011-ci illər üçün elan etdiyi "50+50 qrant proqramı" çərçivəsində hazırlanmışdır***

***Açar sözlər:*** Bakı Dövlət Universiteti, 90 illik yubiley, biblioqrafik məlumat kitabı, biblioqrafik vəsait, informasiya mənbələri.

***Ключевые слова:*** Бакинский Государственный Университет, 90 летний юбилей, библиографический справочник, библиографическое пособие, информационные источники.

***Keywords:*** Baku State University, 90 years anniversary, bibliographic reference book, a bibliographic guide, information sources.

Ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycan xalqının milli sərvəti" adlandırdığı Bakı Dövlət Universiteti (BDU) mənəvi böyüklüyümüzün simvolu, elm, təhsil və mədəniyyətimizin möhtəşəm məbədidir [8, s.7].

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin "Bakı Dövlət Universitetinin 90 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamında deyilir: "2009-cu ilin sentyabr ayında Azərbaycan Respublikasının aparıcı təhsil ocağı Bakı Dövlət Universitetinin təsis edilməsinin 90 ili tamam olur. Bakı Dövlət Universiteti müsəlman Şərqində ilk Avropa tipli ali məktəb kimi yarandığı vaxtdan bəri ötən müddət ərzində ölkəmizdə ali təhsilin və elmin tərəqqisi naminə əvəzsiz xidmətlər göstərmişdir. Yüksək ixtisaslı milli kadrların hazırlanması, yeni-yeni elmi istiqamətlərin formalaşdırılması, dünya təhsil məkanına inteqrasiya, eləcə də mədəni-mənəvi dəyərlərimizin yaşadılması istiqamətlərində universitet üzərinə düşən vəzifələrin öhdəsindən həmişə layiqincə gəlir. Azərbaycanın simasını müəyyən edən dövlət, elm və mədəniyyət xadimlərinin böyük bir qismi məhz Bakı Dövlət Universitetinin

yetirmələridir. Xalqımızın milli sərvətinə çevrilən universitet bu gün dövlət idarəçiliyi, iqtisadiyyat, elm, təhsil və mədəniyyətin müxtəlif sahələrində uğurla çalışan çox saylı məzunları ilə müstəqil Azərbaycanın inkişafına töhfələrini əsirgəmir" [2].

XX əsrin görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin özü də Bakı Dövlıt Universitetinin məzunu olması ilə fəxr etdiyi kimi, bu gün Bakı Dövlət Universitetinin kollektivi də Heydər Əliyevin adı ilə, doğma universitetimizin ləyaqətli məzunu olması ilə fəxr edir. Ona görə ki, dünya şöhrətli dahi şəxsiyyət, beynəlxalq nüfuza malik siyasi lider, müstəqil Azərbaycan dövlətçiliyinin etibarlı qarantı, bugünkü inkişaf etmiş dövlətimizin memarı, Azərbaycan xalqının ümummilli lideri səviyyəsinə qədər yüksələn, Tanrı möcüzəsi olan Heydər Əliyev Bakı Dövlət Universitetinin tarix fakültəsini 1957-ci ildə bitirmişdir. Bu dahi şəxsiyyətin adı tarix fakültəsinin və Bakı Dövlət Universitetinin Qızıl fonduna düşmüşdür [7].

90 illiyini qeyd etdiyimiz Bakı Dövlət Universitetinin yubileyi ilə əlaqədar və 90 il ərzində universitetin keçdiyi yola həsr olunmuş informasiya mənbələrini bir yerə yığmaq, onun haqqında bir informasiya mənbəyi nəşr etmək layihənin əsasını təşkil edir. Bu mövzu aktuallıq kəsb etdiyi üçün "Bakı Dövlət Universiteti – 90: Biblioqrafik məlumat kitabı"nın çap və elektron variantlarının hazırlanması planlaşdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə çıxışı zamanı demişdir: "Bakı Dövlət Universitetinin çox gözəl və böyük tarixi vardır. 1919-cu ildə təsis edilmiş universitet 90 il ərzində Azərbaycanın hərtərəfli inkişafında çox mühüm rol oynamışdır".

İnformasiya ehtiyatlarının ən mühüm tərkib hissələrindən biri biblioqrafik informasiyadır. O, biblioqrafiyaşünaslığın nəzəri təhlilində mərkəzi kateqoriya olmaqla ilkin çıxış nöqtəsi kimi nəzərə alınır.

İnformasiya həmişə xüsusilə cəmiyyətin bütün fəaliyyət sahələrində mühüm əhəmiyyət kəsb edir. Müasir cəmiyyətin informasiyalı cəmiyyət adlandırılması təsadüfi deyil. Bəşəriyyət həmişə informasiyanı toplamış, qorumuş və yaymışdır. Cəmiyyətin

informasiyalaşdırılması zəruri bir prosesdir. Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda (3 aprel 1998-ci il) informasiyalaşdırma anlayışına belə bir tərif verilir: "İnformasiyalaşdırma informasiya ehtiyatlarının formalaşdırılması, təqdim edilməsi, istifadə olunması əsasında dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının təşkilati, hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların və vətəndaşların informasiya tələbatlarının və bu sahədəki hüquqlarının təmin edilməsində optimal şəraitin yaradılması üçün təşkilati, sosial və elmi-texniki prosesdir" [1].

Ümumiyyətlə, informasiya dedikdə, ilk növbədə bizi əhatə edən,ətraf mühit haqqında hər cür məlumat nəzərdə tutulur. Bununla bərabər informasiya ayrı-ayrı şəxslər, predmetlər, faktlar, hadisələr və müxtəlif proseslərlə də əlaqədar ola bilər. İnformasiya anlayışının əhatə dairəsi daha da genişləndirilə bilər, buraya canlı və cansız təbiət obyektləri haqqında məlumatlar, proqramlar və təlimatlar məcmuu da daxil edilə bilər. İnsanlar bu informasiyanı müxtəlif mənbələr vasitəsilə alir və onlardan gündəlik müxtəlif həyati fəaliyyətlərində istifadə edirlər. Cəmiyyətin informasiyalaşdırılmasında əhəmiyyətli olan informasiya ehtiyatları, vasitələri çoxcəhətlidir. Bu ehtiyatlar və informasiya xidməti vasitələri dünya miqyasında, o cümlədən Azərbaycanda durmadan inkişaf edir. Cəmiyyətin informasiya ehtiyatları sənədlər şəklində maddiləşir və bununla da ondan məqsədyönlü sosial istifadə üçün imkan yaranır. Nəticə etibarilə sənəd informasiya axını və fondu yaranır və formalaşır [1].

Biblioqrafik informasiyanın hansı informasiya növünə aid olması və onun səciyyəvi keyfiyyətlərinin müəyyənləşdirilməsi nəzəri təhlil üçün böyük əhəmiyyət kəsb edir. Biblioqrafik informasiya ilkin sənədlərin analitik təhlili və sintez edilməsi nəticəsində yaranan informasiyadır. O, sənədləşdirilmiş və ikinci hesab edilən xüsusi informasiya növünə daxildir. Bu tərkibdə biblioqrafik informasiyani biblioqrafik olmayan informasiyadan fərqləndirən onun sənədlərdə tələbatçılar arasındakı uyğunluğun həyata keçirilməsinə, tələbatçıların sənədlərə müraciət etməsinə özünəməxsus şəkildə təsir göstərməsidir. Burada biblioqrafik olmayan informasiya isə ilkin sənədləri əvəz edir və tələbatçılar onları birbaşa müraciət etməklə öz tələbatlarını ödəyə

bilirlər. Referativ jurnallar, biblioqrafik xülasələr buna misal ola bilər. Biblioqrafik informasiya haqqında yuxarıda deyilənləri ümumiləşdirib belə qənaətə gəlmək olar ki, biblioqrafik informasiya ikinci heasb edilən sənədləşdirilmiş informasiyanın bir növü olub, müxtəlif keyfiyyətlərə malikdir [6, s.43].

Biblioqrafik informasiya biblioqrafiyalaşdırmanın bilavasitə obyekti olan sənədə əsaslanır. Biblioqrafik informasiya sənədlərdə məlumat üçün zəruri olan əlamətləri götürüb mütəşəkkilləşdirməklə və qaydaya salmaqla sənəd kütləsini və axınını özündə əks etdirir, modelləşdirir. Bu əməliyyat tələbatçıdan, onun informasiya tələbatından və mütaliə məqsədindən asılı olmayaraq həyata keçirilə bilər. Nəticədə sənədlərlə tələbatçı münasibəti deyil, sənədlərin özləri arasındakı münasibətin biblioqrafik həlli həyata keçirilir.

Biblioqrafik təsvirlərin mütəşəkkil toplusunu əks etdirən və beləliklə biblioqrafik informasiyanın cəmiyyət üzvləri tərəfindən səmərəli istifadə olunmasını təmin edən informasiya biblioqrafik vəsait adı verilir. Sənədləşdirilmiş biblioqrafik informasiyanın cəmiyyətdə başlıca mövcudluq forması, onun yayılmasında və istifadəsində əsas vasitə biblioqrafik vəsaitdir. Biblioqrafik qeyd və ya onun əsas hissəsi olan biblioqrafik təsvir isə biblioqrafik vəsaitin əsas ünsürüdür. Biblioqrafik vəsait – biblioqrafik inormasiyanın məqsədinə, oxucu istiqamətinə uyğun olan fikrə, məqsədə, forma və məzmuna görə vəhdətdə götürülmüş və qaydaya salınmış yazı toplusudur [6, s.22-23].

Bakı Dövlət Universitetinin 90 ildə keçdiyi inkişaf və tərəqqi yolu, qazandığı böyük uğurlar bu ali təhsil ocağı bundan sonra da Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin tərəqqi və inkişaf yolunu nurlu bir məşəl kimi işıqlandıracağını bir daha təsdiq edir.

Heydər Əliyevin təhsil aldığı illərdə və respublikaya rəhbərlik etdiyi dövrdə universitetlə əlaqələri Bakı Dövlət Universitetinin şanlı tarixinin böyük və əlamətdar bir mərhələsini təşkil edir. Bakı Dövlət Universitetinin tərəqqi və inkişafının ən məhsuldar dövrü olan son 30 il məhz onun adı ilə qırılmaz tellərlə bağlıdır. Ulu öndər Heydər Əliyev universitet rəhbərliyinin yeni kadrlarla möhkəmləndirilməsinə olduqca böyük diqqət yetirirdi. Məhz buna görədir ki, universitetin Böyük Elmi Şurası 1994-cü il 28 oktyabr tarixli geniş iclasında Azərbaycan xalqı, dövləti, elmi və təhsili qarşısında əvəzsiz xidmətlərinə görə Heydər Əlirza oğlu Əliyevə Bakı Dövlət Universitetinin

Fəxri Doktoru adının verilməsi haqqında yekdil qərar qəbul etdi. Universitetimizin kollektivi bununla fəxr edir [7, s.41].

Mövzunun aktuallığı ilə bağlı qeyd edilən məlumatlar Bakı Dövlət Universitetinin 90 illik yubileyi münasibətilə keçirilmiş təntənəli yubiley mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, BDU-nun rektoru, akademik Abel Məhərrəmovun çıxışları, o cümlədən yubileylə baglı çap olunmuş bir sıra əsərlərdə öz əksini tapmışdır [2; 3; 4; 5; 7; 8; 9].

"Bakı Dövlət Universiteti – 90: Biblioqrafik məlumat kitabı" – BDU-nun 90 illik yubileyinə həsr olunmuş əsərlərin biblioqrafik göstəricisinin elektron və çap variantını – kitabı hazırlamaqla əldə edilmiş nəticənin, yəni biblioqrafik məlumat kitabının www.bsu.edu.az saytında yerləşdirilməsi planlaşdırılır.

Bakı Dövlət Universitetinin 90 illik yubileyi iə əlaqədar BDU-nun rektoru, akademik A.Məhərrəmov və başqa görkəmli alimlərinin əsərlərinin bir yerə yığılması, universitetimizin alimlərinin, eləcə də yubileylə əlaqədar mövcud olan bütün çap məhsullarını bir yerə toplamaq, onun toplu şəklində çap və elektron variantının yaradılması, doğma universitetimizin yubileyi ilə maraqlanan informasiya istifadəçiləri üçün çox əhəmiyyətlidir.

Ümid edirik ki, tələbədən tutmuş akademikə qədər informasiya istifadəçiləri üçün dəyərli vəsait olmaqla, ali məktəblərin flaqmanı olan Bakı Dövlət Universitetinin 90 illik yubileyi münasibətilə dərc olunan sənədlərin, mənbələrin biblioqrafik məlumat kitabının hazırlanması bir daha yubiley töhfəsi olacaqdır.

## ƏDƏBİYYAT

*1. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azırbaycan Respublikasının Qanunu" // Azərbaycan Respublikasının Qanunvericilik toplusu. – 1998. - №6. – S.1214-1222.*

*2. Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı (2 noyabr 2009-cu il) // Kitabxanaşünaslıq və biblioqrafiya. – 2009. – №2. –S.7-10*

*3. "Bakı Dövlət Universitetinin 90 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı*

.

*şəhəri, 24 aprel 2009-cu il // Kitabxanaşünaslıq və biblioqrafiya. – 2009. – №2. –S.5.*

*4. "Bakı Dövlət Universitetinin əməkdaşlarına fəxri adların verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (30 oktyabr 2009-cu il) //Respublika. – 2009. – 1 noyabr.*

*5. Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmovun çıxışı (2 noyabr 2009-cu il) // Kitabxanaşünaslıq və biblioqrafiya. – 2009. – №2. –S.11-16*

*6. Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq.- B.: Bakı Universiteti Nəşriyyatı, 2001. – 143 s.*

*7. Xələfov A. Professor V.İ.Razumovskidən akademik A.M.Məhər-rəmova qədər keçmiş inkişaf və tərəqqi yolu// Kitabxanaşünaslıq və biblioqrafiya. – 2009. – №2. –S.28-47*

*8. Məhərrəmov A. Bakı Dövlət Universiteti – 90. – B.: Bakı Universi-teti nəşriyyatı, 2009. – 689s.*

*9. Məhərrəmov A. 90 illik şərəfli yol // Azərbaycan. – 2009. – 1 noyabr.*

**С.САДЫГОВА**

## СОЗДАЕТСЯ БИБЛИОГРАФИЧЕСКИЙ ИСТОЧНИК, ПОСВЯЩЕННЫЙ К 90 ЛЕТНЕМУ ЮБИЛЕЮ БАКИНСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА

### РЕЗЮМЕ

В статье рассказывается о собрании первоначальных источников о 90 летнем юбилее Бакинского Государственного Университета, которого общенациональный лидер назвал как «Национальное богатство Азербайджанского народа», о приготовлении информационной книги, соблюдая методике библиографирования. Отмечается, что сбор изданных источников связи с юбилеем, будет играть важную роль в информационном обеспечении.

.

**S.SADIGOVA**

## IS CREATED A BIBLIOGRAPHIC SOURCE, DEDICATED TO THE 90TH ANNIVERSARY OF BAKU STATE UNIVERSITY

**SUMMARY**

The article tells about the collection of primary source about the 90 year anniversary of the Baku State University, which national leader named as “National wealth of the Azerbaijan people”, about making of information book, following the procedure of bibliographication. It is noted that the collection published sources connection with the anniversary, will play an important role in information software.

**Xuraman AĞAYEVA**
*pedaqogika üzrə fəlsəfə doktoru*

# TƏHSİLİN BİBLİOQRAFİK İNFORMASİYA TƏMİNATI SİSTEMİ

***Açar sözlər:*** biblioqrafik təminat, soraq-biblioqrafiya aparatı, soraq və biblioqrafik nəşrlər fondu, biblioqrafik vəsaitlər, informasiya istifadəşiləri

***Ключевые слова:*** библиографическое обеспечение, справочно-библиографический аппарат, фонд справочно-библиографиических издания, библиографический пособии, потрибители информации

***Keywords:*** bibliographic support,reference and bibliographical apparatus, fund of reference-bibliographic publications, bibliographic index, information consumers

Biblioqrafik fəaliyyətin əsas mərkəzləri müəyyənləşdirilərkən onları ümumi və xüsusi fəaliyyət sahələrinə görə fərqləndirirlər. Azərbaycanda ümumi biblioqrafiyanın əsas mərkəzi Respublika Dövlət Kitab Palatası, M.F.Axundov adına Milli Kitabxana və MEA-nın Mərkəzi Elmi Kitabxanası hesab olunurdu.

Xüsusi biblioqrafiya ilə, o cümlədən elmin, texnikanın, idarəetmənin, istehsalın biblioqrafik təminatı ilə müxtəlif sistemlərin, idarələrin elmi kitabxanaları və əlaqədar informasiya mərkəzləri məşğul olur. Respublika Elmi-Texniki Kitabxanası, Respublika Elmi-Tibb Kitabxanası, Respublika Elmi-Kənd Təsərrüfatı Kitabxanası, Respublika Elmi-Pedaqoji Kitabxanası elmin bu və ya digər sahələri üzrə sahəvi cari, elmi-köməkçi biblioqrafik göstəricilərin yaradılmasında yaxından iştirak edir, mütəxəsislərin yeni ədəbiyyat və elmi-texniki sənədlərə olan informasiya tələbatlarının lazımi dolğunluqla və operativ şəkildə təmin olunmasına ciddi səy göstərir, biblioqrafik fəaliyyətlə məşğul olurlar [55,129].

Ölkəmizin çoxsaylı kitabxana şəbəkələri içərisində Azərbaycan Təhsil Nazirliyinin kitabxana sisteminin xüsusi yeri və rolu vardır. Xalqımızın tarixi-milli mədəniyyətinin qaynaqlarına söykənən və öz fəaliyyətində beynəlxalq kitabxana təcrübəsinin qanunauyğunluqlarına

əsaslanan çoxpilləli təhsil ocaqlarının kitabxanaları zəngin yol keçmişdir. Onlar Azərbaycanda elmin, mədəniyyətin təhsilin, elmi-texniki tərəqqinin inkişaf edib formalaşmasında, xüsusilə ali və orta ixtisaslı kadr hazırlığında, təlim və tərbiyənin təkmilləşməsində əsas aparıcı elmi müəssisə və təşkilatçı rolunu oynamışlar. Tarixin çox çətin, mürəkkəb prosesləri ilə qarşılaşan təhsil ocaqları və onların kitabxanaları XX əsrin 80-ci illərində çox sürətli inkişaf mərhələsinə qədəm qoymuşdur. Öz işini ölkənin ictimai-siyasi, sosial-mənəvi həyatı ilə sıx əlaqədə quran, müxtəlif təhsil ocaqlarının inkişafı fonunda tərəqqisini tapan bu kitabxanaların qarşısında mürəkkəb, çətin və şərəfli vəzifələr qoyulmuşdur. Təhsil sahəsinin çox geniş sosial təbəqəsinə biblioqrafik xidmət göstərən təhsil ocaqlarının kitabxanalarının fondunda 45 milyon nüsxədən artıq elmi, tədris, bədii və başqa növ ədəbiyyat vardır. Sayı beş minə yaxın olan bu kitabxanalar, elm, mədəniyyət mərkəzlərində, təhsil ocaqlarında səmərəli fəaliyyət göstərirlər [5, 3].

Azərbaycanda pedaqoji elmlərin biblioqrafik informasiya təminatı sisteminin əsasını Təhsil Nazirliyinin kitabxana sistemi, ən çox da Təhsil Problemləri İnstitutunun Elmi Kitabxanası, Respublika Elmi Pedaqoji Kitabxanası, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Kitabxanası, Bakı Dövlət Universitetinin Elmi Kitabxanası, Bakı Slavyan Universitetinin Elmi Kitabxanası, Azərbaycan Dillər Universitetinin Elmi Kitabxanası, Sumqayıt Dövlət Universitetinin Elmi kitabxanası, Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanası, Gəncə Dövlət Universitetinin Elmi Kitabxanası, Lənkəran Dövlət Universitetinin Elmi Kitabxanası, eyni zamanda özəl ali məktəblərin kitabxanaları məşğul olur. Onlar Azərbaycanda pedaqoji elmlər üzrə biblioqrafik fəaliyyət mərkəzləri hesab olunurlar. Bu mərkəzlər gənclərin tərbiyə, təlim, təhsil problemləri, elmi-pedaqoji kadrların biliyini artırmaq və ixtisasını təkmilləşdirmək məsələləri ilə məşğul olur, qabaqcıl təcrübəni təbliğ edir, biblioqrafik vəsaitlər hazırlayıb pedaqoji sahənin informasiya istifadəçilərinə çatdırır, sahə mütəxəssislərinin biblioqrafik informasiya təminatını həyata keçirirlər.

Pedaqoji sahənin informasiyalaşdırılması prosesini həyata keçirmək və sahə mütəxəsislərinə operativ biblioqrafik xidmət göstərmək üçün informasiya istifadəçilərini dərindən öyrənmək

lazımdır. Çünki onları dərindən öyrənmədən, tanımadan, tələbatlarını bilmədən səmərəli biblioqrafik xidməti təşkil etmək mümkün deyil. Bu baxımdan sahənin informasiya istifadəçilərini biblioqrafik informasiyanın obyekti kimi xarakterizə etmək lazımdır.

Müasir biblioqrafiyaşünaslıqda informasiya istifadəçiləri müxtəlif əlamətlərə görə təsnifləşdirilir. Bu zaman sosial-iqtisadi amillərə əsas yer verilir, çünki məhz bu amillər hər şeydən əvvəl insanların informasiya tələbatlarına təsir edirlər. Peşə-əmək fəaliyyətinin növü, insanın maddi və mənəvi istehsal prosesində tutduğu yer, ümumi təhsil səviyyəsi, kitabla, biblioqrafik vəsaitlə müstəqil işləmək bacarığının olması, ailə vəziyyti, yaşı, cinsi, məişət şəraiti və s.

Son illər pedaqoji sahə izrə informasiya tələbatının fərdi şəkildə formalaşmasına təsir edən psixoloji amillərin öyrənilməsinə də diqqət artmışdır. Bu amillər aşağıdakılardır: aktivlik və passivlik, səbəb və məqsədlər, xarakterik xüsusiyyətlər (əsəbilik, hövsələsizlik, utancaqlıq, biblioqrafla informasiya istifadəçi arasında psixoloji uyğunlaşma) və s. Bütün bunlar sahə mütəxəsislərinə biblioqrafik xidmət zamanı mütləq nəzərə alınır [3, 69].

Lakin biblioqrafik nöqteyi-nəzərdən istifadəçinin peşə fəaliyyəti dairəsi və vəzifə statusuna əsasən differensasiyası daha böyük maraq döğurur. Məsələn, Təhsil Nazirliyinin kitabxana sistemində informasiya istifadəçiləri belə qruplaşdırılmışdır:

1. Təhsil sahəsinin rəhbər işçiləri;
2. Alim və mütəxəsislər;
3. Aspirant, magistrant və tələbələr;
4. Digər oxucu qrupları.

Pedaqoji elmlər üzrə biblioqrafik informasiya təminatı sisteminə daxil olan kitabxanalar içərisində Təhsil Problemləri İnstitutunun Elmi Kitabxanası və Respublika Elmi Pedaqoji Kitabxanası pedaqoji elmlər üzrə biblioqrafik təminat sisteminin əsas həlqələri olduğuna görə onların biblioqrafik fəaliyyətləri haqqında daha ətraflı məlumat verməyi qərara aldıq.

Qeyd olunduğu kimi, Azərbaycanda pedaqoji elmin inkişafı 1931-ci ildə Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun yaranması ilə daha da sürətləndi. 2001-ci ildə İnstitutun adı dəyişdirilərək Təhsil Problemləri İnstitutu oldu. Hazırda instituta Rusiya Təhsil Akademiyasının akademiki, professor A.Mehrabov rəhbərlik edir. İnstitutda

.

təhsil sisteminin bütün struktur bölmələrini əhatə edən problemlər üzrə–təhsil sisteminin yeni normativ-hüquqi, iqtisadi və informasiya bazasının yaradılması, yeni tipli təhsil müəssisələrinin, komplekslərin təşkili, təhsil sisteminin varisliyini təmin edən prinsiplərin elmi, elmi-metodik əsaslarının və təşkilati mexanizminin işlənməsi, ilkin kadr hazırlığı, ixtisasartırma və yenidən hazırlanmanın təşkilati mexanizmi, təhsil sisteminin idarə olunmasında səlahiyyətlərin bölüşdürülməsi, idarəetmənin demokratikləşdirilməsi mexanizminin yaradılması, təhsil sisteminin yeni iqtisadi modelinə keçidlə bağlı normativlərin müəyyən edilməsi, təlimin texniki vasitələri və kompüterləşmənin yeni mexanizminə keçidin təmin olunması, bazar iqtisadiyyatının tələbatına uyğun təhsil sisteminin strukturunun formalaşması, ümumi və peşə-ixtisas təhsilinin yeni məzmununun, milli kurrikulumun, yeni qiymətləndirmə sisteminin hazırlanması, təhsilin dinamik inkişafını və yüksək keyfiyyətini təmin edən, dövlət və ictimaiyyətin səmərəli əlaqələndirilməsini tənzimləyən normAtivlərin elmi, pedaqoji, psixoloji və metodiki əsaslarını işlənməsi istiqamətində tədqiqatlar davam etdirilir [1,39].

Təhsil Problemləri İnstitutunun Elmi Kitabxanası bu elmi tədqiqat işlərinin yerinə yetirilməsində mütəxəssislərə nəinki yardım edir, onların biblioqrafik informasiya təminatını həyata keçirir, sahə üzrə biblioqrafik informasiya təminatı sisteminin mühüm həlqəsini təşkil edir. Kitabxana 1931-ci ildən fəaliyyət göstərir. Kitabxananın ilk fondu bir neçə yuz kitabdan ibarət olmuşdur. 1934-cü ildə beş nəfər görkəmli pedaqoq və metodistlərdən ibarət Elmi Kitabxana şurası təşkil olundu. Onların rəhbərliyi altında kitabxana elmi-pedaqoji istiqamət aldı. Yarandığı gündən kitabxanaya Y.Kavalyovskaya (1932), Y.Qiyasbəyov (1933), E.Baqri (1933-1937), T.Kçemen (1938-1941), T.Süleyman (1941-1942), L.Poroşko (1942-1943), A.Rəhimzadə (1943), Q.Balivin (1943-1950), M.Rzaquliyev (1951-1960), S.Hüseynova (1960-1993), F.Şükürova (1998-2001), S.Məmmədova (2001-ci ildən indiyə qədər) rəhbərlik etmişlər. Hazırda ştat cədvəli üzrə kitabxanada 4 nəfər işçi – şöbə müdiri S.Məmmədova, elmi işçi I.Bayramova, elmi işçi V.Bayramov və Ə.Qurbanova чалышыр. Kitabxananın fondu hər il yeni elmi-pedaqoji ədəbiyyat hesabına artır [1, 276].

.

Kitabxananın əməkdaşları ayrı-ayrı şəxslərdən və təşkilatlardan pedaqoji, psixoloji, metodik ədəbiyyat toplamış, get-gedə kitabxana fondu planlı şəkildə yeni elmi-pedaqoji ədəbiyyat hesabına daha da artmışdır. Hazırda kitabxananın fondu (kitab, kitabça, avtoreferat, qəzet və jurnallar) 67 min nüsxəyə çatmışdır. Fond elmin bütün sahələri üzrə komplektləşdirilmişdir. Bununla belə profilə uyğun olaraq pedaqogika, psixologiya və təhsilin müxtəlif sahələri üzrə ədəbiyyat fondda üstünlük təşkil edir. Kitabxananın fondu hər il yeni pedaqoji ədəbiyyat hesabına artır. Respublikanın heç bir kitabxanasında olmayan nadir pedaqoji və psixoloji ədəbiyyatı bu kitabxanadan tapmaq olar.

Kitabxananın fondu sistemli kataloqda öz əksini tapmışdır. Kitabxananın soraq-biblioqrafiya aparatının ümumi həcmi 35 min kartoçkadan ibarətdir. Kitabxanada İnstitutda fəaliyyət göstərmiş və hazırda fəaliyyət göstərən əməkdaşların elmi-tədqiqat işlərini əks etdirən ayrıca kartoteka yaradılmışdır ki, bu da mütəxəssislərin biblioqrafik informasiya təminatını daha operativ ödəməyə imkan verir. Hazırda kitabxanada Azərbaycan və rus bölmələri, dövri mətbuat bölməsi, nadir kitablar fondu bölməsi fəaliyyət göstərir və bu fondda 100 il bundan qabaq nəşr edilmiş çox qiymətli əsərlər toplanmışdır.

Dövri mətbuat bölməsində minlərlə qəzet və jurnal toplanmışdır. Hazırda kitabxana Rusiyadan 15 adda, Azərbaycandan isə 11 adda qəzet və jurnalı abunə yolu ilə alır. Fondun zənginləşməsində institut əməkdaşları da fəallıq göstərmiş, professorlardan Y.Kərimov, Ə.Ağayev, A.Abbasov, R.Əliyev, S.Qasımov, V.Xəlilov, Ə. Abbasov və başqaları vaxtaşırı yeni nəşr olunmuş əsərlərini kitabxanaya hədiyyə etmişlər. Təkcə 2005-ci ildə institutun ümumi şöbəsindən 175 ədəd metodik və tövsiyə вясаити, ali və orta təhsil şöbəsindən 535 ədəd proqram, müxtəlif mənbələrdən isə 1580 ədəd kitab alınmışdır [16, 276]. Latın qrafikasına keçilməsilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Azərbaycan dilində latın qrafikası ilə nəşr olunmuş Azərbaycanın yazıçı və şairlərinin 1000-ə yaxın əsəri, dünya ədəbiyyatından seçmələr, lüğətlər və ensiklopediyalar və s. nəşrlər kitabxananın fonduna daxil olmuşdur.

Kitabxananın əsas vəzifələrindən biri oxuculara biblioqrafik informasiya xidmətinin göstərilməsidir. Yarandığı ilk dövrlərdə kitabxana yalnız İnstitutut əməkdaşlarına xidmət edirdi. Indi

kitabxananın daimi oxucularının sayı 1000-ə çatmışdır. Eyni zamanda kitabxana yalnız İnstitutut əməkdaşlarına deyil, bütün elmi-tədqiqatla məşğul olan pedaqoji ictimaiyyətə xidmət göstərir. Oxucuların tərkibi akademiklərdən, professorlardan, elmi işçilərdən, aspirantlardan, dissertantlardan, müəllimlərdən, magistrlardan, tələbələrdən və şagirdlərdən ibarətdir.

Kitabxana ən çox elmi-tədqiqatla məşğul olan elmi işçilərin biblioqrafik informasiya təminatını həyata keçirir. Onların sorğularına uyğun olaraq biblioqrafik arayış tərtib edir, yeni çıxmış əsərlərlə istifadəçiləri tanış etmək üçün kitab sərgiləri, oxucu konfransları, yeni kitabların təqdimatını, müzakirəsini keçirir və digər kütləvi tədbirlər təşkil edir. Fondda olmayan kitabların kitabxanalararası abonoment (KAA) vasitəsilə istifadəçilərə çatdırılmasında kitabxananın xidməti böyükdür. Belə ki, o, Milli Kitabxana, Respublika Elmi Pedaqoji Kitabxana və Rusiyanın bir çox kitabxanaları ilə əlaqə yaradaraq KAA vasitəsilə minlərlə kitabı oxuculara çatdırır.

Son illər elmi-tədqiqatların sürətli inkişafı informasiya axınının sürətlənməsinə gətirib çıxardığından kitabxanının qarşısında daha mühüm vəzifələr qoymuşdur. Bu vəzifələrin yerinə yetirilməsi üçün kitabxanada son vaxtlar müasir informasiya texnologiyalarının tətbiqinə başlamış və elektron kataloqun yaradılması istiqamətində müəyyən işlər görülür. Lakin kitabxanada elekton kataloqun yaradılması, fondun maşın yaddaşına köçürülməsi, biblioqrafik məlumat bazasının yaradılması sahəsində nöqsanlar var. Bu sahədə işin gedişini sürətləndirmək və istifadəçilərin İnternet xidmətindən istifadə edə bilməsi üçün tədbirlərin görülməsi vacibdir.

Ölkəmizdə pedaqoji sahədə biblioqrafik fəaliyyəti həyata keçirən, elmi, sosial-mədəni həyat üçün çox zəruri olan kitabxanalardan biri də Respublika Elmi Pedaqoji Kitabxanasıdır (REPK). REPK Azərbaycan Respublikası Nazirlər Sovetinin 24 iyun 1982-ci il tarixli 335 saylı qərarına əsasən yaradılmış, 3 oktyabr 1983-cü ildə 161 nömrəli məktəbin binasında fəaliyyətə başlamışdır. 1985-ci ildə Respublika Mərkəzi Müəllimlər İnstitutunun binasına köçürülmüşdür [5, 25].

Azərbaycan Respublikası üzrə elmi-pedaqoji ədəbiyyatın milli kitabsaxlayıcısı, Təhsil Nazirliyinin çoxsaylı kitabxanalarının elmi-metodik mərkəzi funksiyalarını yerinə yetirən, təhsil ocaqlarında

çalışan və ya təhsil alan yüz minlərlə oxucunun kitabxanalara olan ehtiyaclarını vahid istiqamətə yönəldən və ədəbiyyatla təmin edən Respublika Elmi Pedaqoji Kitabxanası yarandığı 25 il ərzində bir sıra çətinliklərə və maneələrə baxmayaraq öz işini layiqincə yerinə yetirirməyə çalışır.

REPK iki dəfə özünün fəaliyyətinin hüquqi elmi təminatını yaradan Əsasnamə qəbul etmişdir. Bu əsasnamələrin birincisi 1983-cü il martın 5-də keçmiş Maarif Nazirliyi tərəfindən, digəri 1993-cü il aprel ayının 8-də, sonuncusu isə 2002-ci ildə Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir [4]. «Respublika Elmi Pedaqoji Kitabxanasının Əsasnaməsi»nin ümumi müddəalarında kitabxananın elmi və sosial funksiyası öz əksini tapır. Əsasnamədə deyilir: «Respubilka Elmi Pedaqoji Kitabxanası elmi sahəvi kitabxanadır. Respublikada təhsil işçilərinə, təhsil sistemində fəaliyyət göstərən mütəxəsislərə, Nazirliyin kitabxana şəbəkəsinə informasiya-biblioqrafiya xidmətini həyata keçirən elmi-metodik və əlaqələndirmə mərkəzidir. REPK-a vahid elmi-pedaqoji informasiya sisteminə daxildir, respublikada elmi-pedaqoji ədəbiyyatın əsas kitabsaxlayıcısıdır». Qeyd etmək lazımdır ki, qəbul edilmiş bir sıra rəsmi sənədlər, görülən tədbirlər, elmi axtarışlar, ölkə hüdudlarından kənarda olan əsaslı kitabxanalarla elmi və mədəni əlaqələr kitabxanada işin təşkilinə müsbət təsir göstərmişdir.

REPK-nın çoxsahəli fəaliyyətinin mühüm qollarından biri Təhsil Nazirliyinin kitabxana sisteminə elmi-metodik rəhbərlik işinin təşkilidir. Kitabxana Təhsil Nazirliyinin 45 milyon fonda malik 5 minə yaxın müxtəlif funksiyalı kitabxanalarına metodik rəhbərlik edir [135, 3]. Bu çətin və məsuliyyətli işin öhdəsindən kitabxananın rəhbərliyi bacarıqla gəlir. Kitabxana Nazirliyin bütün kitabxanalarına elmi-metodik rəhbərlikdə ümumi prinsipləri əsas götürməklə, işin tənzimlənməsini təmin etmək və metodistlərin məsuliyyətini artırmaq, cavabdehlik hissini gücləndirmək üçün zona-ərazi prinsipini əsas götürmüşdür: Bakı, Naxçıvan, Gəncə, Qarabağ, Lənkəran, Sumqayıt, Şirvan (Şamaxı), Sabirabad, Bərdə zonaları. Metodik rəhbərliyin müxtəlif forma və üsullarından bacarıqla istifadə edən kitabxana müxtəlif məsələlərə dair onlarla metodik vəsait və təlimat hazırlayıb çap etdirmiş, problem xarakterli və təcrübi əhəmiyyətli məsələlərə daha çox üstünlük vermişdir. Məsələn, «Azərbaycan Respublikası Təhsil

Nazirilyi sisteminə daxil olan kitabxanalara metodik rəhbərliyin yenidən qurulması» (Bakı, dekabr, 1992), «KBT-nın məktəb kitabxanalarında tətbiq edilməsi» mövzusunda seminar-müşavirələr, «Uşaq və gənclərin kitab həftəsi» ilə bağlı bölgələrdə maraqlı tədbirlər, «Kitabxana və uşaqların bədii tərbiyəsi», «Ümumtəhsil və peşəməktəbi islahatlarının əsas istiqamətləri və məktəblilərə kitabxana-biblioqrafiya xidmətinin təşkili» mövzusunda elmi-praktik konfrans keçirilmişdir. 15 mart 1996-cı ildə «Müasir dövrdə ümumtəhsil və texniki-peşə məktəb kitabxanalarının vəziyyəti və inkişaf problemləri» adlı elmi-nəzəri və təcrübi konfransı Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Kitabxanaçılar Cəmiyyəti ilə birlikdə keçirmişdir [5, 34].

Kitabxananın biblioqrafik fəaliyyəti dedikdə kitabxananın bütün biblioqrafik vasitələrdən istifadə etməklə qarşısına qoyduğu vəzifələri müvəffəqiyyətlə yerinə yetirilməsinin təmin edilməsinə yönəldilmiş tədbirlər kompleksi başa düşülür. Kitabxananın biblioqrafik fəaliyyətinin təşkilinin əsas istiqamətlərini belə ümumiləşdirmək olar: kitabxananın soraq-biblioqrafiya aparatının təşkili; müxtəlif məqsəd və oxucu istiqamətinə malik biblioqrafik vəsaitlərin tərtibi; soraq-biblioqrafiya xidməti; biblioqrafik informasiya xidməti; biblioqrafik biliklərin təbliği; elmi-tədqiqat işi. REPK-da biblioqrafik fəaliyyətin təşkili və gedişi bu vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsinə yönəldilir.

REPK-nın biblioqrafik fəaliyyətinin təşkilində "Elmi informasiya və biblioqrafiya" şöbəsinin çox mühüm rolu vardır: şöbənin işinin müstəqil dövlətimizin və hökumətimizin xalq maarifi, məktəb və kitabxana haqqında qərar və göstərişlərindən irəli gələn vəzifələr əsasında qurulması; respublikamızın dövlət sənədlərinin məktəb kitabxanalarında təbliğinə nail olunması; soraq-biblioqrafiya və biblioqrafik informasiya xidmətinin həyata keçirilməsi; soraq-biblioqrafiya aparatı üzərində iş; pedaqoji kadrlara xalq maarifi və pedaqogikaya dair cari elmi-informasiya, biblioqrafiya işinin təşkili; tövsiyə biblioqrafiya işinin təşkili; xalq maarifi və pedaqogikaya dair retrospektiv xarakterli biblioqrafik göstəricilərin tərtibi; kitabxana-biblioqrafiya biliklərinin fərdi və qrup halında təbliği; ümumi və mövzu kartotekalarının təkmilləşdirilməsi; biblioqrafik sorğuların ödənilməsi; ödənilmiş arayışlar fondunun təkmilləşdirilməsi.

.

Son illər kitabxananın informasiya istifadəçilərinin sayı cədvəldə göstərildiyi kimi olmuşdur.

**Cədvəl 1.**

| **İllər** | **İnformasiya istifadəçilərin sayı** |
|---|---|
| *2000* | *14700* |
| *2001* | *14180* |
| *2002* | *13725* |
| *2003* | *13034* |
| *2004* | *12344* |
| *2005* | *12567* |
| *2006* | *14700* |
| *2007* | *15100* |
| *2008* | *15125* |
| *2009* | *15220* |
| *2010* | *15253* |

Cədvəldən göründüyü kimi, kitabxananın informasiya istifadəçilərinin sayı son beş ildə bir qədər azalmış, və son iki ildə artmağa başlamışdır. Bu da kitabxanın yeni ədəbiyyatla lazımı dərəcədə komplektləşdirilməməsi ilə bağlı olmuş, son illər dövlətin kitabxanalara qayğısı nəticəsində bu məsələ qaydaya düşməyə başlamışdır.

Nümunə üçün REPK-nın 2001-ci il hesabatını götürək. Hesabata əsasən demək olar ki, həmin ildə kitabxanaya 3114 nüsxə ədəbiyyat daxil olmuşdur. Onlardan 3409 nüsxəsi kitablar və 5 nüsxəsi jurnallardır. Daxil olan ədəbiyyatdan 989 nüsxəsi ictimai-siyasi ədəbiyyat, 1200 nüsxəsi pedaqoji ədəbiyyat, 842 nüsxəsi elmlərarası ədəbiyyat, 383 nüsxəsi isə digər sahələr üzrə ədəbiyyat olmuşdur. 2001-ci ildə alınmış ədəbiyyatın 1464 nüsxəsi Azərbaycan, 1950 nüsxəsi isə rus dilində olan ədəbiyyatdır. 12567 nəfər oxucusu olan REPK-da ildə yuxarıda göstərilən miqdarda ədəbiyyatın daxil olması nisbətən aşağı göstəricidir [4].

Müxtəlif məzmunlu sorğuların yerinə yetirilməsində, pedaqoji elmlərin biblioqrafik informasiya təminatında REPK-da təşkil olunmuş soraq-biblioqrafiya aparatının mühüm əhəmiyyəti vardır. Elmi-metodik əsaslarla təşkil olunmuş soraq-biblioqrafiya aparatı

kitabxanın bütün biblioqrafik fəaliyyətinin zəruri əsasıdır. Onun köməkliyi ilə informasiya istifadəçilərinə soraq-biblioqrafiya, biblioqrafik informasiya xidməti həyata keçirilir, kitabxana-biblioqrafiya bilikləri təbliğ edilir, kitabxana işçiləri tərəfindən tərtib olunan biblioqrafik vəsaitlər üçün ədəbiyyatın biblioqrafik axtarışında mühüm mənbə olur.

Məlumdur ki, soraq-biblioqrafiya aparatının quruluşu bütün kitabxanalarda eyni şəkildə olmur. O, kitabxanalarda biblioqrafik işin təşkili səviyyəsinə, kitabxananın profilinə uyğunlaşdırılır. Soraq-biblioqrafiya aparatının həcmi və tərkibi kitabxananın profilinə tamamilə uyğundur. Soraq-biblioqrafiya aparatını tərtib etməkdə əsas məqsəd REPK-nın fondunun məzmununu tam açmaqdan ibarətdir. Fondun həcmindən, kitabxananın tipindən və profilindən asılı olmayaraq soraq-biblioqrafiya aparatının tərkibinə aşağıdakı əsas hissələr daxildir:

1) Soraq və biblioqrafik nəşrlər fondu;

2) Kataloq və kartoteka sistemi.

Fəaliyyət göstərdiyi 25 ildə kitabxana zəngin soraq-biblioqrafiya aparatı yarada bilmişdir. Bu işdə kitabxanın «Elmi informasiya və biblioqrafiya», «Elmi kitabişləmə» və «Kitab mübadiləsi» şöbələrinin xüsusi rolu vardır.

Soraq-biblioqrafiya aparatının mühüm tərkib hissələrindən biri olan soraq və biblioqrafik nəşrlər fondu kitabxananın informasiya potensialının əsas daşıyıcısı hesab olunur. Biblioqrafik fəaliyyət haqqında Dövlət Standartında (QOST.7.0-84) göstərilir ki, «soraq və biblioqrafik nəşrlər fondu biblioqrafik fəaliyyətin bütün prosesləri üçün zəruri olan kataloq və kartoteka kartoçkaları istisna olmaqla, özündə əsas və direktiv xarakterli materialları, məlumat nəşrlərini və biblioqrafik vəsaitləri əhatə edən kitabxananın soraq-biblioqrafiya aparatının bir hissəsidir».

Soraq və biblioqrafik nəşrlər fondu soraq-biblioqrafiya aparatının tərkib hissəsi kimi biblioqrafik fəaliyyətin bütün proseslərinin həyata keçirilməsi üçün vacib olan əsas və direktiv xarakterli materialları, məlumat nəşrlərini, biblioqrafik nəşrləri, universal və sahəvi biblioqrafik vəsaitləri özündə əks etdirir. Kitabxananın soraq və biblioqrafik nəşrlər fondunda əsas və direktiv materiallar kimi Azərbaycan Respublikasının Konstitusiyası, dövlətin qərarları,

qanunları, məcmuələri, müxtəlif rəsmi sənədlər, görkəmli dövlət xadimlərinin əsərləri, həmçinin xalq maarifinə dair qərar və qətnamələr toplanır. Bu fondda həm də zəngin məlumat nəşrləri, bibilioqrafik göstəricilər öz əksini tapır. Məlumat nəşrlərinin faktoqrafik materiallarla, rəqəm göstəriciləri̇lə, statistik məlumatlarla, sahəvi terminlərlə zəngin olması mütəxəssislərin sorğularının ödənilməsində mühüm əhəmiyyət kəsb edir.

Soraq və biblioqrafik nəşrlər fondunda toplanmış məlumat nəşrlərindən «Böyük Sovet Ensiklopediyası»nın 1-ci nəşri, ASE-nin tam komplekti (10 cilddə), «Uşaq Ensiklopediyası», «Pedaqoji Ensiklopediya» və başqa sahəvi ensiklopediyalar oxucu sorğularının ödənilməsində mühüm rol oynayır. Müxtəlif xarakterli və məzmunlu lüğətlər («Rusca-Azərbaycanca, Azərbaycanca-rusca» (3 cilddə), «Azərbaycan dilinin izahlı lüğəti», «Pedaqogika və psixologiya terminləri lüğəti» «Azərbaycan türkcəsi sözlüyü» (2 cilddə), «Alman-rus maliyyə krediti lüğəti», «Hüquq terminlərinin izahlı lüğəti», «Rus-ingilis-ingilis-rus izahlı lüğəti», «Diplomatiya lüğəti»), müxtəlif dillərdə danışıq kitabları informasiya istifadəçilərinin biblioqrafik təminatında mühüm rol oynayır. Soraq və biblioqrafik nəşrlər fondunda olan qiymətli nəşrlərdən biri də pedaqogika sahəsinə aid terminlər lüğətidir. Belə lüğətlərdən biri «Pedaqogika və psixologiya terminləri lüğəti» 1958-ci ildə Azərbaycan MEA-da nəşrə hazırlanmış və nəşr olunmuşdur.

Terminologiya məsələləri pedaqogika elminin aktual problemlərindən biridir. Pedaqoji terminologiya pedaqogika elminə aid olan mühüm anlayışları- pedaqoji proses, fakt və hadisələri leksik-terminoloji vahidlər vasitəsilə əks etdirir. Hal-hazırda cəmiyyətdə gedən ictimai-siyasi proseslər, köklü və əsaslı dəyişikliklər pedaqoji terminologiyada da öz təsirini göstərmişdir. Pedaqoji terminlərin bir hissəsi köhnəlmiş, istər-istəməz ana dilimizin lüğət tərkibindən çıxmağa başlamışdır. Bir sıra pedaqoji anlayış və və proseslərin adı isə yeniləşdirilmişdir. Bunu nəzərə alan Azərbaycan Dillər Universitetinin pedaqogika kafedrasının əməkdaşları 2005-ci ildə «Azərbaycan milli izahlı ensiklopedik pedaqoji lüğət» hazırlamışlar. Lüğətin hazırlanmasında əsas məqsəd nəzəri və əməli pedaqoji fəaliyyətdə işlədilən başlıca məhfumların mahiyyətinə aydınlıq gətirmək, pedaqoji məhfumların həm təlim-tərbiyə iştirakçıları, pedaqoji elm nümayən-

dələri, eyni zamanda ictimaiyyət tərəfindən, birmənalı başa düşülməsinə nail olmaqdır. Yeni lüğət pedaqoji elmlərin biblioqrafik informasiya təminatında da mühüm rol oynayır. REPK-nın soraq biblioqrafik nəşrlər fondunda bu lüğət mühüm yer tutur və pedaqogika sahəsinə aid yeni ensiklopedik nəşrlərə, sözlüyə və pedaqoji lüğətlərə böyük ehtiyac var.

İnformasiya istifadəsilərinin sorğularının ödənilməsində biblioqrafik göstəricilərin əvəzsiz rolu vardır. Bu biblioqrafik vəsaitlər cari, retrospektiv və tövsiyə xarakterli göstəricilərdir. Ümumi xarakterli göstəricilərdən Kitab Palatasının orqanı olan «Azərbaycan mətbuat salnaməsi» və «Birillik Azərbaycan kitabiyyatı»nın 1985-ci ilə kimi olan buraxılışlarını, ümumi repertuar tipli «Azərbaycan kitabı»nın (1780-1920) I cildini (1963), «Azərbaycan kitabı»nın (1920-1940) (1982) II cildinin I kitabını misal göstərə bilərik. Fondda «Elmi informasiya və biblioqrafiya» şöbəsinin hazırlayıb çap etdirdiyi "Yeni kitablar. Xalq maarifi. Pedaqogika. Pedaqoji elmər" cari və retrospektiv informasiya bülleteni xüsusi yer tutur. Bu informasiya göstəricisi bu gün artıq çap olunmasa da oxucuların retrospektiv məlumat axtarış mənbəyi kimi öz əhəmiyyətini qoruyub saxlamışdır.

Soraq və biblioqrafik nəşrlər fondunda «V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu: Qiyabi şöbə üzrə vəsait nəşrinin sistemli göstəricisi (1938-1962): mülahizəli tövsiyə ədəbiyyat göstəricisi / Tərtib ed.: Ş.Hüseynova (1963); F.A.Rüstəmovun «Azərbaycan pedaqoji biblioqrafiyası: Məktəb və pedaqogika tarixinə dair ədəbiyyat (1940-1990-cı illər)» (1995) adlı sırf sahəvi retrospektiv biblioqrafik göstəricisi və s. xüsusi yer tutur. Fondda tanınmış pedaqoq alimlərə həsr olunmuş şəxsi biblioqrafik göstəricilər də toplanmışdır. Bunlardan «Əhməd Seyidov» (1990), «Professor H.M.Əhmədovun əsərlərinin izahlı biblioqrafiyası» (1990), «Akademik Mehdi Mehdizadə» (1992), «Zahid İbrahim oğlu Qaralov» (1994), «Yəhya Şəfi oğlu Kərimov» (1997), «Akademik Hüseyn Mustafa oğlu Əhmədov» (1997), «Professor Vidadi Xəlilov» (1999), «Professor Rəfiqə Mustafayeva» (2007) başqa vəsaitləri göstərə bilərik.

Hazırda soraq-biblioqrafik nəşrlər fondunda 3230 adda müxtəlif xarakterli soraq ədəbiyyatı və biblioqrafik mənbələr toplanmışdır [4].

.

Soraq və biblioqrafik nəşrlər fondunun tərkib hissələrindən biri də ödənilmiş arayışlar fondudur. «Ödənilmiş arayışlar fondu kitabxananın soraq-biblioqrafik nəşrlər fondunun bir hissəsi olub, özündə əvvəllər yerinə yetirilmiş yazılı biblioqrafik arayışların surətini cəmləşdirir» (QOST 7.0-84). Kitabxana müntəzəm olaraq ayrı-ayrı oxuculardan daxil olmuş sorğular əsasında yazılı arayışlar tərtib edir. Həmin mövzularda sorğuların ola biləcəyini nəzərə alaraq, vaxta qənaət etmək məqsədilə ödənilmiş arayışların bir nüsxəsini bu fondda saxlayır. İstifadəçi sorğusu əsasında bir sıra mövzularda arayışlar tərtib olunmuşdur. Bunlardan «Təhsil konsepsiyası», «DQMR-nın problemləri, «Tərbiyə nəzəriyyəsi», «Ailə tərbiyəsi», «Kiçikyaşlı məktəblilərin psixoloji xüsusiyyətləri», «Ümumtəhsil məktəblərində fənlər arası əlaqənini təşkili xüsusiyyətləri», «Ümumtəhsil məktəblərində beynəlmiləl tərbiyə», «Pedaqoji kadrların şəxsi təhsili» və s. arayışları qeyd etmək olar.

Qeyd etdiyimiz kimi, soraq-biblioqrafiya aparatının ikinci tərkib hissəsi kataloq və kartoteka sistemidir. Kataloq və kartoteka sistemi biblioqrafik işin ümumi strukturunda mühüm yer tutur və biblioqrafik xidmətin əhatə dairəsinin genişləndirilməsində vacib məsələlərdən biri hesab edilir. REPK-nın kataloq və kartoteka sisteminə aşağıdakılar daxildir: 1. Baş kataloq (Azərbaycan, rus və xarici dillərdə); 2. Əlifba kataloqu (Azərbaycan, rus və xarici dillərdə); 3. Sistemli kataloq (Azərbaycan, rus və xarici dillərdə); 4. Jurnal və qəzet məqalələrinin sistemli kartotekası; 5. Jurnal və qəzet məqalələrinin mövzu kartotekası; 6. Dissertasiyaların və avtoreferatların kartotekası; 7. Mikrofiş və mikrofilmlərin kartotekası.

Kitabxanada tərtib olunmuş əlifba kataloqu müəllif və sərlövhə üzrə axtarışı asanlaşdırırsa, sistemli kataloq mövzu üzrə axtarışı təmin etmiş olur.

Soraq-biblioqrafiya aparatının mühüm komponentlərindən biri də biblioqrafik kartotekalardır. Kartotekalarda geniş miqyasda müxtəlif nəşrlərdən materialların analitik təsviri verilir. Onlar bir tərəfdən soraq-biblioqrafiya aparatının müstəqil hissəsi olub, ona daxil olan sənədlərin mövzusuna, məzmununa və növünə, məqsəd və oxucu istiqamətinə və digər parametrlərə görə tez-tez dəyişə bilərlər.

Əks etdirdiyi məlumatın çoxluğuna görə əsas yeri jurnal və qəzet məqalələrinin sistemli kartotekası tutur. Bu kartoteka oxucuların ən

çox müraciət etdikləri kartotekadır. Bununla əlaqədar olaraq son illərdə kartoteka xeyli zənginləşdirilmiş, rubrikaların sayı xeyli artmışdır. Məsələn, 1996-cı ildə 18, 1997-ci ildə 21, 1998-ci ildə 28, 1999-cu ildə 33, 2000-ci ildə 36, 2001-ci ildə 30, 2002-ci ildə 38, 2003-cü ildə 39, 2004-cü ildə 41 yeni rubrika açılmışdır [4].

Kitabxanada fəaliyyət göstərən mövzu kartotekaları mühüm siyasi, elmi, mədəni əhəmiyyəti olan hadisələrələ əlamətdar tarixi günlərlə, yubileylərlə əlaqədar olaraq təşkil edilir. Məsələn 20 yanvar hadisələri, Xocalı soyqırımı, Qarabağ müharibəsi, Azərbaycan Demokratik Respublikası, Azərbaycanın Avropa Şurasına qəbulu, Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu, Təhsil haqqında Azərbaycan Respublikasının «Qanunu»nun müzakirəsi və s. onlarla bu kimi aktual mövzularda təşkil olunmuş kartotekaları misal göstərmək olar.

Alim və mütəxəssislərin, elmi tədqiqat işi ilə məşğul olan oxucların ən çox müraciət etdikləri kartoteka dissertasiyaların avtoreferatları kartotekasıdır. Belə ki, pedaqoji elmlər üzrə aparılan elmi-tədqiqat işlərinin nəticələri dissertasiyalarda öz əksini tapır. Ona görə də hər bir mütəxəssis hər hansı bir problem üzərində işləyərkən ilk növbədə dissertasiyaların, mikrofiş və mikrofilmlərdə olan elmi işlərin kartotekasına müraciət edir. Kitabxananın hesabatından aydın olur ki, həmin kartoteka mütəxəssisəlrin biblioqrafik informasiya təminatında mühüm bazadır.

REPK-da biblioqrafik işin təşkili sahəsində oxucular arasında biblioqrafik biliklərin təbliği də mühüm əhəmiyyətə malikdir. Biblioqrafik biliklərin təbliğində əsas məqsəd kitabxananın kataloq və kartoteka sistemindən, müxtəlif biblioqrafik mənbələrdən oxucuların istifadəsini asanlaşdırmaq və bununla da onları fəal axtarışa cəlb etməklə artıq vaxt itkisinin qarşısını almaqdır.

Göründüyü kimi, REPK tələbatçı sorğularını hərtərəfli təmin etmək məqsədilə mükəmməl soraq-biblioqrafiya aparatı yaratmış, onu daha da təkmilləşdirmək üçün mövcud imkanlardan bacarıqla istifadə edə bilmişdir. Bununla belə son illərdə yeni ədəbiyyatın az miqdarda və qeyri-müntəzəm daxil olması ilə əlaqədar olaraq dövri mətbuata abunə yazılışının, xarici kitab və jurnalların alınmasının məhdudluğu soraq-biblioqrafiya aparatında yeni nəşrlərin əks olunmasında bir sıra maneələr yaradır.

REPK-da sənədlərin emalı prosesində, o cümlədən biblioqrafik informasiyanın işlənməsində yeni texnologiyalar tətbiq olunur, kompüter texnikasından istifadə edilir. İlk növbədə kitabxanaya yeni daxil olan nəşrlərin biblioqrafik təsvirləri beynəlxalq maşın formatı (UNIMARK) və proqram təminatı əsasında kompüterə daxil edilir. Bu əsasda REPK-nın biblioqrafik məlumat bazası yaradılır, onun gələcəkdə beynəlxalq şəbəkə sisteminə qoşulması nəzərdə tutulur, soraq-biblioqrafik aparatın retromassiv hissəsi də xronoloji ardıcıllıqla bazaya daxil edilir. Bu, biblioqrafik axtarışı asanlaşdırır, vaxt itkisinin qarşısını alır, istifadəçilərə operativ biblioqrafik xidmət göstərilməsinə şərait yaradır.

Məlumdur ki, biblioqrafik fəaliyyət biblioqrafiyalaşdırma və biblioqrafik xidmətdən ibarət iki əsas prosesi özündə birləşdirir. Onların da özlərinəməxsus metodik əsasları vardır. Biblioqrafiyalaşdırma biblioqrafik informasiyanın hazırlanması və biblioqrafik vəsait formasına salınması prosesidir. Biblioqrafik xidmət prosesinin əsas mahiyyəti isə biblioqrafik informasiyanı istifadəçiyə çatdımaqdan ibarətdir. Son illər biblioqrafik xidmətlə əlaqədar çap olunmuş nəzəri mənbələrdə onun iki qaydada aparıldığı qeyd olunur: 1. Soraq-biblioqrafiya xidməti; 2. Biblioqrafik informasiya xidməti. REPK-da da biblioqrafik xidmət bu qaydalara uyğun gəlir.

Kitabxanada aparılan biblioqrafik xidmətin əsas qaydalarından biri soraq-biblioqrafiya xidmətidir. Soraq-biblioqrafiya xidmətinin operativliyi və keyfiyyəti bir sıra amillərdən asılıdır. Bu amillər kitabxananın informasiya potensialından, soraq-biblioqrafiya aparatının vəziyyətindən, biblioqrafın hazırlığından və təcrübəsindən, istifadəçinin savadından və s. Ibarətdir. Soraq-biblioqrafiya xidməti istifadəçilərin birdəfəlik sorğularına uyğun olan biblioqrafik xidmətdir. Birdəfəlik sorğunun və ona verilən cavabın mövcudluğu soraq-biblioqrafiya xidmətinin xarakterik və məcburi xüsusiyyətləridir. Kitabxanada soraq-biblioqrafiya xidmətinin daha ümumi formada mahiyyəti «tələbatçının sorğusu-biblioqrafın cavabı» münasibətində özünü göstərir və burada da birinci ünsür prosesin başlanğıcı, ikincisi isə nəticəsidir [3].

Soraq-biblioqrafiya xidməti istifadəçilərin birdəfəlik sorğusu əsasında həyata keçirilir. Kitabxanaya daxil olan müraciət sorğu, ona verilən cavab isə arayış adlandırılır. Elmin son nailiyyətləri, ayrı-ayrı

elm sahələrinə dair problemlərlə bağlı REPK-ya daxil olan sorğuların və ona cavab olaraq tərtib edilən arayışların sayı gündən-günə artır. REPK-da hər il 5-6 minə qədər şifahi və yazılı arayış yerinə yetirilir [127]. Buna "Azərbaycan Demokratik Respublikası dövründə maarif və mədəniyyət", "Azərbaycan məktəblərində tərbiyə işinin təşkili", "Xalq təhsilinin idarəetmə sisteminin yeniləşdirilməsi haqqında", "Respublika dövri mətbuatında xalq təhsili haqqında materiallar" və s. mövzularındakı arayışları misal göstərmək olar. Kitabxanada şifahi arayışlara nisbətən yazılı arayışlar az yerinə yetirilir. Belə ki, 1996-ci ildə 6000 biblioqrafik arayış (onlardan 5950 şifahi, 50 yazılı), 1997-ci ildə 5300 biblioqrafik arayış (5220 şifahi, 80 yazılı), 1998-ci ildə 5000 biblioqrafik arayış (4950 şifahi, 50 yazılı), 1999-cu ildə 2500 biblioqrafik arayış (2460 şifahi, 40 yazılı), 2000-ci ildə 2876 biblioqrafik arayış (2856 şifahi, 20 yazılı), 2001-ci ildə 4640 biblioqrafik arayış (4600 şifahi, 40 yazılı), 2002-ci ildə 6005 biblioqrafik arayış (5970 şifahi, 35 yazılı), 2003-cü ildə 4720 biblioqrafik arayış (4665 şifahi, 55 yazılı), 2004-cü ildə 5000 biblioqrafik arayış (4950 şifahi, 50 yazılı), 2005-ci ildə 3260 biblioqrafik arayış (3220 şifahi, 40 yazılı) yerinə yetirilmişdir [4].

REPK-da həyata keçirilən biblioqrafik xidmətin əsas istiqamətlərindən biri də biblioqrafik informasiya xidmətidir. Biblioqrafik informasiya xidməti fonda yeni daxil olan ədəbiyyat haqqında tələbatçıya onun sorğusunu gözləmədən və ya daimi sorğulara uyğun olaraq operativ cari biblioqrafik informasiya çatdırmaq məqsədini güdür. Biblioqrafik informasiya xidmətinin özünün də iki növünü fərqləndirmək olar: fərqli (fərdi, qrup); fərqləndirilməyən (kütləvi). Fərqli biblioqrafik informasiya xidməti müəyyən qrup mütəxəssislərin sorğusu əsasında həyata keçirilən biblioqrafik xidmətdir. REPK-da informasiya xidmətinin tərkib hissəsi olan fərqli biblioqrafik informasiya xidmətindən geniş istifadə olunur. Fərqli informasiya xidmətini daha səmərəli təşkil etmək məqsədilə informasiya istifadəçilərin soraq və tələbatları diqqətlə öyrənilir. Bu sahənin oxucu qrupu say etibarilə azlıq təşkil edir. Lakin maarif, mədəniyyət, elm və texnikanın inkişafında, ölkənin elmi potensialının möhkəmləndirilməsində alim və mütəxəssislərin tarixi xidmətlərini heç nə ilə müqayisə etmək olmaz. REPK-da hazırda 352 nəfər fərdi abonentə xidmət göstərilir. Bunlardan 79 nəfəri Təhsil Nazirliyinin

rəhbər işçiləri, 76 nəfəri Azərbaycan Müəllimlər İnstitutunun işçiləri, 86 nəfəri Təhsil Problemləri İnstitutunun rəhbər işçiləri, 111 nəfəri pedaqogika sahəsinin mütəxəsisləridir [4].

Müasir şəraitdə fərqli biblioqrafik informasiya xidmətinin ən səmərəli formalarından biri "İnformasiyanın seçilmiş yayılması" sistemidir. Bu sistem vasitəsilə informasiya istifadəçilərinə informasiya ilə bərabər əks əlaqə talonları da göndərilir. Informasiya istifadəçisi talonda göndərilən informasiyanın nə dərəcədə əhəmiyyətli olduğunu qeyd edib kitabxanaya geri qaytarır. Əks əlaqə talonu təhlil edilərək göndərilmiş informasiyanın nə qədər əhəmiyyətli olduğu və informasiya istifadəçisinin maraq dairəsi öyrənilir. Təəssüflə qeyd etmək lazımdır ki, informasiya orqanlarında, o cümlədən kitabxanalarda geniş tətbiq edilən bu metod REPK-da az tətbiq olunur. Halbuki bu üsul vasitəsilə istifadəçilərin tələbatları daha dərindən öyrənilə, göndərilmiş informasiyanın operativliyi qiymətləndirilə bilər.

Fərqləndirilməyən (kütləvi) biblioqrafik informasiya xidməti istifadəçiləri nəzərə almayan sorğusuz xidmətdir. Fərqləndirilməyən (kütləvi) biblioqrafik informasiya xidmətinin əsas vəzifəsi kitabxanaya daxil olan yeni ədəbiyyat haqqında istifadəçilərə müntəzəm məlumat verməkdən ibarətdir. Bu xidmət növü kitabxanaya daxil olan sənəd axınına və kitabxananın cari informasiya fonduna əsaslanır.

Pedaqoji sahə üzrə cari biblioqrafiyanın məqsədi yeni çapdan çıxan sənədlər haqqında operativ, ardıcıl biblioqrafik informasiya verməkdən ibarətdir. Cari biblioqrafiya istifadəçilərə öz sahələri haqqında sənəd axınını ardıcıl izləməyə imkan verir. Kitabxana 1983-cü ildən fonda daxil olan yeni ədəbiyyat haqqında cari elmi-köməkçi biblioqrafik vəsaitlər hazırlayıb istifadəçilərə göndərir. REPK bu göstəriciləri müntəzəm olaraq respublikanın bütün bölgələrinə – 82 rayon və şəhər təhsil şöbələrinin metodkabinələrinə göndərmişdir [5,9]. Təəssüflə qeyd etməliyik ki, bu göstəricilərin nəşri maliyyə çətinliyinə görə 1992-ci ildən dayanmışdır. Bu da sahənin istifadəçilərin biblioqrafik informasiya təminatında ciddi problemlər yaradır.

Beləliklə, təhsil işçilərinin, təhsil sistemində fəaliyyət göstərən mütəxəsislərin biblioqrafik informasiya təminatında REPK-nın böyük rolu vardır. Kitabxanada sahə mütəxəssislərinə biblioqrafik xidmətin müxtəlif forma və metodlarından istifadə olunur, müxtəlif oxucu qruplarına biblioqrafik xidmət göstərməzdən əvvəl mütləq onların

.

maraq dairəsi hərtərəfli öyrənilir və bunun əsasında biblioqrafik fəaliyyət təşkil edilir.

Lakin sahə mütəxəssislərinin biblioqrafik təminatı onların tələbatına müəyyən dərəcədə uyğun gəlmir. Bu isə son dövrdə iqtisadi çətinliklə bağlı kitabxanaya yeni nəşrlərin az daxil olması ilə əlaqədardır. Bu məqsədlə REPK ölkəmizdə fəaliyyət göstərən xarici səfirliklər və daimi nümayəndəliklərlə əlaqə yaratmışdır. Bu qurumlar öz ölkələrinin mədəniyyət, maarif, kitabxana quruculuğu, biblioqrafiya işi haqqında materialları və bir sıra digər informasiya mənbələrini tez-tez kitabxanaya göndərir ki, bu da işin ümumi səviyyəsini artırır. Bu əlaqələr EXXON, VR AMOKO, AIDS şirkətləri ilə daha çox inkişaf etdirilir. Həmçinin ABŞ Ticarət Palatası və Açıq Cəmiyyət İnstitutu Soros fondu ilə REPK-nın sıx əlaqələri mövcuddur. Soros fondu xətti ilə uşaqların intellektual səviyyəsinin inkişafı üçün nəşr olunmuş kitablar, uşaqların hüquqlarına həsr edilmiş Cenevrə Konvensiyası materialları və onlara aid metodik ədəbiyyat son illərdə kitabxanaya daxil olmuşdur. Soros fondu kitabxanaya müasir texniki vasitələr də bağışlamışdır.

REPK-nı Azərbaycanda pedaqoji elmlər üzrə biblioqrafik fəaliyyət mərkəzi kimi səciyyələndirərkən belə qənaətə gəlmək olar ki, hələ bu sahədə çox iş görmək lazımdır. Xüsusilə sahə mütəxəssislərinin informasiya təminatının operativliyi və ardıcıllığının artırılması; biblioqrafik təminatı daha da operativləşdirmək üçün cari biblioqrafik, eləcə də irihəcmli retrospektiv elmi-köməkçi biblioqrafik vəsaitlər sisteminin həm mövzu baxımından, həm də məqsəd istiqaməti nöqteyi-nəzərindən daha da genişləndirilməsi və yenilərinin yaradılması; müntəzəm olaraq sahə mütəxəssislərinin informasiya tələbatlarının öyrənilməsi və bunun əsasında biblioqrafik fəaliyyətin təşkil edilməsi; pedaqoji sahə üzrə elektron kataloqun, biblioqrafik verilənlər bazasının yaradılması; sahə mütəxəssislərinin biblioqrafik təhsil sisteminin təşkili qarşıda duran mühüm məsələlərdəndir və bu da yeni informasiya texnikasının və texnologiyalarının daha geniş tətbiq olunmasını tələb edir. Doğrudur, son illər pedaqoji sahə mütəxəssislərinin biblioqrafik informasiya təminatında aparıcı müəssisə olan REPK-da kompüter texnologiyasından istifadə olunmağa başlamış, burada kompüter mərkəzi yaradılmış, kitabxana-informasiya sistemləri ilə əlaqələr qurulmuş, informasiya istifadəçilərinin İNTERNET şəbəkəsi vasitəsilə

.

yeni informasiya əldə etməsi üçün şərait yaradılmışdır. Kitabxanada elektron məlumat bazası yaradılmış, lokal şəbəkəyə daxil olan hər bir kitabxana üçün kompüterdə ayrıca səhifə təşkil edilmiş və belə səhifələrdə lap ucqar məktəb kitabxanası haqqında da informasiya toplanmışdır. Sorğu əsasında hər hansı bölgənin məktəb kitabxanasının kitabxanaçısının adı, soyadı, təhsili, kitabxananın fondu, oxucu tərkibi haqqında kompüter texnikası vasitəsilə informasiya almaq olar. REPK-nın biblioqrafik fəaliyyət mərkəzi kimi bölgələrlə əlaqələr möhkəmləndirilməli və orada da yeni texnologiyaların tətbiqinə çalışılmalıdır.

## ƏDƏBİYYAT


1. *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu: İnstitutun 75 illik yubileyinə həsr olunur / Elmi red.: A.Mehrabov, red.: Y.Kərimov. Bakı: TTM, 2006, 308 s.*
2. *Əliyev Z.H. Azərbaycan biblioqrafiyasının tarixi: Dərslik. Bakı, 2007, 185 s.*
3. *Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti. Bakı, 2001, 143 s.*
4. *Respublika Elmi Pedaqoji Kitabxanasının 2000-2007-ci il hesabatları.*
5. *Zəngibasarlı M., İsmixanova T., Mirzəyev V. Azərbaycan Respublikası Elmi Pedaqoji Kitabxanası. Bakı, 1997, 89 s.*
6. *http: // www.repk.azdata.orq;*



**Х.Т. АГАЕВА**


## БИБЛИОГРАФИЧЕСКАЯ – ИНФОРМАЦИОННАЯ ОБЕСПЕЧЕНИЕ ОБРАЗОВАТЕЛЬНОЙ СИСТЕМЫ

## РЕЗЮМЕ


В статье предоставлен анализ деятельности основных центров занимающехся библиографическая- информАционным обеспечением образования. Даны сведения о библиографической деятельности Научной библиотеке Института Проблем Образования и Республиканской Научно-Педагогической библиотек.

.

**X.T.AGAYEVA**

**THE SYSTEM OF BIBLIOGRAPHY - INFORMATION OF THE EDUCATION**

**SUMMARY**

The paper provided an analysis of the major centers engaged in bibliographic and information provision of education, are given information about bibliographic activities of Scientific Library of the Research Institute of Education Issues and the Republican Scientific Pedagogical Library.

.

**İradə BAYRAMOVA**
***Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi***

# AZƏRBAYCAN RESPUBLİKASININ REGİONLARINDA KƏND ƏHALİSİNİN KİTABXANA-İNFORMASİYA TƏMİNATININ TƏŞKİLİ

***Açar sözlər:*** kitabxana-informasiya təminatı, müxtəlif növ kitabxanaların kadr təminatı, kitabxanaların maddi-texniki bazası, informasiya resurslarının yerləşməsi vəziyyəti;

***Ключевые слова:*** библиотечно-информационного обеспечения, кадровая обеспечения для различных типов библиотек, статус расположение информационных ресурсов, материально-технической базы библиотек;

***Keywords:*** library-information provision, cadr provision for different type of libraries, location status of information resources, material and technical basis of libraries.

Azərbaycan Respublikası müstəqilliyini yenidən bərpa etdikdən sonra kitabxana-informasiya sahəsinin inkişafına, informasiya cəmiyyətinin tələbləri səviyyəsində kitabxana infrastrukturunun yenidən qurulmasına, kitabxanaların maddi-texniki bazasının daha da möhkəmləndirilməsinə və onlarda müasir informasiya texnologiyalarının təşkil olunmasına dövlət qayğısı artmağa başladı. Bu qayğı son illərdə ölkə rəhbəri tərəfindən regionların inkişafına dair verilmiş Dövlət Proqramları çərçivəsində aparılan islahatlarda və bu islahatların yerinə yetirilməsi üçün ayri-ayri regionların inkişaf strategiyasına uyğun olaraq, verilmiş sərəncamlarda özünü göstərmişdir.

Azərbaycanda kitabxanaların cəmiyyətin həyatındakı mühüm rolunu qiymətləndirərkən “Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikasının Prezidentinin 20 aprel 2007-ci il tarixli sərəncamında qeyd edildiyi kimi, “Azərbaycan kitabxanaları Azərbaycan xalqının milli sərvətidir. Xalqımızın yaratdığı qiymətli tarixi-mədəni,ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəsilə çatdırılmasında və cəmiyyətimizin

.

intellektual-mənəvi potensialının artırılmasında əvəzsiz rol oynayır" (4). Regionlarda iqtisadiyyatın müxtəlif sahələrinin inkişafını təmin etmək və iqtisadiyyatın qeyri-neft sektorunun inkişafını sürətləndirmək, əhalinin məşğulluğunu artırmaq və.s. üçün, yeni strategiyanın həyata keçirilməsinə ehtiyac var idi. Bu məqsədlə, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" təsdiq edildi. Eyni zamanda, Quba-Xaçmaz, Şəki-Zaqatala, Dağlıq Şirvan, Lənkəran, Aran, Gəncə-Qazax və Yuxarı Qarabağ iqtisadi rayonlarına daxil olan şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə olaraq 17 sərəncam imzalandı.(1) Bu sərəncamın verilməsindən keçən vaxt ərzində regionlarda, qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsi, istehsal və infrastrukturun müasir tələblərə uyğun yenidən qurulması, xalqın rifah halının yaxşılaşdırılması istiqamətində işlər davam etdirilmiş, ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə edilmişdir. Sosial-iqtisadi inkişaf sahəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi əhalinin həyat səviyyəsinin yüksəlməsində mühüm rol oynamışdır. Dövlət Proqramından da məlum olduğu kimi, Azərbaycan Respublikası 10 iqtisadi rayona bölünür.Bu iqtisadi rayonlar aşağıdakılardır: Abşeron iqtisadi rayonu; Gəncə-Qazax iqtisadi rayonu; Aran iqtisadi rayonu; Quba-Xaçmaz iqtisadi rayonu; Şəki-Zaqatala iqtisadi rayonu; Dağlıq Şirvan iqtisadi rayonu; Lənkəran iqtisadi rayonu; Naxçıvan iqtisadi rayonu; Kəlbəcər-Laçın iqtisadi rayonu; Yuxarı Qarabağ iqtisadi rayonu. Bu iqtisadi rayonları özlərinin potensialına, təbii sərvətlərinin miqyasına, məşğulluq səviyyəsinə görə bir-birindən fərqlənir. İqtisadi, coğrafi və tarixi baxımdan iqtisadi rayonları fərqləndirən amillər əsasən aşağıdakılardır: iqtisadi coğrafi mövqeyi, təbii şəraiti və ehtiyatları, əhalinin məskunlaşması səviyyəsi, regionun sahə və ərazi quruluşu, tarixi inkişaf xüsusiyyətləri.

Azərbaycan Respublikası Prezidenti "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında" 14 aprel 2009-cu il tarixində Fərman imzaladı (2). Dövlət Proqramında növbəti beş ildə həlli nəzərdə tutulan tədbirlər içərisində regionlararası mədəni əlaqələrin

.

möhkəmləndirilməsi milli mədəniyyətin ümumdünya mədəni proseslərinə inteqrasiyası, Azərbaycan Respublikasının mədəni irsinin qorunmasının təmin edilməsi, o cümlədən daşınar mədəniyyət sərvətlərinin, muzey fondlarının sayının artırılması, kitabxana fondlarında müasir komplektləşdirmə mexanizminin yaradılması, kitabxanaların informasiya təminatı və ölkə üzrə kitabxana-informasiya kompüter şəbəkəsinin yaradılması və inkişafı və.s. kimi məsələlər də var idi. Regionlarda kitabxana şəbəkələrinin yaradılması və inkişaf etdirilməsi də regionların özünəməxsus oxşar və fərqli əlamətləri əsasında formalaşmışdır. Kitabxana-informasiya ehtiyatlarının yerləşdirilməsi və kitabxana işinin ərazi baxımından təşkili amillərinin tərkibinə aşağıdakılar aiddir: 1) iqtisadi-coğrafi xüsusiyyətləri; 2) demoqrafik amillər; 3) əhalinin yerləşdirmə sistemi; 4) nəqliyyat strukturu; 5) təbii şərait və s. Kitabxana-informasiya ehtiyatlarının yerləşdirilməsinə təsir edən əsas amil isə inzibati-ərazi amili sayılır.(7.s.68) Kitabxana resursunun inkşafında iki istiqamət diqqəti cəlb edir: birincisi, paytaxt və digər şəhərlərdə formalaşmış kitabxana resursları, ikincisi, mərkəzdən uzaq region və digər kiçik yaşayış məntəqələri. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin inkişafını-regionlarda, o cümlədən kənd yerlərində, fəaliyyət göstərən kitabxanaların, regionların fərqli və oxşar xüsusiyyətlərini, kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafını və gələcək perspektivlərini, eləcə də əhalinin demoqrafik və təhsil, mədəni səviyyəsini və.s. nəzərə almaqla təhlil etmək daha məqsədəuyğundur.

Azərbaycan Respublikasının ayrı-ayrı regionlarında, eləcə də Bakı şəhərində və ətraf qəsəbələrdə kitabxana-informasiya sahəsinin inkişafından, gələcək perspektivlərindən bəhs edərkən, bu sahədə 2008-ci il 6 oktyabr tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmış “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”nı xüsusi ilə qeyd etmək lazımdır.(3.S.6-29)Bu sərəncamın yerinə yetirilməsinə uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən 2009-cu il sentyabr ayının 1-dən 10-dək Azərbaycan Respublikasının regionlarında yerləşən kitabxanalarda monitorinq keçirilmişdir. Monitorinqin keçirilməsində əsas məqsəd, əhaliyə göstərilən kitabxana-informasiya xidmətinin

səviyyəsinin yüksəldilməsi, kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində onun dünya standartları səviyyəsinə çatdırılması, elektron informasiya daşıyıcılarının formalaşdırılması və virtual kitabxanaların inkişaf etdirilməsi, kitabxanaların kadr təminatının yaxşılaşdırılması, fasiləsiz təhsilin təmin edilməsinə şərait yaradılması istiqamətində olmuşdur.(5.S.3) Monitorinq zamanı kütləvi, uşaq, gənclər, elmi, elmi-texniki digər ixtisaslaşdırılmış, həmçinin müəssisələrin nəzdində olan 8507 kitabxananın 72,7 faizinin kənd yaşayış məntəqələrində olması məlum olmuşdur. Kitabxanaların növlərinə əsasən bölgüsü aşağıdakı kimidir: Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 46,6%, Təhsil Nazirliyi tabeliyində 50,7%. Bu kitabxanaların iqtisadi rayonlar üzrə bölgüsü isə belədir: Bakı şəhərində 8,4%, Aran iqtisadi rayonunda 23,4%, Gəncə-Qazax iqtisadi rayonunda 14,9%, Abşeron iqtisadi rayonunda 2,1%, Quba-Xaçmaz iqtisadi rayonunda 8,2%, Şəki-Zaqatala iqtisadi rayonunda 9%, Lənkəran iqtisadi rayonunda 11,7%, Naxçıvan iqtisadi rayonunda 5,8%, Dağlıq Şirvan iqtisadi rayonunda 4,9%, Kəlbəcər-Laçın iqtisadi rayonunda 4,5%, Yuxarı Qarabağ iqtisadi rayonunda 7,1%.

Azərbaycan Respublikasında kitabxanaların 111 milyon nüsxədən ibarət olan informasiya resurslarının 80,5%-ni kitablar, 5,4%-ni qəzet və jurnallar, 14,1%-ni isə digər materiallar təşkil edir. Onların 27,2%-i kənd kitabxanalarındadır. Kənd kitabxanalarında informasiya resurslarının 99%-ni kitablar, 0,6%-ni qəzet və jurnallar, 0,4%-ni isə digər materiallar təşkil edir. Kənd kitabxanalarında olan informasiya resurslarının 52,3%-i Mədəniyyət və Turizm Nazirliyinin tabeliyindəki kütləvi kitabxanalardadır. Təhsil Nazirliyi tabeliyində olan ilk peşə-ixtisas təhsil müəssisələrində və ümumtəhsil məktəblərində cəmi 47,2% informasiya resursu var. Nəzərə alsaq ki, musiqi məktəblərində olan kitabxanalar da Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində fəaliyyət göstərir, onda 0,2% informasiya resursunun kənd musiqi məktəbləri nəzdindəki kitabxanalarda yerləşməsi məlim olur. İnformasiya resurslarının 65,5%-i azərbaycan, 31,1%-i rus, 2%-ingilis, 1,4%-i digər dillərdədir. Azərbaycan dilində olan ümumi fondun 71,9%- i latın, 28,1%-i kiril əlifbasındadır. Azərbaycan dilinin latın qrafikasında olan fondun xüsusi çəkisi kənd yaşayış məntəqələrində 56,8%-dir. Kənd kitabxanaları 5,8 %

kompüterlə təchiz edilmişdir. Kənd yaşayış məntəqələrində yerləşən kitabxanalara edilən müraciətlərin 48,3%-i 18 yaşınadək istifadəçilər tərəfindən edilmiş, 65,2%-i kütləvi, 33,5%-i ümumtəhsil məktəbləri, 0,1%-i isə ilk peşə-ixtisas müəssisələrində yerləşən kitabxanalara olmuşdur. Kənd yerlərində Mədəniyyət və Turizm Nazirliyi tabeliyində yerləşən kitabxanalar tərəfindən 18 yaşınadək istifadəçilərə 55,7% kitab verilmişdir. Bu kənd musiqi məktəblərində 73,5%, ümumtəhsil məktəblərində isə 85,9% olmuşdur. Respublika üzrə kitabxanalarda cəmi 8727 nəfər mütəxəssis var. Onların 4129 nəfəri kənd yerlərindəki kitabxanalarda işləyir. Kənd kitabxanalarında işləyən mütəxəssislərin təhsil səviyyəsi aşağıdakı kimidir: ali ixtisas təhsillilər 206 nəfər, ali qeyri-ixtisas təhsillilər 308 nəfər, orta ixtisas təhsillilər 820 nəfər, orta qeyri-ixtisas təhsillilər 635 nəfər, ümumi orta təhsillilər 2160 nəfər. Respublikanın iqtisadi rayonları üzrə ayrı-ayrılıqda, kitabxana resurslarından və kitabxana-informasiya resurslarının yerləşməsi xüsusiyyətlərindən bəhs edərkən, yuxarıda qeyd etdiyimiz kimi, regionların təbii və iqlim şəraitini, sosial-iqtisadi potensialını, əhalinin yaşayış səviyyəsini, milli tərkibini, yaş həddini, təhsil və mədəni səviyyəsini və. s. nəzərə almaq lazımdır.

Azərbaycan Respublikasının regionlarında kitabxana-informasiya resurslarının yerləşməsi vəziyyəti və ondan səmərəli istifadənin perspektivlərinin ümumi mənzərəsi belədir: Abşeron iqtisadi rayonu, Abşeron, Xızı inzibati rayonlarını, Bakı və Sumqayıt şəhərlərini əhatə edir. Əhalinin ümumi sayı 387,9 min nəfər olmaqla ölkə əhalisinin 4,8%-ni təşkil edir. Əhalinin orta sıxlığı hər kv km-ə 116 nəfər təşkil edir və 82,5%-i Bakı şəhərinin, 17,5%-i isə digər inzibati rayonların payına düşür. İqtisadi rayon istər iqliminə, istərsə də iqtisadiyyatın və sənayenin inkişafına görə respublikanın digər inzibati rayonlarından fərqlənir. Əhalinin 89,1%-ni azərbaycanlılar, 5,76%-ni ruslar, qalan 5,2%-ni isə digər milli və etnik qruplar təşkil edir. İqtisadi rayonun əhalisinin 94%-i Bakı və Sumqayıt şəhərlərində təhsil alır. İqtisadi rayon üzrə 182 kitabxana var. Qeyd etmək lazımdır ki, iqtisadi rayonda Abşeron və Xızı rayonları üzrə 79,7% kitabxana Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində fəaliyyət göstərir və bu kitabxanalar da kənd yaşayış məntəqələrində yerləşir. Təhsil Nazirliyi tabeliyində fəaliyyət göstərən kitabxanalar üzrə göstərici belədir: Abşeron rayonu üzrə 64,7%, Xızı rayonu üzrə 55,6%. Abşeron iqtisadi

rayonu üzrə cəmi 3257798 nüsxə informasiya resursu var ki, onun da 36,4%-i Abşeron rayonu üzrə, 47,8%-i Xızı rayonu üzrə kənd yaşayış məntəqələrində yerləşir.(5.S.48) Kənd yaşayış məntəqələrində yerləşən kütləvi kitabxanalarda informasiya resurslarının əsas hissəsini kitablar təşkil edir. İqtisadi rayonun hər iki inzibati rayonunda 10 kompüter var və onların 8-i Abşeron rayonunun, 2-i isə Xızı rayonunun kitabxanalarında yerləşir. İqtisadi rayon üzrə 169 nəfər mütəxəssis var və onların 63 nəfəri Abşeron rayonunun, 24 nəfəri Xızı rayonunun kitabxanalarında çalışır. Bu mütəxəssislərin təhsil səviyyəsi belədir: ali-ixtisas təhsillilər 26 nəfər, ali qeyri-ixtisas təhsillilər 37 nəfər, orta-ixtisas təhsillilər 39 nəfər, orta qeyri- ixtisas təhsillilər 28 nəfər. Abşeron rayonunda kitabxana üzrə ali təhsilli 1 nəfər mütəxəssis olsa da, Xızı rayonunda ali-ixtisas təhsilli mütəxəssis yoxdur. Abşeron rayonunda ali qeyri-ixtisas təhsilli 5 nəfər, orta-ixtisas təhsilli 3 nəfər, Xızı rayonunda ali qeyri-ixtisas təhsilli 2 nəfər, orta-ixtisas təhsilli 1 nəfər mütəxəssis var.(5.S.81) Buradan belə nəticəyə gəlmək olar ki, hər iki inzibati rayonda ixtisaslı kitabxanaçı biblioqraflar azlıq təşkil edir və bu da təbii ki, əhalinin informasiya təminatının həyata keçirilməsində öz mənfi təsirini göstərən amillərdən biridir. Dövlət Proqramının qarşiya qoyduğu vəzifələr sırasında Abşeron və Xızı rayonlarında 2013-cü ilə qədər mədəniyyət obyektlərinin tikintisi və tarix-mədəniyyət abidələrinin bərpası, rayonların yaşayış məntəqələrində təhsil şəraitinin yaxşılaşdırılması üçün məktəb binalarının təmiri və yeni məktəb binalarının tikintisi və.s. də nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının iqtisadi rayonları içərisində iqtisadi əhəmiyyətinə görə ikinci yerdə Gəncə-Qazax iqtisadi rayonu durur. İqtisadi rayon Ağstafa, Qazax, Tovuz, Daşkəsən, Gədəbəy, Samux, Şəmkir, Göy-Göl, Goranboy rayonlarını, Gəncə və Naftalan kimi şəhərləri əhatə etməklə Azərbaycanın qərbində yerləşir. Əhalinin ümumi sayı 1103,3 min nəfər olmaqla ölkə əhalisinin 13,6%-ni təşkil edir. İqtisadi rayonda əhalinin 53%-i kənd yaşayış məntəqələrində yaşayır. Əhalinin orta sıxlığı hər kv. km-ə 88 nəfər təşkil edir. İqtisadi rayonda cəmi 1265 kitabxana var. Onlardan 78,6% kənd yaşayış məntəqələrindədir.(5.S.23) Kitabxana fondunun informasiya mənbələrinə görə bölgüsü zamanı Gəncə-Qazax iqtisadi rayonunda 11773454 nüsxə informasiya resursunun 46,5%-nin kənd

kitabxanalarının payına düşdüyü məlum olur. Digər iqtisadi rayonlarda olduğu kimi Gəncə-Qazax iqtisadi rayonunda da, kənd kitabxanalarında kitabların xüsusi çəkisi daha çoxdur. Elektron informasiya daşıyıcıları isə çox cüzidir. İqtisadi rayonda 1125 nəfər kitabxana mütəxəssisi var.(5.S.75) Onların təhsil səviyyələrinə görə bölgüsü aşağıdakı kimidir: ali ixtisas təhsillilər 89 nəfər, ali təhsilli qeyri ixtisas-təhsillilər 129 nəfər, orta-ixtisas təhsillilər 225 nəfər, orta qeyri-ixtisas təhsillilər 173 nəfər, ümumi orta təhsillilər 509 nəfər. İqtisadi rayonda kitabxana resursları aşağıdakı kimidir: Gəncə şəhərində 102, Naftalan şəhərində 7, Qazax rayonunda 97, Ağstafa rayonunda 87, Tovuz rayonunda 163, Şəmkir rayonunda 179, Gədəbəy rayonunda 183, Samux rayonunda 71, Göygöl rayonunda 101, Goranboy rayonunda 174 kitabxana var. Bu kitabxanaların kənd yerlərinə görə bölgüsü belədir: Qazax rayonunda 78,4%, Ağstafa rayonunda 86,2%, Tovuz rayonunda 90,2%, Şəmkir rayonunda 84,4%, Gədəbəy rayonunda 95,1%, Daşkəsən rayonunda 75,2%, Samux rayonunda 81,7%, Göygöl rayonunda 84,2%, Goranboy rayonunda 87,4%. Kitabxanaların növlərinə görə bölgüsünə əsasən, Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində Qazax rayonu üzrə 56,7%, Ağstafa rayonu üzrə 56,3%, Tovuz rayonu üzrə 47,2%, Şəmkir rayonu üzrə 53,6%, Gədəbəy rayonu üzrə 59,6%, Daşkəsən rayonu üzrə 58,4%, Samux rayonu üzrə 47,9%, Göygöl rayonu üzrə 47,5%, Goranboy rayonu üzrə 55,2% kitabxana olması məlum olur. İqtisadi regionda fəaliyyət göstərən ümumtəhsil məktəb kitabxanaları da böyük əhəmiyyət daşıyır. Araşdırmalar zamanı aydın olur ki, Gəncə-Qazax iqtisadi rayonunda Tovuz, Samux, Göygöl rayonları istisna olmaqla digər iqtisadi rayonlarda, ümumtəhsil məktəblərində fəaliyyət göstərən kitabxanaların sayı, Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan kitabxanalara nisbətən çoxdur. O cümlədən, region üzrə kəndlərdə yerləşən ümumtəhsil məktəb kitabxanalarının sayı aşağıdakı kimidir: Qazax rayonu 36,9%, Ağstafa rayonu 42,7%, Tovuz rayonu 50,3%, Şəmkir rayonu 40,4%, Gədəbəy rayonu 39,7%, Daşkəsən rayonu 6,8%, Samux rayonu 50%, Göygöl rayonu 49,4%, Goranboy rayonu 40,2%. İqtisadi rayonda inzibati rayonlar üzrə kitabxana-informasiya resurslarının bölgüsü belədir: Qazax rayonu 905119 nüsxə, Ağstafa rayonu 639675 nüsxə, Tovuz rayonu 1388579 nüsxə, Şəmkir rayonu 1109831 nüsxə, Gədəbəy rayonu 874119 nüsxə,

.

Daşkəsən rayonu 814620 nüsxə, Goranboy rayonu 990095 nüsxə, Samux rayonu 514394 nüsxə, Göygöl rayonu 809627 nüsxə. İnformasiya resurslarının kənd yaşayış məntəqələrinə görə bölgüsünə əsasən Qazax rayonunda 68,2%, Tovuz rayonunda 67,4%, Ağstafa rayonunda 72,3%, Şəmkir rayonunda 70,4%, Gədəbəy rayonunda 78,9%, Daşkəsən rayonunda 61,4%, Goranboy rayonunda 70,8%, Göygöl rayonunda 58%, Samux rayonuda 60,8% informasiya mənbələri var. Bu informasiya mənbələri içərisində kitablar çoxluq təşkil edir. Kitabxanaların kompüterlə təchizatına gəldikdə isə qeyd etməliyik ki, kənd kitabxanalarında yalnız rayon mərkəzində yerləşən mərkəzi kitabxanalarda (Şəmkir, Göygöl və Ağstafa rayonlarında 2 kompüter var) 1 kompüter var.(5.S.57)

Azərbaycan Respublikasının regionlarında kitabxana işçilərinin təhsil səviyyəsinə diqqət yetirsək, onda ali və orta-ixtisas təhsilli kadrların kənd kitabxanalarında, xüsusən də ucqar rayonlarda yerləşən kitabxana şəbəkələrində digər kadrlara nisbətən azlıq təşkil etdiyini görmək mümkündür. Nəzərə almaq lazımdır ki, kitabxanaların əhalinin informasiya tələbatını istənilən səviyyədə ödəməsi kitabxanaçı kadrların savadından və iş təcrübəsindən birbaşa asılıdır. Bunu Gəncə-Qazax iqtisadi rayonunda yerləşən kitabxanalara da şamil etmək olar. Regionun kənd kitabxanalarında mütəxəssislərin təhsil səviyyələrinə görə bölgüsü aşağıdakı kimidir:

Ağstafa rayonu üzrə kənd kitabxanalarında işləyən mütəxəssislər 83 nəfərdir. Onların təhsil səviyyələrinə görə bölgüsünə əsasən, ali və orta ixtisas təhsillilər isə 32,5%, Qazax rayonu üzrə 83 nəfərdən 33,8%, Tovuz rayonu üzrə 98 nəfərdən 33,7%-i, Şəmkir rayonu üzrə 119 nəfərdən 26,9%-i, Gədəbəy rayonu üzrə 134 nəfərdən 12,6%-i, Daşkəsən rayonu üzrə 83 nəfərdən 24%-i, Goranboy rayonu üzrə 106 nəfərdən 32,1%-i, Samux rayonu üzrə 96 nəfərdən yalnız 21,5%-i, Göygöl rayonu üzrə 80 nəfərdən 16,3%-i ali və orta-ixtisas təhsillidir. Ümumiyyətlə, hesablamalardan aydın olur ki, Gəncə-Qazax iqtisadi rayonunda ümumi orta təhsilli kadrların xüsusi çəkisi ali və orta ixtisas təhsilli kadrlardan çoxdur. İqtisadi rayonda cəmi 314 nəfər ali və orta-ixtisas təhsilli mütəxəssis var. Regionun Samux, Göygöl, Gədəbəy, Şəmkir rayonlarında ali ixtisas təhsilli kadrların xüsusi çəkisi aşağı səviyyədədir. Bu inzibati rayonlarda orta-ixtisas təhsilli kadrlar üstünlük təşkil edir.

Azərbaycan Respublikasının iqtisadi rayonlarından biri də Şəki-Zaqatala iqtisadi rayonudur. Bu iqtisadi rayon Azərbaycanın şimal-qərbində, Böyük Qafqaz dağlarının cənub yamacında yerləşir. İqtisadi rayonun ərazisinin ümumi sahəsi 8,96 min kv.km olmaqla ölkə ərazisinin 10,3%-ni təşkil edir. Ərazinin yüksəklik fərqinin böyük olması təbii şəraitin müxtəlifliyinə səbəb olmuşdur. Zona mülayim iqlim şəraitinə malikdir. İqtisadi rayonun əhalisinin ümumi sayı 531,9 min nəfər olmaqla ölkə əhalisinin 6,5%-ni təşkil edir. Əhalinin 73%-i kəndlərdə yaşayır. Son onillikdə əhalinin orta illik artımı 1,5%-ə bərabər olmuşdur. Rayonda əhalinin sıxlığı aşağı olmaqla hər kv. km.-ə 59 nəfər təşkil edir. Bu iqtisadi rayonda da əhalinin milli tərkibi müxtəlifdir. Şəki-Zaqatala iqtisadi rayonunda cəmi 764 kitabxana resursu var. Bu kitabxanaların 83,6%-i kənd yaşayış məntəqələrində fəaliyyət göstərir. Ümumi yekuna görə, kənd yaşayış məntəqələri cəmi 10,3% kitabxanalarla təmin olunmuşdur. İqtisadi regionun tərkibinə Balakən, Qax, Qəbələ, Oğuz, Şəki, Zaqatala rayonları daxildir. Kənd yaşayış məntəqələrində yerləşən kitabxanaların bölgüsü aşağıdakı kimidir: Balakən rayonu 88%, Qax rayonu 88,7%, Qəbələ rayonu 90,3%, Oğuz rayonu 88,2%, Şəki rayonu 71%, Zaqatala rayonu 85,7%. Ümumi hesablamalara görə, Şəki-Zaqatala iqtisadi regionunda kənd yaşayış məntəqələrindəki kitabxanaların 53,5%-i Mədəniyyət və Turizm Nazirliyinin, 46%-i isə Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində fəaliyyət göstərən kitabxanaların ayrı-ayrı rayonlar üzrə bölgüsü belədir: Balakən rayonu üzrə 55,7%; Qax rayonu 58,8%; Qəbələ rayonu 52,9%; Oğuz rayonu 50%; Şəki rayonu 46,5%; Zaqatala rayonu 57,9%. Təhsil Nazirliyinin tabeliyində yerləşən kitabxanalar aşağıdakı kimi bölünmüşdür: Balakən rayonu 44,3%; Qax rayonu 41,2%; Qəbələ rayonu 47,1%; Oğuz rayonu 48,3%; Şəki rayonu 52,8%; Zaqatala rayonu 41,3%. Kitabxana fondunun bölgüsünə görə, ümumilikdə iqtisadi rayonda kitabxana- informasiya resurslarının 5515558 nüsxə olması məlumdur. İnformasiya resurslarının 62,7%-i kənd kitabxanalarının payına düşür. Ayrı-ayrı rayonlar üzrə kənd kitabxanalarında informasiya resurslarının yerləşməsi aşağıdakı kimidir: Balakən rayonu üzrə 62%, Qax rayonu üzrə 66,5%, Qəbələ rayonu üzrə 70,7%, Oğuz rayonu üzrə 62,7%, Şəki rayonu üzrə 55,7%, Zaqatala rayonu üzrə 65,3%.

Beləliklə, bu iqtisadi rayonun da informasiya resurslarının yarısından çoxunun kənd kitabxanalarında yerləşməsi məlum olur. Fondun informasiya mənbələrinə görə bölgüsünə əsasən ümumi fondun əsas hissəsini kitablar təşkil edir. Region kitabxanalarında cəmi 79 kompüter var və onlardan 10-u kənd kitabxanalarında yerləşir. İqtisadi rayonda cəmi 640 nəfər kitabxana mütəxəssisi var. Onların 535 nəfəri kənd kitabxanalarında çalışır. Mütəxəssislər inzibati rayonlar üzrə aşağıdakı şəkildə bölünmüşdür: Baləkən rayonu üzrə 68 nəfər, Qax rayonu üzrə 96 nəfər, Qəbələ rayonu üzrə 89 nəfər, Oğuz rayonu üzrə 62 nəfər, Şəki rayonu üzrə 122 nəfər, Zaqatala rayonu üzrə 98 nəfər. Mütəxəssislərin təhsil səviyyəsinə görə bölgüsünə əsasən məlum olur ki, ümumiyyətlə, kənd kitabxanalarında çalışanların 32 nəfəri ali-ixtisas, 62 nəfəri orta-ixtisas təhsilli, digərləri isə ali və orta qeyri- ixtisas təhsillidirlər.

Azərbaycan Respublikasının iqtisadi rayonları içərisində önəmli yerlərdən birini də Lənkəran iqtisadi rayonu tutur. Azərbaycan Respublikasının Lənkəran iqtisadi rayonu Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı və Lənkəran inzibati rayonlarının ərazisini əhatə etməklə, Azərbaycanın cənub-şərqində yerləşir. İqtisadi rayon şərqdə Xəzər dənizi, qərbdə və cənubda isə İran İslam Respublikası ilə həmsərhəddir. İqtisadi rayonun ümumi sahəsi 6,08 min kv. km olmaqla, ölkə ərazisinin 7%-ni əhatə edir. Əhalinin ümumi sayı 753,7 min nəfər olmaqla ölkə əhalisinin 9,3%-ni təşkil edir. Onların 365,6 min nəfəri əmək qabiliyyətlidir. Rayonda əhalinin orta sıxlığı hər kv km.-də 124 nəfər təşkil edir. İqtisadi rayon üzrə təhsil alanlar cəmi əhalinin 87%-ni əhatə edir. Təhsil alanların 3,7%-i ali təhsillər, 0,2%-i natamam ali təhsillilər, 5,25%-i orta- ixtisas təhsillilər,44,6%-i ümumi orta təhsillilər,15,3%-i natamam orta təhsillilər,14,5%-i isə ibtidai təhsillilərdir. Ölkə kitabxana resursunun 11,7 %-i bu iqtisadi rayonun payına düşür. Kitabxanaların sayına görə Cəlilabad (211), Lənkəran (191) və Masallı rayonları (174) xüsusilə fərqlənir. Lənkəran iqtisadi rayonunun kitabxana-informasiya resursları ölkə informasiya resurslarının 5,9%-ni təşkil edir. Belə ki, regionun ümumi kitabxana resursları 6578166 nüsxə çap vahidi ilə ölçülür. Lənkəran iqtisadi rayonununda ümumi əhalinin 86%-i azərbaycanlılar, 13,5%-i talışlar, 0,3%-i ruslar, 0,1%-i avarlar, 0,1%-i isə digər millətlərdir.(6.S.331) İqtisadi rayonda cəmi 994 kitabxana resursu var. Onların 86,4%-i

.

kənd yaşayış məntəqələrində yerləşir. Kənd kitabxanalarının 49,5%-i Mədəniyyət və Turizm Nazirliyinin, 50,2%-i isə Təhsil Nazirliyinin tabeliyindədir.(5.S.23-41) İqtisadi rayonun kənd kitabxanalarında cəmi 15 kompüter var və ümumi informasiya resurslarının 62,9%-i kənd kitabxanalarında yerləşir. Onların 99,6%-ni kitablar təşkil edir. İqtisadi rayonun kitabxanalarında 734 nəfər kitabxana mütəxəssisi var. Onlardan 611 nəfəri kənd kitabxanalarında çalışır. Bu mütəxəssislərin təhsil səviyyəsi aşağıdakı kimidir: **a**li ixtisas təhsillilər 37 nəfər, ali qeyri-ixtisas təhsillilər 29 nəfər, orta -ixtisas təhsillilər 107 nəfər, orta qeyri-ixtisas təhsillilər 110 nəfər, ümumi orta təhsillilər 328 nəfər. Buradan aydın olur ki, iqtisadi rayonun kitabxana mütəxəssislərinin təhsil səviyyəsinə görə bölgüsünə əsasən ümumi orta təhsillilər, ali və orta ixtisas təhsillilərdən 2,3 dəfədən çoxdur. İqtisadi regionun Astara inzibati rayonunda kənd yaşayış məntəqələrində olan 122 kitabxanadan 80-i Mədəniyyət və Turizm Nazirliyinin, 54-ü Təhsil Nazirliyinin tabeliyindədir. Rayonun kitabxana-informasiya resursları 799689 nüsxədir**.** Fondun 524970 nüsxəsi kənd kitabxanalarının payına düşür. Onların 99,7%-ni kitablar təşkil edir.(5.S.44-55) Rayonunun kənd kitabxanalarında cəmi 1 kompüter var və 135 nəfər kitabxana mütəxəssisindən 122 nəfəri kənd kitabxanalarında çalışır ki, onların yalnız 2 nəfəri ali-ixtisas təhsilli, 11 nəfəri orta- ixtisas təhsil-lidir.

Lənkəran iqtisadi rayonuna daxil olan Cəlilabad rayonunda cəmi 211 kitabxana resursu var. Onların 186-ı kənd yaşayış məntəqələrində yerləşir. Kitabxanaların 86-ı Mədəniyyət və Turizm Nazirliyinin, 100-ü isə Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir.(5.S.23-43) Cəlilabad rayon kitabxanalarında 1562002 nüsxə informasiya resursu var ki, onun da 1011130 nüsxəsi kənd kitabxanalarındadır. Kənd kitabxanalarında fondun əsasını kitablar təşkil edir. Onların sayı 1007148 nüsxədir. Kənd kitabxanalarında 2 kompüter var. İnzibati rayonun 131 nəfər kitabxana mütəxəssisindən, 109 nəfəri kənd kitab-xanalarında çalışır və yalnız 7 nəfəri ali-ixtisas təhsilli, 16 nəfəri orta-ixtisas təhsillidir.

İqtisadi regiona daxil olan Lerik inzibati rayonunda 155 kitabxana resursu var. Onların 146-ı kənd yaşayış məntəqələrindədir**.** Kənd kitabxanalarının 70-i Mədəniyyət və Turizm Nazirliyinin, 76-ı isə Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Lerik rayon

kitabxanalarında ümumi fondun 342576 nüsxəsi kənd kitabxanalarında yerləşir ki, onun da 99,3%-i kitablardır. Lerik rayonun kənd kitabxanalarında 4 kompüter var. Rayon kitabxanalarında 104 kitabxana mütəxəssisindən 95 nəfəri kənd kitabxanalarında çalışır. Mütəxəssislərin 6 nəfəri ali ixtisas, 29 nəfəri orta-ixtisas təhsillidir.(5.S.75-82)

İqtisadi regiona daxil olan Lənkəran inzibati rayonunda cəmi 191 kitabxanadan 132-i kənd yaşayış məntəqələrində yerləşir. Bu kitabxanaların 65-i Mədəniyyət və Turizm Nazirliyinin, 65-i Təhsil Nazirliyinin tabeliyindədir. Lənkəran rayonunun kənd kitabxanalarında 973966 nüsxə informasiya resursu yerləşir ki, onun da 99,6%-i kitablardır. Lənkəran rayonunun kənd kitabxanalarında 3 kompüter var. Rayon kitabxanalarında 173 nəfər mütəxəssisdən 119 nəfəri kənd kitabxanalarında işləyir. Onların 7 nəfəri ali-ixtisas təhsilli, 29 nəfəri orta-ixtisas təhsillidir.

Lənkəran iqtisadi rayonuna daxil olan Masallı inzibati rayonunda cəmi 174 kitabxanadan 158-i kənd yaşayış məntəqələrindədir. Bunlardan 74-ü Mədəniyyət və Turizm Nazirliyinin, 83-ü isə Təhsil Nazirliyinin tabeliyindədir. Masallı rayonunun kənd kitabxanalarında 846621 nüsxə informasiya resursu var ki, onların da 99,3%-ni kitablar təşkil edir. Rayon kitabxanalarında çalışan 111 nəfər mütəxəssisdən 96 nəfəri kənd kitabxanalarında çalışır və onların da 21 nəfəri ali və orta ixtisas təhsillidir. (5.S.75-83)

Lənkəran iqtisadi regionuna daxil olan Yardımlı inzibati rayonunda 127 kitabxanadan 115-i kənd yaşayış məntəqələrində yerləşir**.** Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 54, Təhsil Nazirliyinin tabeliyində isə 61 kitabxana var. Rayon kitabxanalarında 606673 nüsxə informasiya resursunun 436127 nüsxəsi kənd kitabxanalarındadır ki, onun da 99,9%-i kitablardır. (5.S.48-56) Kənd kitabxanalarında cəmi 1 kompüter var. Yardımlı rayon kitabxanalarında fəaliyyət göstərən 80 nəfər mütəxəssisin 70 nəfəri kənd kitabxanalarında çalışır. Mütəxəssislərin 16 nəfəri ali və orta-ixtisaslıdır.

Azərbaycan Respublikasının regionları içərisində Quba-Xaçmaz iqtisadi rayonu da xususi yer tutur. İqtisadi rayon Şabran, Xaçmaz, Quba, Qusar və Siyəzən inzibati rayonlarını əhatə etməklə, Azərbaycanın şimal-şərq hissəsində yerləşir. İqtisadi rayonun ümumi sahəsi 7,66 min kv.km olmaqla, ölkə ərazisinin 8,8%-ni təşkil edir.

İqtisadi rayon özünəməxsus relyef xüsusiyyətlərinə malikdir. Region əhalisinin ümumi sayı 453,1 min nəfər olmaqla, ölkə əhalisinin 5,6%-ni təşkil edir. Əhalinin 32 %-i şəhərlərdə, 68%-i kəndlərdə yaşayır. İqtisadi rayonda əhalinin orta sıxlığı hər kv km.-də 59 nəfər təşkil edir. İqtisadi rayonda cəmi 698 kitabxana resursu var. Onların 593-ü kənd yaşayış məntəqələrində yerləşir. Kənd kitabxanalarının 334-ü Mədəniyyət və Turizm Nazirliyinin, 259-u isə Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir.(5.S.26-43) Quba-Xaçmaz iqtisadi rayonunda kitabxanalarda 4782603 nüsxə informasiya resursları var. Onun 3190555 nüsxəsi kənd yaşayış məntəqələrindədir. Kənd kitabxanalarındakı informasiya resursunun 99,4%-i kitablardır. İqtisadi rayonda kitabxanalardakı cəmi 44 kompüterdən, 7-i kənd kitabxanalarında yerləşir. Ümumi yekuna görə, kitabxanalaların cəmi 8,2%-i kommunikasiya texnologiyaları ilə təmin olunmuşdur. İqtisadi rayonda kitabxanalarda 569 nəfər mütəxəssis var. Onların 479 nəfəri kənd kitabxanalarında çalışır. Mütəxəssislərdən 16 nəfəri ali ixtisas, 97 nəfəri orta-ixtisas təhsillidir. Bu göstərici də əslində, iqtisadi rayonun haqqında bəhs etdiyimiz digər iqtisadi regionlardan o qədər də fərqlənmədiyini göstərir. Bu iqtisadi rayonda da kitabxanaların kadr potensialı baxımından aşağı səviyyədə olması əhalinin informasiya tələbatının ödənilməsində öz əksini tapır.

İqtisadi regiona daxil olan Şabran inzibati rayonunda cəmi 92 kitabxanadan 75-i kənd yaşayış məntəqələrində yerləşir**.** Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 48, Təhsil Nazirliyinin tabeliyində isə 27 kitabxana var. Rayonun kənd kitabxanalarında cəmi 415972 nüsxə informasiya resursu var ki, onun da 97,5%-ni kitablar təşkil edir. Şabran rayonunun kənd kitabxanalarında cəmi 1 kompüter var. Rayon kitabxanalarında olan 79 nəfər mütəxəssisdən 64 nəfəri kənd kitabxanalarında çalışır. Onların 14 nəfəri ali və orta-ixtisas təhsilli, 6 nəfəri ali və orta qeyri-ixtisas təhsilli mütəxəssislərdir. (5.S.75-82)

Quba-Xaçmaz iqtisadi rayonuna daxil olan Xaçmaz inzibati rayonunda cəmi 196 kitabxanadan 167-i kənd yaşayış məntəqələrindədir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 96, Təhsil Nazirliyinin tabeliyində isə 70 kitabxana fəaliyyət göstərir. Rayonun kənd kitabxanalarında 916645 nüsxə informasiya resursu var. Ümumiyyətlə, Xaçmaz rayonunun kənd kitabxanalarında informasiya resursunun digər növləri demək olar ki, yoxdur və fond bütünlüklə

kitablardan ibarətdir. Kənd kitabxanalarında 2 kompüter var. Rayonda çalışan cəmi 160 nəfər kitabxana mütəxəssisindən 136 nəfəri kənd kitabxanalarında fəaliyyət göstərir. Mütəxəssislərdən 4 nəfəri ali-ixtisas təhsilli, 25 nəfəri orta ixtisas təhsilli, 8 nəfəri orta qeyri-ixtisas təhsillidir.

Quba-Xaçmaz iqtisadi rayonuna daxil olan Quba inzibati rayonunda cəmi 221 kitabxanadan 187-i kənd yaşayış məntəqələrindədir. Kitabxanaların 102-i Mədəniyyət və Turizm Nazirliyinin, 85-i Təhsil Nazirliyinin tabeliyindədir. Quba rayonunun kənd kitabxanalarında 977641 nüsxə inmformasiya resursu var və onun 99,3%-i kitablardır. Kənd kitabxanalarında 2 kompüter var. Rayon kitabxanalarında fəaliyyət göstərən 169 nəfər mütəxəssisdən 138 nəfəri kənd kitabxanalarında çalışır. Onlardan 4 nəfəri ali-ixtisas təhsilli, 28 nəfəri orta-ixtisas təhsilli, 29 nəfəri orta qeyri-ixtisas təhsilli və.s.

Quba-Xaçmaz iqtisadi rayonuna daxil olan Qusar inzibati rayonunda 146 kitabxanadan 132-i kənd yaşayış məntəqələrində yerləşir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 71, Təhsil Nazirliyi tabeliyində 61 kitabxana var. Qusar rayonun kənd kitabxanalarında olan 711293 nüsxə informasiya resursunun 99,9%-i kitablardır. Kənd kitabxanalarında cəmi 1 kompüter var. Rayondakı 107 nəfər mütəxəssisdən 96 nəfəri kənd kitabxanalarında çalışır. Mütəxəssislərdən 5 nəfəri ali-ixtisas təhsilli, 5 nəfəri ali-qeyri-ixtisas təhsilli, 30 nəfəri orta ixtisas təhsillidir.

Quba-Xaçmaz iqtisadi rayonuna daxil olan Siyəzən inzibati rayonunda cəmi 43 kitabxanadan 32-i kənd yaşayış məntəqələrindədir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 17, Təhsil Nazirliyinin tabeliyində isə 15 kitabxana fəaliyyət göstərir. Rayon kitabxanalarındakı informasiya resursunun 169004 nüsxəsi kənd yaşayış məntəqələrindədir və onun da 99%-i kitablardır. Kənd kitabxanalarında cəmi 1 kompüter var. Rayon kitabxanalarında çalışan 54 nəfər mütəxəssisdən 45 nəfəri kənd yaşayış məntəqələrində fəaliyyət göstərir. Mütəxəssislərdən yalnız 3 nəfəri ali və orta ixtisas təhsillidir. Ümumiyyətlə, Quba-Xaçmaz iqtisadi rayonunda şəhər və kənd yaşayış məntəqələri də daxil olmaqla, oxucuların sayına görə adambaşına neçə nüsxə kitab düşdüyünü hesablasaq, belə bir nəticə ilə qarşılaşarıq: təkcə, Mədəniyyət və Turizm Nazirliyi tabeliyində olan kitabxanalarda olan kitab fondu 2273009 nüsxə, oxucuların sayı 115795 nəfər, filialların

.

sayı 356 olduğunu nəzərə alsaq, ali və orta ixtisas təhsilli işçilərin sayı 137 nəfər, qeyri-ali və qeyri-orta ixtisas təhsilli işçilərin sayının isə 50 nəfər olduğunu görə bilərik ki, burada oxucuların hər birinə düşən kitabların sayının təqribən 19 nüsxə olduğunu hesablamış oluruq ki, bu da təqribən 5,9% edir. Eyni zamanda hər 845 nəfər oxucuya 1 nəfər ixtisaslı kitabxanaçı-biblioqraf xidmət edir.

## ƏDƏBİYYAT


1. *«Azərbaycan Respublikası regionlarının sosial- iqtisadi inkişafı Dövlət Proqramı (2004- 2008-ci illər)»// Azərbaycan.- 2004.- 11 fevral.*
2. *«Azərbaycan Respublikası regionlarının 2009- 2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı».-Bakı: Nurlar, 2009.-184s.*
3. *«Azərbaycan Respublikasında kitabxana - informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı»// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri, metodiki və təcrübi jurnal.-2008.№ 2.-s.6-29.*
4. *«Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin sərəncamı //Azərbaycan.-2007.-21 aprel.*
5. *«Kitabxanaların fəaliyyəti haqqında» statistik müayinənin nəticələri barədə. Statistik bülleten. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.-Bakı.-2009.-88s.*
6. *Məmmədov.Z.S. Regionların iqtisadi inkişaf problemləri.-B.: Elm,2007.-465s.*
7. *İsmayılov.N.İ. Kitabxana-informasiya resurslarının yerləşməsinin nəzəri və təcrübi məsələləri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi yurnal.- 2010.N1.-s.67-78.*

.

**И.З.БАЙРАМОВА**

## ОРГАНИЗОВАНИЕ БИБЛИОТЕЧНО ИНФОРМАЦИОННОГО ОБЕСПЕЧЕНИЯ СЕЛЬСКИХ ЖИТЕЛЕЙ В РЕГИОНАХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**РЕЗЮМЕ**

Статья посвящена информационному обеспечения сельского населения, статус расположение библиотечно-информационных ресурсов, перспективы развития библиотечной инфраструктуры.

**I.Z.BAYRAMOVA**

## ORGANIZATION OF LIBRARY-INFORMATION PROVISION FOR VILLAGERS IN THE REGIONS OF THE REPUBLIC OF AZERBAIJAN

**SUMMARY**

The article is about the information provision of the village population location status of the library-information resources development perspectives of library infrastructure.

.

**Validə HƏSƏNOVA**
*AMEA Mərkəzi Elmi Kitabxanasının doktorantı*

# AZƏRBAYCAN NAĞILLARININ SƏNƏD-İNFORMASİYA BAZASININ FORMALAŞMASINDA SƏNƏDLƏRİN ROLU

***Açar sözlər:*** Azərbaycan xalq nağılları, oğurlanmış nağıllarımız, adı dəyişdirilmiş nağıllar, erməni plagiatlığı, Azərbaycan nağılları

***Ключевые слова:*** Азербайджанские народные сказки, украденные наши сказки, переименованные наши сказки, армянское плагиатство, Азербайджанские сказки

***Keywords:*** Azerbaijan national tale, Our plunder tales, Renamed tales, Armenian plagiarism ,Azerbaijan tales

Azərbaycan xalq nağılları "onları yaratmış olan insan cəmiyyəti qədər qədimdir" (1,7). Nağılların məzmunundan onların yaşını təyin etmək olar. Azərbaycan nağıllarını yaranma tarixlərinə görə analiz etsək "Avesta" dövrünə qədər (e.ə.I minillik) gedib çıxarıq. Azərbaycan xalq nağıllarının yaranma tarixi bu qədər qədim olsa da yazılı ədəbiyyatda yerini sonrakı əsrlərdə tutmağa başlamışdır. Məsələn, N.Gəncəvinin "Yeddi gözəl" əsərində Azərbaycan xalq nağıllarının əksini görmək mümkündür (8).

Azərbaycan xalq nağıllarının mətbuat səhifələrində təzahürü XIX əsrə aiddir və nağıllarımızın erməni nağılı adı altında verilməsi, erməniləşdirilməsi də məhz elə bu dövrdən başlayır. Qafqazda qəzet nəşri XIX yüzilliyin müxtəlif dövlərini əhatə etsə də o dövrdə nəşr olunan qəzetləri əldə etmək mümkün olmadığı üçün həmin dövrdəki mətbuat səhifələrində nəşr olunmuş nağılların dəqiq biblioqrafiyasını göstərmək mümkün deyil. Lakin folklorşünas alimlərimizin də qeyd etdiyi kimi, "Полярная звезда" "Кавказ", "Кавказский вестник", "Тифлисские ведомости", "Литературная газета" və s. qəzetlərin, SMOMPK - QƏXTMT (Сборник материалов описания местности племени Кавказа - Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu ) məcmuəsinin nəşrə başlaması ilə (1881) nağılların nəşri daha geniş miqyas aldı və nağıllarımızın ermənilər tərəfindən mənimsənilməsi daha qabarıq şəkildə özünü göstərməyə

başladı. SMOMPK adlı toplu onlarla Azərbaycan xalq nağıllarını erməni nağılı adı altında nəşr etmişdir. Belə ki, Azərbaycan xalq nağılları XIX əsrdən başlayaraq yerli əhalidən toplanaraq yazıya alınmağa başlanılmışdır. Azərbaycanın müxtəlif kəndlərində yerləşdirilmiş ermənilər də yerli əhalidən yazıya alınmış nağılları erməni nağılları adı altında mətbuat səhifələrində nəşr etdirmişdirlər. SMOMPK-un 1900-cu il, 28-ci buraxılışında "Zaqafqaziyada erməni xalq filologiyası " adı altında əfsanə, nağıl, hekayə və tapmaca kimi folklor nümunələri verilmişdir (11. s.-I). A.Boqoyavlenski bu hissəyə müqəddimə yazarkən qeyd edir ki, "burada verilmiş yazıların bir hissəsi, bundan əvvəl toplunun müxtəlif cildlərində, Qafqaz xalqlarının folkor nümunələri kimi verdiyimiz materiallardan heç nə ilə fərqlənmir" (11. s.-XIV). Daha sonra o qeyd edir ki, "bu mövzular, şifahi xalq yaradıcılığı nümunələri tatarlardan mənimsənilmişdir". Onlara dair dəqiq faktlar göstərir. (11. s.-I-XIV).

Folklorşünas alim Azad Nəbiyev müsahibələrinin birində qeyd edir: "...Ermənilər "Oxxayın nağılı", "Yalançı çoban", "İki qardaşın nağılı", "Hiyləgər qarı", "Tənbəlin nağılı", "Sədaqətli xanım", "Gözəl gəlin", "Sənət qızıldan üstündür" nağıllarını da erməniləşdiriblər. Onlar nağıllarımızı özününküləşdirərkən onların Azərbaycan məişətini əks etdirməsi faktını unudub və oxucularını da çaş-baş salıblar..." (9)

Ermənilərin plagiatlığı bütün dövrlərdə mövcud olmuşdur. Hələ XX əsrin əvvəllərində H.Zeynallı yazırdı: "...hər bir tayfa, hər bir cəmiyyət başqasından, qonşu tayfadan, özgə bir mühitdən aldığı folkor materialını mənimsəyir, özünə uygunlaşdırır və axırda öz malı eləyir. Lakin yeni mühitə düşən nağıl, yeni ünsürləri qəbul etməklə bərabər, əvvəlki yerindən gətirdiyini də saxlaya bilər. Qəhrəmanların adı, iştirak edənlərin xarakteriskası və nağılın başqa komponentləri bunu aydın göstərir" (3.s.11).

Bu sətirləri sitat gətirərək göstərmək istədik ki, hələ 1936-ci ildə Azərbaycan xalq nağıllarını nəşrə hazırlayan, 1937-ci ildə represiya qurbanı olan H.Zeynallı "Hazarandastanı", "Oxxay", "Axvay" kimi nağıllarımızın ermənilərin necə dəyişdiklərini, lakin bu nağılların Türk nağılları olması haqda dəqiq şərhlər vermişdir (3. s.11-12). Lakin o vaxtdan müasir dövrümüzə qədər ermənilər ***"özəlləşmə"*** işində daha çox təcrübə toplamış və nağıllarımızı oxuyaraq bədii ifadə təfəkkürünə də yiyələnmişlər. Əgər ermənilər "Hazarandastanı" nağılını 1930-cu

illərdə elə bu cür də adlandırırdılarsa, sonralar (farca "həzər", "Hazaran dastanı"- min cür nağıl söyləyən deməkdir) (3.s.11) "Kiçik bacının nağılı" adlandırmağa başladılar ( 7. s.167). Bununla da erməni nağılı olmadığı faktını itirmək istədilər. Lakin nağılın adı dəyişdirilsə də sujet xətti eyni saxlanılmışdır. Hər iki variantda (azərbaycan və erməniləşdirilmiş variantda ) baş qəhrəman Hazaran bülbülü və hazaran gülü, qadın və at uğrunda mübarizə aparır. Qadın, at və papaq türkün qeyrəti hesab olunmuş, qeyrət isə hər şeydən üstün tutulmuşdur. Buna görə də qadın, at və papaq- qeyrət uğrunda mübarizə türklüyün kökündə duran məsələlərdən olmuşdur.

Elə bu baxımdan www.storybook.ru saytında erməni xalq nağılı kimi verilmiş "**Sifarişçi və usta"** nağılının erməni nağılı kimi verilməsi nə dərəcədə düzgündür? Məlumat üçün qeyd edək ki, nağılda bir nəfər ustanın yanına papaq tikmək üçün qoyun dərisi gətirir və ondan papaq tikməyi xahiş edir. Mövzu papaq üzərində qurulmuşdur. Keçmişdə papaq qoyun dərisindən tikilirdi və məhz qoyun dərisindən tikilən bu papaq milli türk kişi baş geyimidir. Onları uzuntüklü qoyun dərisindən hazırlayırdılar və **şiş papaq, buxara papaq, motal papaq** və s. kimi növləri mövcuddur (12).

Alimlərimizin dediyi kimi "Nağılın qədimliyini, ilkin köklərini, mənsub olduğu xalqla bağlılığını, onun qaynaqlarını, ideyasını nəzərə çarpdırmaq üçün əsərin məzmununa müraciət etmək zəruridir" ( 8. s.147). Y.V.Çəmənzəminliyə görə bir çox nağıllarımız Zərdüştlüklə, "Avesta"da olan etiqadlarla səsləşir. Məlumat üçün qeyd edək ki, "Avesta" türklərin tapındığı ilk etiqaddır.

Azərbaycan xalq nağılları div surətləri ilə zəngindir. **"Azərbaycan nağılları"** adlı kitabın II cildinin "Qeydlər" bölməsində göstərilir ki, div "Avesta"da şər qüvvəsi kimi qiymətləndirilmiş, hətta "Avestanın"əsas fəsillərindən biri olan "Vendidad" (Vendivdad) doğrudan-doğruya divlər əleyhinə dualardan, ayinlərdən ibarətdir (1.s.283). Nağıllarda hadisələrin müsbət sonluqla bitməsi də elə Avestadan gələn xeyirin şər üzərində qələbəsi deməkdir. **"Erməni xalq nağılları"** adlı kitabda da ermənilər bir çox adı dəyişdirilmiş nağıllarımızdakı incə məqamları (məsələn "Qızılkəkilli oğlanın nağılı"nda) "Avesta"nın izləri olan- ağ göyərçinlə, qara göyərçin, digərlərində ağ ilan, qara ilan, yaxud simvolik rəqəmləri (3, 7, 40) dəyişdirməyi unudublar.

.

Azərbaycan nağılları öz hikmətli məzmunları ilə fərqlənirlər. Həmçinin xalq nağıllarımızda hadisələr bir neçə paralel sujet xətti əsasında inkişaf etdirilir. Erməniləşdirilmiş nağıllarımızın adları dəyişdirilsə də məzmun eyni qalmışdır. Nağıllara məxsus müdrik kəlamlar daha çox bəsit cümlələrlə əvəz edilmişdir, ədəbi dili zəifdir. Nağıllarımızda milli deyim formaları var. Ermənilər bunlara fikir verməyiblər. Məsələn:

"Dülgərin oğlu" (erm.) nağılı dəyişdirilmiş "Şahzadə Mütalib" (az.) nağılıdır. "Dülgərin oğlu"(7.s.80) adlı nağılda divlərin anası Dülgərin oğlunu oğlanlarından qorumaq üçün oğlanlarına deyir: "bu südüm sizə haram olsun, əgər burada qan töksəniz" (2.s.82). Bizim "Şahzadə Mütalib" (1, s.120) adlı nağılda da ana, Şahzadə Mütalibi öz div oğlanlarından qorumaq məqsədilə Mütalibə deyir: "Mən səni gizlədəcəyəm, ancaq onlar mənim südümə and içməsələr çıxma" (1.səh.126)

Ana südünə and içmək, ana südünün müqəddəsliyi, anaların müqəddəsliyi hələ Məhəmməd peyğəmbərin "Cənnət anaların ayaqları altındadır", yaxud "Ana haqqı Tanrı haqqıdır", "Ağ südün toya əmzirsə, ana görklü" (6, s.206) deyən Dədə-Qorqud dünyasından üzü bəri gəlirsə və elə təkçə "Dədə-Qorqud" dastanında onlarla belə misal mövcuddursa, deməli "Dülgərin oğlu" elə **"erməni"** nağıllı imiş .

"İki qardaş"(7, s.28) nağılında "Allah haqq alahıdır", bizim nağıllarımızdan "Yoxsul qocayla vəzir" nağılının "Yaxşılara yaxşılıq eylə, pislərə öz pislikləri kifayətdir" (2, s.459) nağılının dəyişdirilmiş variantıdır.

Digər bir "erməni" nağılı - "İnsan gözü" (7.s.31). Bir kasıb kişi yerdən maraqlı, yumru, qəşəng bir şey tapır.Heç kəs nə olduğunu tapa bilmir. Şah onu tapan kişiyə deyir: Mən bunu götürürəm, əvəzində nə istəyirsən verim.

Kişi deyir ki, onun ağırlığında qızıl ver bəsimdi.

Tərəzinin bir gözünə nə qədər qızıl qoysalar da tərəzinin o biri gözü tərpənmir. Bir qoca kişi Tərəzinin digər gözünə bir ovuc torpaq qoyur və tərəzinin hər iki gözü bərabər durur. Səbəbini belə izah edir. Bu insan gözüdür. Insan gözünü ancaq torpaq doyuzdurar.

"İskəndərin dünyagirliyi, ölkə hərisliyi, var dövlət düşgünlüyü və s. xüsusiyyətlərinə dair saysız-hesabsız əfsanə, rəvayət, nağıl mövcuddur. Belə bir rəvayət var ki, İskəndər öləndən sonra onu tabuta

qoyub, basdırmaq üçün qəbiristanlığa aparırlar. Yol boyu İskəndərin əli tabutdan kənara çıxır. Nə qədər onun əlini tabuta qoyurlar, yerində durmur. Bunu görən dünyagörmüş qocalardan biri əyilərək bir ovuc torpaq götürüb İskəndərin əlinə qoyur və əlini də tabuta. Bundan sonra əli tabutdan bayıra çıxmır. Bunun səbəbini qocadan soruşurlar. Qoca izah edir ki, o, nə qədər ölkə tutmuşsa da hələ də doymamışdır. Ona görə də əlini bayıra çıxarmışdır. Mən onun əlinə bir ovuc torpaq tökməklə onu sakitləşdirdim." (8. səh.261-262).

Bu məsələ ilə bağlı Tağı Xalisbəyli "Nizami Gəncəvi və Azərbaycan qaynaqları" adlı tədqiqat əsərində Azərbaycan xalq nağıllarından N.Gəncəvinin xalq ədəbiyyatından bəhrələndiyini və xalq ədəbiyyatında onların qarşılığını göstərərək, müəyyən qədər nağıllarımızın yazılı ədəbiyyatda əksinin daha qədimliyini sübut etmişdir.

Erməni xalq nağıllarında əvvəllər Şah Abbasın adı ilə bağlı nağılları (məs. "Hər şey insanın öz əlindədir") olduğu kimi "Şah Abbas" adı ilə erməni nağılı kimi verirdilərsə, artıq Şah Abbasın adını nağıldan çıxarmışlar, lakin ona məxsus təğyiri libas olmaq ənənsini dəyişməyi unutmuşlar (məs. Sənət qızıldan üstündür (erm.) - Baftaçı Şah Abbas (Az.)).

"Sehirli üzük" , "Süleyman peyğəmbərin üzüyü", "Daş üzük", "İskəndər Zülqərneyn ilə üzük tapan çobanın nağılı"nın təsiri N.Gəncəvinin "İskəndərnamə" əsərində görünürsə (XII əsr) və bu nağıl Məhəmməd peyğəmbərin dinindən (VII əsr) əvvələ gedib çıxırsa, deməli, ermənilər Qafqaza köçürüləndə artıq bu nağıllar mövcud idi.

"Dünya gözəlinin nağılı"nda (er.) belə bir yer var.

Günlərin bir günü kişi arvadına deyir: - Ay arvad, gəl gedək Qüdsə, müqəddəs olub qayıdaq evimizə, görürsənmi artıq qocalmışıq (7.s.-191).

Xristianlar tarixən İsa peyğəmbərin qəbrinin Qüds (Yerusəlim) şəhərində olduğuna inanmışlar. Lakin Qüdsdə heç vaxt belə bir qəbir tapılmamışdır. Digər tərəfdən İsa peyğəmbər carmıxdan qeyb olmuşdur və O, xristianların inanclarına görə nə vaxtsa geri dönüb bütün xristianlara xoşbəxtlik gətirəcək. Xristianlıqdan sonra yaranmış İslam dininin müqəddəs kitabı "Qurani-Kərim"in "Ən-nisa" surəsində (4-cü surə,157-ci ayə) bu haqda yazılır:

.

**“(**Onların lənətə düçar olmalarının bir səbəbi də:) “Biz, Allahın elçisi Məryəm oğlu İsa əl-Məsihi öldürdük”, -deməleridir. Halbuki onlar İsanı nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlarda yalnız belə bir təsəvvür yarandı. Bu haqda ixtilafda olanlar onun (şəxsən öldürülməsi) barəsində, əlbəttə, şəkk-şübhə içərisindədirlər. Onların buna dair heç bir məlumatı yoxdur. Onlar ancaq zənnə qapılırlar. Həqiqətdə onu (İsanı) öldürməmişdilər.” (10. s.192**)**

Ermənilər Qüdsü Müsəllmanların “Məkkə”ni ziyarət etdikləri kimi ziyarət etmirlər. Burdan aydın olur ki, ermənilər nağılda Məkkənin ziyarətini Qüdsün ziyarəti kimi dəyişmişlər.

www.storybook.ru saytında erməni xalq nağılları adı altında “Müdrik toxucu”**,** “Sehirli qızılgül” ( Az. variantı “Kiçik şahzadə”), “Sənət qızıldan üstündür” (Az. variantı “Baftaçı Şah Abbas”), “Sifarişçi və usta, Şah və dərzi”, “Ayağını yorğanına görə uzat” (“ayağını yorğanına görə uzat” məsəli yalnız bizdə deyil bir çox türk dilli xalqların folklorunda da mövcuddur) adlı nağıllar yerləşdirmişlər, lakin həqiqətdə bu nağıllar Azərbaycan xalq nağıllarıdır.

Azərbaycan xalq nağılları atalar sözləri və məsəllər ilə zəngindir. Məs. Adam öz-özünə eləyəni el yığıla ona eləyə bilməz (1.s.127), Daldan atılan daş topuğa dəyər (1.s.34). Arvad var ərini əllam elər, arvad var bədnam elər (1. səh.280). Ananın əziz oğlu hambal olar, Ağıllı oğul neylər ata malını, sərək oğul neylər ata malını, Özgə özgənin itini bayatıynan çağırar (4.s.251) və s.

Erməni nağıllarında təbii ki, atalar sözlərimizi də dəyişiblər. Məs. Ağıllı adam axırda gülər (bizdəki. qarşılığı “Axırda gülən qalib olar”, yaxud “Axırda gülən yaxşı gülər”; türk folklorunda “Son gülən yaxşı gülər” və s.).

Nəticə olaraq onu deyək ki, Azərbaycan xalq nağılları beynəlxalq arenada tanıdılmalıdır. Çünki www.storybook.ru saytında dünya oxucuları Azərbaycan xalq nağıllarını məhz erməni xalq nağılı kimi mütaliə edirlər. Eyni zamanda SMOMPK-da dərc olunmuş milli folklor nümunələri, hansı ki, onlar da erməni adət-ənənələri, folklor nümunələri kimi göstərilmişdir onlar da diqqətdən kənarda qalmamalıdır. Nağıllara dair nəzərdən keçirdiyimiz az sayda sənədlərdən aşağıda dəyişdirilmiş xalq nağıllarımızdan çox az bir qisminin həm erməni, həm də Azərbaycan dilində olan adları verilmişdir. Bu nağıllar köklu dəyişikliklərə məruz qalmış və

.

beynəlxaq sənəd informasiya resursları sistemində əcnəbilik statusu almışdır.

| **Azərbaycan xalq nağılı** | **Erməni dilində dəyişdirilmiş adı** |
|---|---|
| Dad Xanpərinin əlindən | Pəri |
| Məlikməmməd, Bulud, Məlik Məhəmməd, Qızıl şamdan, | Padşahın bağbanı və ilan |
| Taxta qılınc | Qızıl balıq |
| Kiçik şahzadə, Məlikməmməd | Dirilik alması |
| Yoxsul qocaynan vəzir | İki qardaş |
| Daş üzük, Sehirli üzük | Yaxşılıq heç vaxt itməz |
| Dərzi şagirdi Əhməd | Şəyirdin yuxusu |
| Üç bacı, Qırx Qönçə xanım | Qızılkəkilli oğlanın nağılı, Yeddi bacı, Kiçik bacının nağılı |
| Baftaçı Şah Abbas | Sənət qızıldan üstündür |
| Hazaran gülü və bülbülü | Kiçik bacının nağılı |
| Tənbəl Əhməd | Oğul atasını tanımır |
| İsgəndər Zülqərneyn | İnsan gözü |

## ƏDƏBIYYAT


1. *Azərbaycan ədəbiyyatı inciləri:nağıllar.-B:Yazıçı,1985.-506 s.*
2. *Azərbaycan xalq nağılları / A.Nəbiyev; red.A.Quliyev.-Bakı:Gənclik.-1988.-463 s*
3. *Azərbaycan nağılları. Beş cilddə. I c.-B:Şərq-Qərb, 2005,-360 s.*
4. *Azərbaycan nağılları: Beş cilddə.-II c.-B:Şərq-Qərb,2005.-296s.*
5. *Babayev İ., Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı.-B:Maarif.-1976.-267 s.*
6. *Cəfərov N. Türk xalqlarının ədəbiyyatı. Qədim dövr: I cild / N.Cəfərov.- Bakı:Çaşıoğlu-AzAtaM.-2006.-320 s.*
7. *Erməni xalq nağılları / tərc ed. Tarverdiyev S.-B:Azərnəşr.-1988.-270 s. ( AMEA MEK. Şifrə AzK 17418)*
8. *Xalisbəyli T. Nizami Gəncəvi və Azərbaycan qaynaqları.-B.:Azərnəşr,1991.-296 s*

.

9. *Qaliboğlu E. Ermənilər nağıllarımızı da özəlləşdiriblər // Xalq Cəbhəsi.- 2009.- 30 dekabr.- S.14.*
10. *Quran-Kərim / tərc.ed.Z.Bünyadov, V.Məmmədəliyev; red.A.Paşazadə.-B:Çıraq.-2004.-680 s.*
11. *Zaqafqaziyada erməni xalq filologiyası / SMOMPK.-Tiflis.-1900.-28-ci bur.- 2-ci şöb.-səh.1-167.*
12. *az.naqillar;pdf*
13. *http:anl.az*
14. *http://az.wikipedia.org/*
15. *http://www.turania.org/az*
16. *www.storybook.ru*

***В.ГАСАНОВА***

**РОЛЬ ДОКУМЕНТОВ В ФОРМИРОВАНИИ БАЗЫ ИНФОРМАЦИОННОГО ДОКУМЕНТА СКАЗОК АЗЕРБАЙДЖАНА**

**РЕЗЮМЕ**

В статье были просматривается базовый документ информацию из рассказов. Эти документы масса связаны армян также. Статья о также, о тех азербайджанских народных сказках, которые были присвоены армянами, изменившими их названия. Связанный с этим дали анализ.

**V.HASANOVA**

**ROLE OF THE DOCUMENTS IN FORMING OF THE DOCUMENT INFORMATION BASE OF AZERBAIJAN TALES**

**SUMMARY**

In this article have been looked through the document information base of the tales. These documents mass are connected of the Armenians, too. Article was about Azerbaijan national tales which had been appropriated by the Armenians, who had changed their names, too. Connected with this had been given analysis.

***Kompüter tərtibçisi:*** ***Esmira ZƏRBALİYEVA***

*Jurnal Azərbaycan Respublikası*
*Mətbuat və İnformasiya Nazirliyində*
*qeydə alınmışdır.*
*Şəhadətnamə № 575. 27 mart 1997.*

*Yığılmağa verilmişdir:23.05..2011*
*Çapa imzalanmışdır: 24.08.2011*
*Kağız formatı 70x100 1/16*
*Fiziki ç.v. 8,5 ç.v*
*Sayı 300*
*Qiyməti müqavilə ilə.*

*Ünvan: AZ-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23*
*Bakı Universiteti Nəşriyyatı*
*Bakı Universiteti Nəşriyyatının mətbəəsi.*